RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100

№ 235 (9402) 27 OKTYABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Bu, sadəcə, başlanğıcdır

## Prezident İlham Əliyev regionda ən böyük günəş elektrik stansiyasının açılışını etdi



**Oktyabrın 26-da 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Əvvəlcə Qaradağ Günəş Elektrik Stansiyasında görülən işlər barədə videoçarx nümayiş olundu.**

Qeyd edək ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub.

Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

→ 2-3




## Qarabağ bölgəsində aşkarlanan sursatların bir hissəsi 2021-ci ildə istehsal edilib

**Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra əraziyə baxış zamanı aşkarlanan "TOS-1A" odsaçan sisteminin raketlərindən bir hissəsinin 2021-ci ildə istehsal olunduğu müəyyənləşdirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bundan başqa, bölgədə aşkar edilən "Kornet" və "Faqot" tank əleyhinə raket komplekslərinin, idarə olunan raketlərdən bəzilərinin 2020-ci ilin sonunda bağlanmış müqaviləyə əsasən Ermənistan tərəfindən istehsalçıdan birbaşa, bəzilərinin isə üçüncü dövlət vasitəsilə satın alınaraq Qarabağa gətirildiyi müəyyən edilib.

Bu faktlar lokal xarakterli antiterror tədbirlərinə qədər Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə Laçın yolu vasitəsilə qanunsuz hərbi daşımaların həyata keçirildiyinin əyani sübutudur.



## Ermənistanın avantürası onun iflasını sürətləndirir

"Məlumdur ki, sülh danışıqları zamanı Ermənistan qeyri-konstruktiv mövqe nümayiş etdirir. Ermənistan tarixi təkrarlayaraq Cənubi Qafqaza yenə də digər gücləri, lazımsız qüvvələri gətirməyə çalışır. Lakin başa düşmək istəmir ki, regionda əsas faktor Azərbaycandır. Azərbaycan isə heç bir vəchlə belə arzuolunmaz hadisələrin baş verməsinə razılıq verməyəcək. Həmçinin bu danışıqlara Fransanı cəlb etməyə cəhd etməklə Ermənistan özünün uğursuz siyasətini bir daha ortaya qoyur".

→ 11

## Fransanın məkrli planları baş tutmayacaq

"Fransa və Ermənistanı ümumi oxşar cəhətlər birləşdirir. Fransa Əlcəzair ərazisində 5 milyon mina basdırdığı kimi, Ermənistan da Azərbaycanın ərazilərində milyonlarla mina basdırıb və son üç ildə 340-dan çox vətəndaşımız mina qurbanına çevrilib. Fransa Afrika ölkələrində itirdiyi mövqelərini Cənubi Qafqazda yeniləyərək möhkəmlətməyə çalışır. Amma Fransa unudur ki, Cənubi Qafqaz Afrika deyil. Bu regionun əsas söz sahibi Azərbaycandır və onun ən yaxın müttəfiqi olan NATO-nun ikinci ordusuna malik Türkiyədir".

→ 11

## Mənfur təcrübə, çirkin maraq

### Fransa Ermənistanı silahlandırmaqla onu Azərbaycana qarşı revanşa sövq edir

■ Fransanın sərgilədiyi mövqe bu günə qədərki davranışlarının davamıdır. Rəsmi Paris hər zaman Ermənistanın işğalçılıq siyasətinə dəstək olub. Əslində, ATƏT-in keçmiş Minsk qrupunun həmsədri kimi münaqişənin tənzimlənməsi ilə deyil, idarəolunması ilə məşğul olub.

■ Təsadüfi deyil ki, Fransa parlamentində müzakirələr zamanı Azərbaycan ərazisində separatizmin aşkar şəkildə dəstəklənməsi ilə bağlı çağırışlar edilirdi. Həmin dövrdə ərazilərimizdə separatizmin mövcudluğu Fransanın maraqlarına xidmət edirdi. Təkcə Fransa deyil, Avropa siyasi dairələrinin yanaşması hər zaman Azərbaycan ərazisindəki ermənilərin vəziyyətinin beynəlxalq mexanizmlərin tətbiqi yolu ilə müəyyənləşdirilməsi olub.

■ Fransa Ermənistana vermiş olduğu yeni silahları öz sərəncamında saxlayıb, onlardan ermənilərin əli ilə istifadə etmək fikrindədir. Reallıq bundan ibarətdir. Fransanın bu addımı qınanmalıdır. Prezident İlham Əliyevin iradəsi, Azərbaycan dövlətinin gücü, qətiyyəti ilə Cənubi Qafqaz regionunun münaqişə potensialı əhəmiyyətli dərəcədə məhdudlaşdırılıb. Lakin Fransa Ermənistanı silahlandırmaqla regionda gərginliyin yüksək həddə saxlanılmasında maraqlı olduğunu nümayiş etdirir. Bütün bunlara qarşı təxirəsalınmaz addımlar atılmalıdır.

→ 11

## Yeganə məqsədimiz azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarına dinc şəkildə qayıdışını təmin etməkdir

**Qərbi Azərbaycan İcmasının Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşməsinə, bu günlərdə Varşavada ATƏT-in İnsan Ölçüsü Konfransı çərçivəsində tədbir keçirməsinə, Haaqada ATƏT-in milli azlıqlar üzrə komissarlığının tədbirində iştirakına Ermənistanın verdiyi reaksiya bir daha bu dövlətin siyasətində azərbaycanlılara qarşı olan etnik nifrətin səviyyəsini göstərir.**

Bununla Ermənistan həm də söz azadlığına və vətəndaş cəmiyyətinin fəaliyyətinə nə qədər dözümsüz yanaşdığını nümayiş etdirib. AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının mövzu ilə bağlı bəyanatında yer alıb.

Bəyanatda həmçinin vurğulanır ki, Ermənistan hökuməti dialoqdan qaçmaq üçün, guya, İcmanın ona qarşı ərazi iddiası irəli sürdüyünü iddia edir. Qərbi Azərbaycan İcması bir daha bildirir ki, onun Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə qarşı heç bir iddiası yoxdur və yeganə məqsədi azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarına dinc şəkildə qayıdışını təmin etməkdən ibarətdir.

# Bu, sadəcə, başlanğıcdır

## Prezident İlham Əliyev regionda ən böyük günəş elektrik stansiyasının açılışını etdi




## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli nazirlər.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Ötən ilin martında biz günəş elektrik stansiyasının təməlqoyma mərasimində iştirak edirdik. İndicə göstərilən video həmin tariximizin əlamətdar anını nümayiş etdirdi. Əminəm ki, bu, böyük bir yolun, iki qardaş ölkənin böyük yolunun başlanğıcıdır. Bu gün biz nisbətən qısa zamanda - təxminən ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin yaşıl enerji mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir. Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik etmək istərdim.

Bu gün qonaqlarımız arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin dörd nazirini, həmçinin qardaş ölkədən böyük nümayəndə heyətini görməkdən qürur duyuruq. Bu, tərəfdaşlığımızın və dostluğumuzun yaxşı nümunəsidir, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirir. Birincisi, ona görə ki, artıq göstərildiyi kimi, bu, regionda ən böyük günəş elektrik stansiyasıdır və ikincisi, ona görə ki, artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır.

Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq. Faktiki olaraq bu gün - bir qədər sonra biz çox qısa zamanda 1 qiqavat bərpaolunan enerji istehsalına yol açacaq üç investisiya sazişinin imzalanma mərasiminin şahidi olacağıq. Ona görə də bugünkü tədbiri Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında qardaşlıq əlaqələrinin parlaq nümunəsi hesab edirik.

Mən bu gün bizimlə birgə olduqlarına görə əziz qonaqlarımıza minnətdarlığımı bildirmək istərdim. Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim. Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir.

Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir. Dənizdəki yataqlardan ilk neft ötən əsrin ortalarında istehsal olunub. İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir.

Ona görə də mən ümidvaram və tam əminəm ki, bizim bütün planlarımız həyata keçəcək. Bugünkü mərasim faktiki olaraq bunu nümayiş etdirir. Mən həm də ümidvaram ki, bugünkü mərasim yaxşı nümunədir və Birləşmiş Ərəb Əmirliklərindən olan bir çox şirkətlərə gəlib bizimlə işləmək üçün yaxşı siqnal olacaq. Mən bilirəm ki, bu yaxınlarda bizim milli neft şirkətlərimiz, enerji şirkətlərimiz ADNOC və SOCAR artıq Azərbaycanda rəsmi olaraq tərəfdaş olublar. Bilirəm ki, Birləşmiş Ərəb Əmirliklərində və digər ölkələrdə birlikdə işləmək üçün planlar var. Beləliklə, biz indi həqiqətən də ölkələrimiz, hökumət strukturlarımız və şirkətlərimiz arasında əməkdaşlığın inkişafının yeni mərhələyə yüksəldiyini görürük.

Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin eyni zamanda biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır.

Əlbəttə ki, növbəti illərdə biz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac edəcəyik. Bu məqsədlə biz bu potensialı yaratmaq üçün tərəfdaşlarımızla, dünyanın müxtəlif ölkələrindən olan şirkətlərlə çox yaxından işləyirik.

Azərbaycandakı investisiya mühitinə gəldikdə, mən artıq qeyd etdim ki, ölkəmizin iqtisadiyyatı çox sabitdir. Son 20 il ərzində bizim ümumi daxili məhsulumuz dörd dəfədən çox artıb. Biz birbaşa xarici borcumuzu ümumi daxili məhsulun 10 faizindən aşağı səviyyəyə salmağa və iyirmi il bundan əvvəl 50 faizə yaxın olan yoxsulluq səviyyəsini 5,5 faizə endirməyə nail olmuşuq.

Beləliklə, bu onu göstərir ki, neft və qaz ixracından daxil olan gəlirlərin ədalətli paylanılması tamamilə yeni reallığı yaradır. Növbəti illərdə biz qısa müddət ərzində milli enerji şəbəkəmizin gücləndirilməsini təmin edəcək dövlət proqramını icra etməyi planlaşdırırıq. Bu, çox zəruridir. Çünki mən bizim yalnız "Masdar" şirkəti ilə icra etməyi planlaşdırdığımız layihələri qeyd etdim. Bir çox digər investisiya təklifləri var və onların bəziləri artıq icra mərhələsindədir.

Biz, əlbəttə ki, milli enerji şəbəkəsini gücləndirməliyik və qeyd etdiyim kimi, dövlət proqramı icra olunur. Biz hər şeyi vaxtında edəcəyik. Biz artıq maliyyə resursları ayırmışıq ki, bərpaolunan enerji mənbələrini istehsal edən investorlarımız özlərini tamamilə rahat hiss etsinlər.

Eyni zamanda sizə məlumat vermək istəyirəm ki, bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır.

Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir.

Bunu, ola bilsin, 10-20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür, hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır.

Beləliklə, bunlar gələcək üçün planlardır. Əlbəttə, bu investisiyalar bizə böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə edilir. Söhbət ixrac üçün qənaət ediləcək bir neçə milyard kubmetr təbii qazdan gedir. Çünki son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycan qazına Avropada heç vaxt olmadığı qədər daha çox ehtiyac var.

Biz əsas daşıma infrastrukturunu, Xəzər dənizindəki yataqlardan Avropaya qədər uzanan 3500 kilometrlik qaz boru kəmərini vaxtında istismara vermişik. Bu da daha geniş regionun enerji təhlükəsizliyinə daha bir töhfə olacaq.

Əlbəttə ki, planlarımız enerji dəhlizini, Xəzər-Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarımızla fəal işləməkdən ibarətdir. Ötən ilin dekabrında müvafiq müqavilə imzalanıb. Biz artıq fəaliyyətimizə başlamışıq, rəhbər komitə bir neçə dəfə toplanıb. Bir neçə aydan sonra bizim yeni enerji təhlükəsizliyi layihəsinin - Yaşıl Enerji Dəhlizinin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırması hazır olacaq. Hazırda 4 qiqavat gücündə bərpaolunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırma hazırlanır.

Beləliklə, bunlar bizim planlarımızdır və müstəqillik tariximiz bizim təkcə enerji sahəsində deyil, bütün sahələrdə planlarımızın gerçəkləşdiyini göstərir. Çünki bizim siyasi iradəmiz var, bizim cəmiyyətdə birlik var. Bizim Birləşmiş Ərəb Əmirlikləri və Birləşmiş Ərəb Əmirliklərindən olan şirkətlər kimi möhtəşəm tərəfdaşlarımız var.

Əminəm ki, biz bütün məqsədlərimizə nail olacağıq və gələcəkdə bu kimi daha çox mərasimlər keçirəcəyik. Bizimlə burada olduqları üçün qonaqlarımıza bir daha təşəkkürümü bildirmək və bu əlamətdar tədbir münasibətilə hamımızı təbrik etmək istəyirəm.

Çox sağ olun.



*Bax: səh. 3*

# Bu, sadəcə, başlanğıcdır

## Prezident İlham Əliyev regionda ən böyük günəş elektrik stansiyasının açılışını etdi

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri **Sultan Əhməd Əl-Cabir** mərasimdə çıxış edərək dedi:

- Salaməleyküm.

Zati-aliləri cənab Prezident Əliyev.

Hörmətli qonaqlar, əziz dostlar, xanımlar və cənablar.

Həqiqətən də Azərbaycana, Bakıya qayıtmaq və olduqca önəmli bir tədbirdə iştirak etmək xoşdur. Bu tədbir Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yolda mühüm bir tədbirdir.

İcazə verin, əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Zati-aliləri Prezident Əliyevə və Azərbaycan xalqına ən xoş arzularını çatdırım.

Cənab Prezident, bu ilin əvvəlində Azərbaycana gəlişimiz və indi də bu olduqca vacib mərasimdə layihənin gerçəkləşdirilməsində iştirak etməyimiz həqiqətən də bizim hörmətimizin, ehtiramımızın və götürdüyümüz öhdəliyə sadiqliyimizin nümunəsidir.

Mən "Masdar"ın heç bir layihəsini görməmişəm ki, dörd nazir və Birləşmiş Ərəb Əmirliklərinin ən yüksəksəviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsin. Bu, həqiqətən də böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir.

Cənab Prezident, mən Sizin çox nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpaolunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsarətli və düşünülmüş qərar idi, hətta mən deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, "yaşıl" iqtisadi artım üçün strateji addım idi.

Zati-aliləri, bu yanaşma Birləşmiş Ərəb Əmirliklərinin də yanaşmasının güzgüdəki əksinə bənzəyir. Əslində, bu, Birləşmiş Ərəb Əmirliklərinin ötən iyirmi il ərzində qəbul etdiyi bir yanaşmadır. Bu gün Birləşmiş Ərəb Əmirlikləri böyük fəxarət hissi ilə "Masdar" kimi mütərəqqi enerji şirkətinin timsalında bunu sərgiləmiş olur. Bildiyiniz kimi, "Masdar" dünyanın aparıcı məhz bərpaolunan enerji şirkətinə çevrilmişdir.

Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir. Bu, 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək və karbon dioksid emissiyalarını ildə 200 min ton azaldacaq layihədir.

Zati-aliləri, bir az əvvəl qeyd etdiyiniz kimi, biz bu gün həmçinin iki günəş və bir külək enerji istehsalı üzrə saziş imzalayacağıq ki, bu da gündə əlavə 1000 meqavat təmiz enerji deməkdir. Bunlar olduqca önəmli addımlardır. Bunlar konkret addımlardır ki, biz Azərbaycanda razılaşdırılmış 10 qiqavat gücündə bərpaolunan enerji layihələrini - külək və günəş enerjisinin inkişafı planımızı həyata keçirək. Bu, kifayət qədər sürətlə həyata keçirilən işdir.

Zati-aliləri, BMT-nin İqlim Dəyişikliyi üzrə COP-28 Konfransına cəmi 34 gün qalıb və bugünkü tədbir Paris Sazişinin məqsədlərini əyani reallığa çevirmək üçün lazım olan praktiki tədbirləri mükəmməl şəkildə təcəssüm etdirir. Bu il həlledici məqamdır. Mən deyərdim ki, COP-28 Paris Sazişindən sonra əldə edilən irəliləyişləri nəzərdən keçirən qlobal bir xülasə ili olduğu üçün iqlim fəaliyyəti istiqamətində kritik məqamdır.

Qeyd etmək lazımdır ki, Paris Konfransı dünyanı ortaq bir hədəf ətrafında birləşdirdi. Bu, ümumi məqsəd uğrunda millətləri və ölkələri birləşdirmək istiqamətində uğurlu bir addım idi. Lakin o vaxtdan bəri qlobal miqyasda aparılan təhlilləri nəzərdən keçirsək, görərik ki, biz tam məqsədə gedən yolda hələ də inamla irəliləmirik. Bərpaolunan enerjiyə yatırılan investisiyalar artmaqda davam edir. Bu il dünyada əlavə rekord 500 qiqavat istehsal edildi. Lakin, bilirsiniz, dünya 2030-cu ilə qədər bərpaolunan enerji gücünü üç dəfə artırmalıdır ki, 1,5 səviyyəsi əlçatan olsun.

İlk dəfədir ki, biz praktiki addımları COP-28 səviyyəsində cəmiyyətdə ifadə edirik, yəni emissiya yeddi il ərzində 22 qiqaton azaldılmalıdır. Mən əminəm ki, bu, çox böyük bir vəzifə, işdir. Bu, bütün millətlər, bütün ölkələr üçün bir vəzifədir. Heç bir ölkə, xalq, qurum bu işin öhdəsindən təkbaşına gələ bilməyəcək. Bizə hər bir ölkənin Azərbaycan kimi təmiz enerji sahəsində müəyyən edilmiş məqsədlərlə energetikaya keçid üçün aydın planlar hazırlaması lazımdır. Rekord müddətdə bir sıra tutarlı layihələrin hazırlanmasını və həyata keçirilməsini təmin etmək üçün iqlim maliyyələşdirməsində yenilikçi yanaşmalara ehtiyacımız var. Azərbaycandakı layihələrdə, bu layihədəki tərəfdaşlıqda da yanaşmalar məhz bu istiqamətdədir.

Hörmətli iştirakçılar, əziz dostlar.

Bu layihənin ərsəyə gəlməsində, onun reallaşdırılmasında əməyi keçən bütün tərəfdaşlara - Əbu-Dabi İnkişaf Fonduna, Asiya İnkişaf Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinə təşəkkür edirəm. Əslində, bu, özünəməxsus, bənzərsiz bir modeldir və ötən illər ərzində "Masdar"ın işləyib hazırladığı bir yanaşmadır. Bu, çoxtərəfli və ikitərəfli qurumların, xüsusən dünyanın müxtəlif yerlərindən aidiyyəti tərəflərin bir araya gəlməsinin nümunəsidir. Xüsusən planetimizin Cənub yarımkürəsində real nəticələr əldə etmək üçün dünyanın hər yerindən yenilikçi qarışıq maliyyə vəsaitlərinin bir araya gəlməsinin əla bir təzahürü, nümunəsidir. Bu, "Masdar"ın 40-dan çox ölkədə bərpaolunan enerji layihələrini uğurla həyata keçirmək üçün təxminən iyirmi ildir inkişaf etdirdiyi layihə maliyyələşdirməsində katalizator modelidir. Rəhbərlikdən aldığımız dəstək də əlamətdardır ki, bu dəstək vasitəsilə biz 40-dan çox ölkədə qısa müddət ərzində bu qədər layihəni həyata keçirmişik.

Azərbaycan Hökumətinin Azərbaycanın külək və günəş potensialından istifadə etmək, eyni zamanda sistemin baza gücünü təbii qazla təmin etmək baxışı enerjini daha təhlükəsiz, daha əlçatan və dayanıqlı edəcək. Həm "Masdar", həm də Birləşmiş Ərəb Əmirlikləri bu səyahətdə Sizin tərəfdaşınız olmaq arzusundadır. Bir çox digər ölkələrdə də belə layihələri həyata keçirmək əzmindəyik. Biz Azərbaycanla və dünyanın bir çox ölkələri ilə iddialı məqsədlərə nail olmaq üçün 2030-cu ilə qədər ən azı 100 qiqavat təmiz enerjini istehsal etmək məqsədilə bütün qitələrdə sizinlə və digər həmfikir tərəfdaşlarla, təşkilatlarla, ölkələrlə işləməyə davam etməyin intizarındayıq.

Bu həmçinin dünyada istifadə olunan enerji resurslarının karbonsuzlaşdırılması üzrə həmfikir tərəfdaşlarla birgə işləmək deməkdir ki, bu, əslində, gələcək rifah baxımından önəmli vasitə olacaqdır.

Zati-aliləri, ötən illər ərzində mən dünyanın müxtəlif yerlərində insanlarla görüşmüşəm, söhbət etmişəm. Son bir ildə deyə bilərəm ki, dünyanın hər yerindən, cəmiyyətin hər bir təbəqəsindən olan bir çox insanla, hökumət nümayəndələri, özəl sektor, biznes dairələri, elmi dairələr, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti və kifayət qədər məşhur şəxslərlə söhbət etmişəm. Bu söhbətlər əsnasında, bütün bu təmaslarda biz çox dərindən başa düşürük ki, qlobal iqlim dəyişikliyi ilə bağlı hansı addımlar atılmalıdır. Ona görə biz çox ümid edirik ki, BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransı bizə iqlim dəyişiklikləri ilə bağlı çox ciddi çağırışlara cavab vermək fürsəti yaradacaq.

Hazırda gündəlikdə olan problemlərin öhdəsindən gəlmək üçün bir sıra texnoloji vasitələr var. Amma bu texnologiyaların bir çoxu ilkin yaranma mərhələsindədir. Digər tərəfdən, qlobal maliyyə məsələsi də var. Bu qlobal maliyyə vəsaitlərinin rəva görülə biləcək, əlçatan ola biləcək səviyyəyə qaldırılması vacibdir. Təmaslarımızdan ibrət götürərək bir reallığı qəbul etmişik ki, əgər biz iqlim dəyişikliyi ilə bağlı maliyyə məsələsini həll etməsək, dünya yenə də qeyri-müəyyənlikdə qalacaq. Odur ki, biz yeni iqlim dəyişikliyi çərçivəsi yaratmaq istəyirik ki, onun daxilində çoxtərəfli inkişaf banklarını, beynəlxalq maliyyə təsisatlarını bir araya gətirmək mümkün olsun, bu maliyyəyə çatımlılıq və istifadə edilə biləcək olsun.

Bilirsiniz, eyni zamanda BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransını fərqləndirən cəhət bizim elə təməldən yanaşmamızdır. Bu, əməkdaşlıq, tərəfdaşlıq və tammiqyaslı inklüzivlikdir ki, onun sayəsində biz kollektiv olaraq iqlim dəyişikliyi çağırışlarının öhdəsindən gələ bilərik. Bu olmasa, cəhdlərimiz uğursuz olacaq. Paris Sazişindən ötən yeddiillik müddətə baxsaq, bəli, müəyyən irəliləyiş var, amma eyni zamanda qoyulmuş məqsədlərdən hələ çox uzağıq.

Paris Sazişi dünyanın bir saziş çərçivəsində bir araya gəlməsi baxımından vacib idi. Amma BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında biz istəyirik ki, Paris Sazişində qeyd olunanları praktiki, praqmatik nəticəyönümlü fəaliyyətlərə çevirək. Biz istəyirik ki, daha az söz və daha çox əməli iş olsun. Biz real dünya üçün real cavablar, həllər, nəticələr istəyirik. Məhz buna görə bu, hər kəsə açıq dəvətdir, hər kəs ki, buna töhfə verə bilər. Dubaya gəlsinlər və bu şüurla gəlsinlər. Ümid, nikbinlik, tərəfdaşlıq, birlik və həmrəylik olsun. Əgər biz həqiqətən də bu istiqamətdə paradiqma dəyişikliyi yaratmaq istəyiriksə, bu, bir uğur resepti olacaq.

Zati-aliləri, mən yenə də Sizə, Sizinlə əməkdaşlığa, Sizin liderliyinizə, nikbinliyinizə, yaradıcılığınıza və işləri həyata keçirmək coşqunuza güvənirəm. Üzümüzə gələn həftə ərzində Sizin nümayəndə heyətinizi Birləşmiş Ərəb Əmirliklərində COP-28 konfransından öncə nazirlər görüşündə, həmçinin BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında görmək intizarındayam. Biz istəyirik ki, burada sərgilənən o ruh, həqiqətən də liderlik ruhu, bu layihədə olan o ruh, pozitivlik, tərəfdaşlıq, işbirliyi, həmrəylik ruhu həmçinin COP-28 Konfransında sərgilənsin və qütbləşməyə, parçalanmağa artıq yetər deyək. Üzləşdiyimiz iqlim dəyişiklikləri çağırışlarının öhdəsindən gəlmək üçün dünyanı bir yol xəritəsi üzərində birləşdirmək vaxtıdır.

Zati-aliləri, mən Sizə nə qədər təşəkkür etsəm də azdır ki, Siz bizə bu qədər etimad göstərmisiniz, bizə fürsət vermisiniz. Əvvəl də qeyd etdiyim kimi, bu, olduqca müdrik bir baxış, müdrik bir liderlikdir. Bu həmçinin Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın lider baxışıdır ki, belə layihələr bu qədər qısa vaxt ərzində ərsəyə gəlib. Sizin dəstəyiniz, hökumətinizin də göstərdiyi yardım və dəstək sayəsində biz bu qədər qısa vaxt ərzində böyük nailiyyətlərə imza atdıq. Mən Sizə söz verirəm ki, bu bizim tərəfdaşlığımızın DNT-si olacaqdır.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan ilə olan təmaslarında hər kəsə və xüsusilə Sizə təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Qaradağ Günəş Elektrik Stansiyasını işə saldılar.

"Masdar" şirkəti tərəfindən hazırlanmış, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı Prezident İlham Əliyevə təqdim olundu.

Sonda xatirə şəkli çəkdirildi.














# Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlər imzalanıb



**Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni imzaladılar.

# Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Süheyl bin Məhəmməd Əl-Məzrui, investisiya naziri Məhəmməd Həssən Əl-Suveydi, Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə dövlət naziri Əhməd Əli Əl-Sayeğ, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Suveydi, "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi daxildir.

Prezident İlham Əliyev, ilk növbədə, qonaqlara Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak etdiklərinə görə minnətdarlığını bildirərək, bunu dostluq əlaqələrimizin və böyük hörmətin nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin tədbirdə iştirakına görə bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana minnətdarlığını çatdırmağı xahiş etdi.

Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasiminin keçirilməsini tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bir çox digər sahələri də əhatə etdiyini vurğuladı.

Prezident İlham Əliyev bugünkü görüşün əməkdaşlığımızın hazırkı vəziyyətinin və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi və gündəlikdə duran birgə layihələrin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, ilk növbədə, ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, Birləşmiş Ərəb Əmirliklərinin ali rəhbərliyi qüdrətli ölkə olan Azərbaycanla həmişə strateji tərəfdaşlığın önəmini qeyd edir.

Sultan Əhməd Əl-Cabir vurğuladı ki, Azərbaycan qısa müddət ərzində qarşıya qoyulan məqsədlərə çatmaq istiqamətində ciddi uğurlara nail olub. O, ölkələrimiz arasında mövcud olan əlaqələrin uzunmüddətli tərəfdaşlığa xidmət etməsinə əminliyini bildirdi, eyni zamanda vurğuladı ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığın və strateji tərəfdaşlığın yeni nümunəsinin yaradılması işinə sadiqlik nümayiş etdirir.

# Baş nazir Əli Əsədov 4-cü Tbilisi İpək Yolu Forumunun açılış mərasimində çıxış edib






**Gürcüstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov 4-cü Tbilisi İpək Yolu Forumunun açılış mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən Baş nazir dünyada baş verən son dəyişikliklər fonunda iqtisadi əməkdaşlıq və nəqliyyat bağlantıları ilə əlaqədar yaranan çağırışların forumun region və bütün dünya üçün əhəmiyyətini daha aydın şəkildə göstərdiyini vurğulayıb. Əli Əsədov bildirib ki, Azərbaycan və Gürcüstan tarixən Avropa ilə Asiya arasında iqtisadi-ticari əlaqələrdə oynadıqları körpü rolunu bu gün də davam etdirməkdədirlər.

Qeyd edilib ki, Azərbaycan və Gürcüstan 1990-cı illərin sonlarında Böyük İpək Yolunun bərpası konsepsiyasını ilk dəstəkləyən ölkələrdən olmuşlar. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsi təşəbbüsünə ilk qoşulan Gürcüstanın ovaxtkı Prezidenti Eduard Şevardnadze olmuş, həmin mötəbər konfrans 1998-ci ildə 9 ölkənin dövlət başçısının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə Bakıda keçirilmişdi. Konfransın yekununda Avropa İttifaqının TRACECA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmışdı.

Baş nazir Azərbaycanın regional nəqliyyat dəhlizinin inkişafı üçün gördüyü işləri qeyd edib və müsbət nəticələrin əldə olunduğunu vurğulayıb. Bildirib ki, Qazaxıstandan Gürcüstan limanlarına çatdırılma müddəti ötən illərlə müqayisədə əhəmiyyətli dərəcədə azalıb. Növbəti il üçün hədəf bu müddəti iki dəfəyə qədər (11-15 günə) endirməkdir. Bundan əlavə, bu dəhliz dünya miqyasında ən təhlükəsiz və operativ dəhlizlərdən birinə çevriləcək. Orta Dəhlizin potensialı dəmir yolları ilə yanaşı, limanların yükaşırma qabiliyyəti ilə də sıx bağlıdır. Bu baxımdan, Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Gürcüstanın Poti və Batumi limanları da Orta Dəhlizin mühüm elementləridir. Eyni zamanda Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi limanının genişləndirilməsi də Orta Dəhlizin fəaliyyətinə töhfə verəcək.

Azərbaycanın Baş naziri Əli Əsədov Gürcüstanın da bu istiqamətdə gördüyü işlərin təqdirəlayiq olduğunu qeyd edib. Bildirib ki, Gürcüstanda dəmir yolları müasirləşdirilir, limanlar inşa olunur və genişləndirilir, yol infrastrukturu inkişaf etdirilir. Həmçinin Azərbaycan-Gürcüstan əməkdaşlığının gündəliyində yeni liman infrastrukturunun yaradılması məsələsi durur və Azərbaycan tərəfi bu istiqamətdə də işbirliyinə hazırdır. Azərbaycan Xəzər dənizində ən böyük donanmaya sahibdir. Bakı Gəmiqayırma zavodu ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi və təmiri üçün sifarişləri uğurla yerinə yetirir, zavodun imkanlarının artırılması və mülki donanmanın genişləndirilməsi üzərində fəal iş aparılır.

Əli Əsədov əlavə edib ki, regionda yaranmış yeni reallıqlar bölgədə çoxtərəfli əməkdaşlığın keyfiyyətcə yeni müstəviyə çıxması üçün yaxşı şərait yaradır və bütün region ölkələrinə iqtisadi və ticari dividendlər gətirəcək.

Baş nazir çıxışında Azərbaycanın və Gürcüstanın birlikdə həyata keçirdikləri layihələrin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi, perspektivdə isə "Cənub qaz dəhlizi" ilə Avropaya nəql olunan Azərbaycan qazının həcminin iki dəfə artırılacağı, eyni zamanda Avropaya yaşıl enerji körpüsünün salınmasına başlandığını diqqətə çatdırıb.

Forumun işinə uğurlar arzulayan Baş nazir aparılacaq müzakirələrin və qəbul ediləcək qərarların Böyük İpək Yolunun inkişafına töhfə verəcəyinə, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə regional əməkdaşlığın genişləndirilməsinə şərait yaradacağına inamını vurğulayıb.

# Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüş

**Oktyabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tbilisiyə işgüzar səfəri çərçivəsində Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov Gürcüstan paytaxtında keçirilən Tbilisi İpək Yolu Forumuna dəvətə görə təşəkkürünü bildirib, regional və qlobal gündəlikdə duran iqtisadi və nəqliyyat məsələlərinin müzakirəsi baxımından tədbirin əhəmiyyətini vurğulayıb.

Görüşdə iki ölkə arasında dövlətlərarası əlaqələrin inkişafından məmnunluq ifadə olunub, Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin birgə səyləri nəticəsində strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli xarakter aldığı bildirilib.

Tərəflər ticarət-iqtisadi əməkdaşlığı təqdir edərək, cari ilin 9 ayında qarşılıqlı ticarətin həcminin 12 faizdən çox artdığını vurğulayıblar.

İnvestisiya əməkdaşlığının artırılmasının vacibliyi qeyd olunaraq Azərbaycanın Gürcüstanın ən böyük investorlarından biri olduğu məmnunluqla vurğulanıb. Həmçinin ölkəmizdə əlverişli investisiya mühiti barədə məlumat verilib.

Enerji sektoru ikitərəfli əməkdaşlığın əsas prioritetlərindən biri kimi qiymətləndirilib. Bildirilib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Cənub qaz dəhlizi" layihələri həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi tərəqqisinə mühüm töhfə verir.

Azərbaycan və Gürcüstanın birgə həyata keçirdikləri enerji və nəqliyyat layihələrinin Cənubi Qafqazın transformasiyasına xidmət etdiyi, regionun siyasi, iqtisadi, nəqliyyat və enerji xəritəsini dəyişdiyi bildirilib.

Tərəflər hər iki ölkənin ərazilərindən keçən nəqliyyat dəhlizlərinin potensialının genişləndirilməsinə böyük əhəmiyyət verdiklərini təsdiqləyərək Orta Dəhlizin artan əhəmiyyətini xüsusi vurğulayıblar.

Azərbaycan və Gürcüstandakı dəniz limanları Orta Dəhlizin mühüm halqaları kimi qiymətləndirilib. Liman infrastrukturu sahəsində əməkdaşlığın genişləndirilməsinin Orta Dəhlizin inkişafına xidmət edəcəyinə əminlik ifadə olunub.

Eyni zamanda hər iki ölkənin iştirakı ilə həyata keçirilən "Yaşıl enerji dəhlizi" layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyi bildirilib.

Ə.Əsədov Gürcüstanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin geniş qeyd edilməsinə görə təşəkkürünü ifadə edib. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ay Gürcüstana işgüzar səfəri çərçivəsində Tbilisidə Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr edilmiş fotosərginin təşkilinin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı iki ölkə arasında həyata keçirilən konkret layihələr nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub.



# Samux Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim edilib

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Samux Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Firdovsi Şahmirzə oğlu Əliyev oktyabrın 26-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlət başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

F.Əliyev ona göstərilən etimada görə minnətdarlıq edib.

## Milli Məclisin Sədri Sahibə Qafarova Anıtqəbirdə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət edib





**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankarada Anıtqəbirə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker və nümayəndə heyətinin üzvləri burada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət edərək, xatirəsini ehtiramla yad edib. Sahibə Qafarova məzarın önünə əklil qoyub.

Sonra Milli Məclisin Sədri Xatirə kitabına ürək sözlərini yazıb.

*"Azərbaycan"*

## Ankarada Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub





**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova Ümummilli Lider Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə əklil qoyaraq xatirəsini ehtiramla yad edib.

Qeyd edək ki, Ankaradakı Heydər Əliyev Parkı 2004-cü ildə salınıb. 2012-ci ildə parkda əsaslı yenidənqurma işləri aparılıb və bu park Türkiyə paytaxtının ən gözəl istirahət məkanlarından birinə çevrilib.

*"Azərbaycan"*

# Azərbaycanla Türkiyə arasında strateji müttəfiqlik münasibətləri uğurla inkişaf edir

**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə tərəflər arasında təkbətək görüş keçirilib. Görüşdə dost və qardaş ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib.

Azərbaycan Milli Məclisinin Sədrini böyük səmimiyyətlə salamlayan Numan Kurtulmuş ölkələrimiz arasında münasibətlərin bugünkü yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edərək, Sahibə Qafarovanın bu səfərinin də əlaqələrimizə töhfə verəcəyinə inamını bildirib.

TBMM Sədrinin sözlərinə görə, Azərbaycan və Türkiyə arasında strateji müttəfiqlik münasibətləri durmadan inkişaf edir. Ölkələrimiz bir çox məsələlərin həllində ortaq hərəkət edirlər. O, Azərbaycan və Türkiyə arasında əməkdaşlıq və işbirliyi sayəsində regionda mövcud olan problemlərin həll mərhələsinə daxil olduğunu, bu əməkdaşlığın Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasında vacib önəmini diqqətə çatdırıb.

Türkiyənin hər platformada Azərbaycanın yanında olduğunu söyləyən Numan Kurtulmuş artıq keçmişdə qalmış Ermənistanla Azərbaycan arasında münaqişənin Azərbaycanın iradəsi və gücü sayəsində həll olunduğunu, ölkəmizin öz ərazi bütövlüyünü və ədaləti təmin etdiyini söyləyib. O, ATƏT-in Minsk qrupunun uzun illər fəaliyyətsizliyini və problemin həlli üçün heç bir iş görmədiyini xatırladıb. Hazırda Azərbaycanın haqlı mübarizəsini əngəlləməyə çalışan dövlətlərin və bəzi lobbi dairələrinin olduğunu söyləyən TBMM Sədri Azərbaycanın diplomatiya sahəsində də qələbə qazanacağına inamını ifadə edib.

Spiker Sahibə Qafarova Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin əsasında xalqlarımızın ortaq tarixi, dili, dini, milli-mənəvi dəyərləri dayandığını qeyd edib, dövlət başçılarımızın şəxsi dostluğu və qardaşlığı, siyasi iradəsi və qətiyyəti sayəsində bu münasibətlərin "Bir millət, iki dövlət" prinsipi əsasında bütün sahələr üzrə hərtərəfli inkişaf etdiyini və özünün ən yüksək zirvəsinə - müttəfiqlik səviyyəsinə çatdığını, iki il öncə imzalanmış Şuşa Bəyannaməsinin Azərbaycan-Türkiyə əlaqələrini tamamilə yeni müstəviyə qaldırdığını vurğulayıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan və Türkiyənin bütün məsələlərdə həmrəylik, qarşılıqlı dəstək nümayiş etdirdiyini, həm sevincli, həm də kədərli, çətin günlərdə bir-birinin yanında olduğunu deyib. O, İkinci Qarabağ müharibəsinin ilk dəqiqələrindən etibarən, o cümlədən cari ildə Azərbaycan Ordusunun antiterror tədbirləri zamanı Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, qardaş Türkiyə dövlətinin və xalqının Azərbaycanın haqq işinə öz açıq siyasi və mənəvi dəstəyini nümayiş etdirdiyini xatırladaraq qeyd edib ki, bu gün Azərbaycanla Türkiyənin birliyi və həmrəyliyi, birgə fəaliyyəti, həyata keçirdiyi irimiqyaslı layihələr regional və beynəlxalq səviyyədə sabitliyə, təhlükəsizliyə və əməkdaşlığa töhfə verir.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova 2023-cü ilin həm Azərbaycanın, həm də Türkiyənin həyatında tarixi yubileylərlə zəngin olduğunu vurğulayaraq, bu il Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün yüksək səviyyədə qeyd edildiyini, həmçinin Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünün tamam olduğunu bildirib. Spikerin sözlərinə görə, bu bayram təkcə Türkiyənin deyil, bütün türk dünyasının bayramıdır.

O, qardaş Türkiyənin 100 ildə, xüsusilə son illərdə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında siyasi, iqtisadi, hərbi, texnoloji və digər sahələrdə hərtərəfli inkişaf yolu keçdiyini və böyük nailiyyətlər əldə etdiyini, beynəlxalq münasibətlərdə də çox böyük nüfuz qazanaraq, qlobal güc mərkəzinə çevrildiyini, öz sözü olan dövlət olduğunu söyləyib.

Görüşdə dost və qardaş ölkələrimizin parlamentləri arasında da münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə edilib. Milli Məclisin Sədri Sahibə Qafarovanın bu vəzifədə qardaş ölkəyə ikinci dəfə rəsmi səfər etdiyi, həmçinin TBMM Sədri Numan Kurtulmuşun bu vəzifəyə seçiləndən sonra xarici ölkəyə ilk rəsmi səfərini cari ilin iyul ayında məhz Azərbaycana etdiyi xatırladılaraq, qarşılıqlı səfərlərin, görüşlərin parlamentlərarası əlaqələrimizi daha da inkişaf etdirmək niyyətimizin ən böyük göstəricisi olduğu vurğulanıb.

Görüşdə parlament nümayəndə heyətlərimizin çoxsaylı qarşılıqlı səfərlərinin, beynəlxalq parlament təşkilatlarında birgə fəaliyyətin, əlaqələndirmə və qarşılıqlı dəstəyin bu əlaqələrin əsas xarakterik xüsusiyyətləri olduğu qeyd edilib. Sahibə Qafarova bu çərçivədə "Azərbaycan Respublikasının Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında əməkdaşlıq haqqında Saziş"in müttəfiqlik münasibətlərimizin parlament səviyyəsində də əks etdirilməsi baxımından mühüm əhəmiyyətini vurğulayaraq, ikitərəfli əməkdaşlıqla yanaşı, üçtərəfli formatda əməkdaşlığın da uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova parlamentlərarası əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi, beynəlxalq parlament təşkilatlarındakı nümayəndə heyətlərimiz arasında əlaqələndirmə və qarşılıqlı dəstəyin əhəmiyyətini xüsusi vurğulayıb. O, təəssüflə qeyd edib ki, bu gün bəzi təşkilatlarda Azərbaycana və Türkiyəyə qarşı reallıqdan uzaq məlumatların yayılmasının, qərəzli, birtərəfli münasibətlərin nümayişinin şahidi oluruq. Ermənistanın Qərbdəki havadarları Ermənistanın bu yalan iddiaları əsasında Azərbaycana qarşı ittihamlar irəli sürürlər. Bir sıra beynəlxalq parlament təşkilatlarının, xarici ölkə parlamentlərinin qəbul etdikləri anti-Azərbaycan qətnamələrində bu dairələrin izləri açıq-aşkar görünür. Halbuki onlar Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 il davam etmiş işğalına, 1 milyondan artıq soydaşımızın Ermənistanın etnik təmizləmə siyasəti ilə üzləşərək öz doğma torpaqlarından didərgin salınmasına, şəhərlərimizin, kəndlərimizin dağıdılmasına, tarixi, mədəni və dini abidələrimizin yerlə yeksan edilməsinə bu illər ərzində bir dəfə də olsun münasibət bildirməyiblər. Milli Məclisin Sədri bu cür bədnam kampaniyalara qarşı birgə addımların atılmasını, həmçinin beynəlxalq parlament təşkilatlarının sessiyaları öncəsində heyətlərimiz arasında müntəzəm görüşlərin, məsləhətləşmələrin daha da gücləndirilməsini, eyni zamanda dost ölkələrin heyətləri ilə də təmasların artırılmasını zəruri hesab edib.

Görüşdə tərəflər qeyd ediblər ki, parlamentlərimizdəki dostluq qruplarının qarşılıqlı təmaslarının daha da genişləndirilməsi Milli Məclislə TBMM arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi böyük əhəmiyyət kəsb edir. Həmçinin TÜRKPA çərçivəsində də səmərəli əməkdaşlığın əhəmiyyəti diqqətə çatdırılıb.

Spiker Sahibə Qafarova qeyd edib ki, ayrı-ayrı sahələr üzrə parlament komitələrinin əməkdaşlığının gücləndirilməsi birgə fəaliyyətimizə müsbət təsir göstərə bilər. Digər tərəfdən, parlament aparatlarının əməkdaşları arasında təcrübə mübadiləsi də faydalıdır. Bu mənada, Milli Məclis Aparatının nümayəndə heyətinin Türkiyəyə, Türkiyə Böyük Millət Məclisinin Baş katibinin nümayəndə heyəti ilə Azərbaycana səfərləri təqdir edilib.

Görüşdə spiker Sahibə Qafarova regionda mövcud olan vəziyyət, Azərbaycanın artıq öz ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etməsi, Azərbaycan dövlətinin həyata keçirdiyi antiterror tədbirləri haqqında da məlumat verib. O bu tədbirlərin regional sülh, təhlükəsizlik və sabitlik qarşısında dayanan ən böyük maneəni - aqressiv separatizmi aradan qaldırmağa xidmət etdiyini, erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını, separatçı rejimin mövcudluğuna son qoyulmasını diqqətə çatdırıb. Spiker antiterror tədbirləri zamanı mülki əhalinin və mülki obyektlərin qətiyyən hədəfə alınmadığını, bununla bağlı bir dənə də olsun faktın mövcud olmadığını vurğulayıb. Hazırda Azərbaycan hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası, Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində tədbirləri uğurla davam etdirir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Naxçıvanda gənclər siyasəti uğurla həyata keçirilir





**Oktyabrın 26-da Naxçıvan şəhərində "Heydər Əliyev müasir Azərbaycan gənclər siyasətinin banisidir" mövzusunda tədbir keçirilib. Tədbirdə Milli Məclis Sədrinin müavini Adil Əliyev, parlamentin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Muxtar Respublikanın gənclər və idman nazirinin müavini Məcid Seyidov iştirak ediblər.**

Tədbirdə Naxçıvan Muxtar Respublikasının müxtəlif rayon və şəhərlərindən 400-dən artıq gənc, Vətən müharibəsi qaziləri, şəhid ailələrinin üzvləri olan gənclər və kursantlar iştirak ediblər. Tədbir Dövlət himninin səslənməsi ilə başlayıb, daha sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi anılıb.

Milli Məclis Sədrinin müavini Adil Əliyev çıxışında Ulu Öndərin həm sovetlər zamanı Azərbaycana rəhbərlik etdiyi dövrdə, həm də müstəqillik dövründə prezident kimi ölkədə gənclər siyasətinin təməlinin qoyulması və inkişafındakı müstəsna rolundan bəhs edib. O, Ulu Öndərin atdığı konkret addımlar və qərarlarla onun gənclər siyasətini necə ərsəyə gətirdiyini əsaslandırıb.

O qeyd edib ki, müdrik rəhbərin göstərişi əsasında hələ ötən əsrin 70-80-ci illərində yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərində müxtəlif ixtisaslar üzrə təhsil almaları təmin edilmişdir. Təkcə 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc aparıcı ali təhsil ocaqlarına göndərilmişdi. Onların əksəriyyəti geri qayıdaraq Azərbaycanda müxtəlif sahələrdə çalışdılar, mütəxəssislərə çevrildilər. Gənclər Moskvadan başqa Kiyevdə, Xarkovda, Minskdə və Sankt-Peterburqda təhsil alırdılar. Onlar Azərbaycan Respublikasının daxil olacağı yeni dövrün problemlərini həll etməli idilər. Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldikdən sonra müxtəlif çağırışlarla üzləşdi, çevrilişlərin qarşısını aldı, əsrin neft kontraktını imzaladı, halbuki buna da mane olmaq istəyirdilər. Neftin dünya bazarlarına çatdırılması yolları müəyyənləşdi və Ümummilli Lider qardaş Türkiyəyə üstünlük verdi. Sabitliyin bünövrəsi möhkəmləndikdən sonra Ümummilli Lider gənclər siyasətini formalaşdırmağa başladı. Heydər Əliyev gəncləri ölkənin gələcəyinin qurucuları hesab edirdi.

Adil Əliyev Ulu Öndərin gənclər siyasətinin hazırda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla və zamanın tələblərinə uyğun surətdə inkişaf etdirildiyini vurğulayıb. O, eləcə də milli-mənəvi dəyərlərimizə bağlı yetişmiş gəncliyimizin İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətdən, ölkəmizin ərazi bütövlüyünün bərpa və suverenliyinin bərqərar edilməsindən söhbət açıb. Ulu Öndərin banisi olduğu gənclər və idman siyasətini layiqli surətdə inkişaf etdirən Prezident İlham Əliyevin qarşımıza qoyduğu prioritetlərdən biri gənclərin elmli, təhsilli, layiqli vətəndaşlar kimi yetişdirilməsidir. Azərbaycan gənclərinin dünyanın qabaqcıl universitetlərində təhsil alması məqsədilə cənab Prezidentin tapşırığı ilə xaricdə təhsillə bağlı xüsusi proqramlar həyata keçirilir, eləcə də yerli universitetlər və təhsil müəssisələri inkişaf etdirilir.

Sonda gənclərlə onları maraqlandıran mövzularda müzakirələr aparılıb. Milli Məclisin Sədr müavini gənclərə hədiyyələr təqdim edib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Havada, suda, quruda - hər yerdə

## Birgə təlimlər Azərbaycan və Türkiyə hərbçilərinin döyüş qabiliyyətini daha da gücləndirir

**Oktyabrın 23-də başlayan Azərbaycan-Türkiyə birgə taktiki təlimi oktyabrın 25-də başa çatdı. Üç gün davam edən "Mustafa Kamal Atatürk - 2023" hərbi təlimlərində qarşıya qoyulan tapşırıqlar hər iki ölkənin hərbçiləri tərəfindən uğurla yerinə yetirildi.**

"Yüksəksəviyyəli müşahidəçi günü"ndə müdafiə nazirləri general-polkovnik Zakir Həsənov və Yaşar Güler digər qonaqlarla birgə təlimdə iştirak edən bir qrup hərbi qulluqçu ilə görüşərək təlimdə fərqlənənləri mükafatlandırdılar. Ümumilikdə təlimin gedişatı yüksək qiymətləndirildi.

Xatırladaq ki, birgə taktiki təlimlər Azərbaycan və Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən keçirilib və Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunub.

İki qardaş ölkənin birgə taktiki təlimlərinin əhəmiyyəti barədə "Azərbaycan" qəzetinə danışan hərbi ekspert Ramil Məmmədli qeyd edib ki, Azərbaycan və Türkiyə hərbi texniki əməkdaşlığı 1994-cü ildə imzalanan strateji tərəfdaşlıq əsasında inkişaf etməyə başlayıb.

Ekspert bildirib ki, Azərbaycan Ordusunun inkişafı mərhələsində Türkiyə ilə əməkdaşlıq özünəməxsus yer tutub: "Ötən 10 il ərzində bu əməkdaşlıq daha yüksək səviyyədə inkişaf etməyə başlayıb. Hesab edirəm ki, birgə təlimlər, ümumiyyətlə, Azərbaycan Ordusunun inkişafı istiqamətində əsas amillərdən birinə çevrilib. Hərbi təlimlər ordunun döyüş hazırlığını yüksək səviyyədə saxlamaq, döyüş bacarığını gücləndirmək baxımından olduqca əhəmiyyətli bir prosesdir. Sonuncu birgə təlimlərə gəlincə, bunu Qələbə paradı da hesab etmək olar, həmçinin xüsusi simvolik mənası da var. Bu, məsələnin hərbi-siyasi tərəfidir. Məsələnin texniki tərəfinə gəldikdə isə təlimlər istifadə olunan silah və texnikalar baxımından da fərqlənir".

R.Məmmədli qeyd edib ki, Silahlı Qüvvələrimizin təlimlərdə istifadə etdiyi hərbi texnikalar əsasən hücum təyinatlı olub. Bu baxımdan təlimləri hücumameyilli təlimlər də hesab etmək olar. Təlimlər həm yerüstü texnikalar, həm də döyüş aviasiya vasitələri baxımından zəngin, rəngarəng mərhələdə keçdi. Silahlı Qüvvələrimiz həm artilleriya, həm raket sistemlərini, həm döyüş təyyarələri, helikopterlərini sınaqdan çıxardılar.

Ekspert vurğulayıb ki, təlimlərin Türkiyə ilə birgə keçirilməsi hərbi əməliyyatlarda daha effektiv nəticə baxımından Azərbaycan Ordusuna üstünlük yaradır. "Ümumiyyətlə, on il ərzində Azərbaycan və Türkiyə ordularının müxtəlif qoşun növləri səviyyəsində təlimləri həyata keçirilib. Bu təlimlərdə bütün növ silah, texnikalardan istifadə olunub və texnikaların döyüşə hazırlığı, bunlardan istifadəetmə qabiliyyəti mənimsənilib", - deyə o əlavə edib.

Ekspert bildirib ki, "Mustafa Kamal Atatürk - 2023" təlimlərini hərbi-siyasi baxımdan bir sıra dövlətlərə ismarıcla yanaşı, həm də regionda təhlükəsizliyin və sabitliyin təmin olunması istiqamətində bir mesaj kimi də dəyərləndirmək olar.

R.Məmmədlinin fikrincə, bu təlimlər 2023-cü ilin sonuncu irimiqyaslı təlimləri olacaq. Azərbaycan Ordusu qarşısına qoyulan bütün tapşırıqları artıq tam icra edib və bundan sonra da prosesi davam etdirmək imkanında, qabiliyyətindədir. Qarşıdan ordumuzun daha mükəmməl, daha modern mərhələyə qədəm qoyması dövrü gəlir və növbəti prosesdə daha irimiqyaslı təlimlərin keçiriləcəyinin şahidi olacağıq. Bu həm də Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının daha da güclənməsinə xidmət edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Dağ-mədən sənayesinin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır

**Bakıda ilk dəfə keçirilən Geologiya-Mədənçilik Forumunun Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması xüsusi önəm daşıyır. Çünki Azərbaycanda dağ-mədən sənayesinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Hələ sovetlər zamanında Ulu Öndərin respublikamıza rəhbərliyi dövründə bu sahəyə çox ciddi diqqət yetirilmiş, böyük inkişafa nail olunmuşdu. Bunun nəticəsidir ki, respublikamızda çox sayda dağ-mədən filiz yatağı aşkar olunaraq öyrənilmişdir.**



Müasir dünyada hər bir dövlətin iqtisadi qüdrəti onun dağ-mədən sənayesinin inkişafı ilə sıx bağlıdır. Sənayenin bu sahəsi Azərbaycanın da inkişafında mühüm rola malikdir. Bu sahə sənaye və digər istehsal sahələrinin formalaşması və fəaliyyəti üçün həyati əhəmiyyət kəsb edir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafında aparıcı istiqamətlərdən birinə çevrilməklə yanaşı, dağ-mədən sənayesi həm də Azərbaycanın iqtisadi cəhətdən dünya bazarlarındakı mövqelərinə də təsir edir. Belə ki, Azərbaycanın dünya iqtisadiyyatında mövqelərini gücləndirəcək qədər müxtəlif faydalı qazıntı yataqları mövcuddur.

Ölkəmizdə dağ-mədən sənayesinin inkişafından söhbət açarkən qara metal filizi yataqlarının işlənməsinin önəmini ayrıca qeyd etmək lazımdır. Bildiyimiz kimi, respublikamızın ərazisində kifayət qədər faydalı qazıntı ehtiyatları var (Filizçay kolçedan-polimetal, Daşkəsən dəmir filizi, Zəylik alunit, Daş Salahlı bentonit, Çovdar qızıl, Naxçıvan və Nehrəm duz, Aydağ seolit və s.). Hazırda Azərbaycanda iqtisadiyyatın mineral xammal istifadəsinə əsaslanan bütün sahələrinin stabil inkişafını və ona olan tələbatın ödənilməsini təmin edən etibarlı baza yaradılmışdır. Bu gün respublikamızın mineral-xammal bazası faydalı qazıntılar balansına daxil edilmiş çox sayda filiz, qeyri-filiz, tikinti materialları, yeraltı su (şirin, mineral, termal, yodlu-bromlu, sənaye) yataqlarından ibarətdir.

Azərbaycan coğrafi-təbii mövqeyi baxımından qədim dövrlərdən dağ-mədən sənayesinin formalaşması və inkişafı üçün dünyanın ən qədim insan məskənlərindən biridir. Ən qədim dövrlərdə Azərbaycan ərazisinin qiymətli təbii sərvətlərlə zəngin olması bir çox tarixi mənbələrdə qeyd olunub. Arxeoloji qazıntılar zamanı tapılan əşyalar sübut edir ki, hələ eramızdan əvvəl ölkəmizin ərazisində bu sahədə ciddi fəaliyyət olub. Buna misal olaraq qeyd edə bilərik ki, hələ qədim zamanlarda respublikamızın ərazisində çox ciddi misgərlik fəaliyyəti olub. İndiyə kimi də bu qədim sənəti davam etdiririk.

Ötən əsrin əvvəllərindən respublikamızın müxtəlif bölgələrində aparılmış arxeoloji qazıntılar zamanı antik və orta əsr abidələrinə aid çoxsaylı, rəngarəng çeşidli qızıl, gümüş - sırğa, üzük, kəmər, bəzək əşyaları tapılıb. Burada zərgərlik sənəti texniki cəhətdən geniş inkişaf edib. Sənətkarlar əsasən qızıl və gümüşdən zinət məmulatları istehsalı istiqamətində ixtisaslaşıblar. Bütün bunlar Azərbaycanın həm də qədim metallurgiya ocaqlarından biri olduğunu sübut edir.

Azərbaycanın təbii sərvətləri beynəlxalq səviyyədə hər zaman diqqət mərkəzində olmuşdur. Hələ XIX əsrin əvvəllərində ölkəmizin ərazisində neft-qaz sahəsində Nobel qardaşlarının, qızıl-mis sferasında Siemens qardaşlarının fəaliyyətlərini misal çəkmək olar. 1867-1914-cü illər ərzində alman şirkəti "Siemens" tərəfindən Gədəbəydəki yataqlardan mis, qızıl, gümüş, Bittibulaq yatağından mis filizi, Daşkəsən kobalt yatağından kobalt filizi çıxarılıb. XX əsrin əvvəllərində digər alman şirkəti "Vagau" Balakən rayonu ərazisində əlvan metal yataqlarının axtarışı və istismarı ilə məşğul olub, Cixix və Köhnəmədən yataqlarından hasil edilən filizləri yerindəcə emal edərək, alınan misi yerli iş adamlarına satıblar. 1862-1872-ci illərdə Naxçıvan şəhərinin yaxınlığında, Tumbul kəndində selitra istehsal edən zavod fəaliyyət göstərib. XIX əsrin 80-ci illərində Şan Qirem tərəfindən, 1914-cü ildə isə ingilis Atterton tərəfindən Gömür kükürd yatağının (Naxçıvan MR) bazası əsasında kükürd istehsal edən zavod fəaliyyət göstərib.

Azərbaycanda faydalı qazıntı yataqlarının kütləvi istismarına SSRİ dövründə başlanılıb. SSRİ-nin dağılmasından sonra bu yataqların bəzilərinin istismarı dayandırılıb, bəzi yataqların istismarı isə hökumətin icazəsi ilə müəyyən şirkətlər tərəfindən həyata keçirilib.

Güclü mineral xammal bazası əsasında dağ-mədən sənayesinin inkişafı respublikamızın iqtisadiyyatının inkişafında qeyri-neft sektorunun payının artırılmasında mühüm yer tutmaqdadır. Azərbaycan ərazisində çoxlu sayda qara, əlvan və nəcib metal filizləri, qeyri-filiz xammalı və tikinti materialları yataqları var. Onların içərisində qızıl, mis, qurğuşun, sink filizləri və tikinti materialları yataqları xüsusi yer tutur. Hazırda bu yataqların böyük əksəriyyəti istismar olunur. Son zamanlar Daşkəsən (Çovdar) və Gədəbəy rayonları ərazisində qızıl və misin çıxarılması və emalı üzrə dağ-mədən müəssisələri fəaliyyət göstərir, Daşkəsən dəmir filizi kombinatı öz işini bərpa edib.

Onu da qeyd edək ki, təbii sərvətlər hər zaman öz xalqına xöşbəxtlik gətirmir. Buna Fransanın hələ də müstəmləkəsində olan bəzi Afrika ölkələrini misal göstərmək olar. Fransız müstəmləkə imperiyasının ərazisi 1900-1939-cu illərdə 13 milyon 500 min kvadratkilometrə çatmışdı. Bu ölçü həm də dünyanın ümumi ərazisinin 10 faizinə bərabər idi.

1958-ci ildə Afrikadakı müstəmləkələrinə müstəqillik verərək geri çəkilən Fransa özündən asılı saxladığı bu ölkələrə hələ də mədəni, iqtisadi və siyasi baxımdan nəzarət edir. Hazırda Fransanın qızıl ehtiyatlarının həcmi təqribən 2000-3000 ton təşkil edir. Lakin Beşinci respublikanın ərazisində bir dənə də olsun qızıl mədəni və yataq yoxdur. Bunlar hamısı Fransanın koloniyalarının hesabınadır.

Azərbaycan xalqı isə öz sərvətlərinin sahibidir. Ölkəmizin mineral-xammal bazasının mövcud vəziyyəti və perspektivləri respublikamızın dağ-mədən sənayesinin inkişaf etdirilməsinə, milli və xarici investisiyaları cəlb etməklə yaxın gələcəkdə dağ-mədən sənaye məhsulları və xammalının dünya bazarına inteqrasiya olunmasına geniş imkanlar yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədi ilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsinin genişləndirilməsi və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi nəzərdə tutulub. Bəlli olduğu kimi, yerin təkindəki mineral-xammal ehtiyatları ümumi təbii sərvətlərin əsas hissəsi olmaqla hər bir ölkənin iqtisadi və sosial-siyasi müstəqilliyini müəyyən edən amillərdən hesab olunur. Bu baxımdan Azərbaycan geoloqlarının fədakar əməyi sayəsində respublika ərazisində yaradılmış mineral-xammal bazasının mövcud vəziyyəti və perspektivləri ölkəmizdə dağ-mədən sənayesinin inkişaf etdirilməsinə milli və xarici investorların cəlb olunması ilə dünya sənayesinə inteqrasiyasına geniş imkanlar açıb. Bu illərdə Azərbaycanın zəngin təbii ehtiyatlarının təbliği və beynəlxalq ictimaiyyətin marağına çatdırılması üçün maarifləndirici addımlar da atılıb.

Ölkədə dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" adlı sənəddə də yer alır. "Strateji Yol Xəritəsi"ndə dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi kimi mühüm vəzifə də öz əksini tapıb.

Azərbaycan ərazisində yerləşən faydalı qazıntı yataqlarından hasil olunan metal filizlərindən səmərəli istifadə üçün ölkə rəhbərliyi tərəfindən qəbul olunmuş bir sıra qərarlar bu sahədə işlərin daha effektiv idarə olunması və təkmilləşməsinə xidmət edib. Bu baxımdan, dövlət başçısının "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" müvafiq fərmanına uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi yaradılıb. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda ölkəmizin qeyri-neft sektorunun və fəaliyyətinin önəmli mərhələsini yaşayan dağ-mədən sənayesinin də yeni inkişaf istiqamətləri müəyyən olunub.

Müasir dövrdə dağ-mədən sənayesinin inkişafı və bu sahədə uğurlu fəaliyyətin təmin edilməsi üçün qəbul olunan qanunvericilik sənədləri və dövlət proqramları xüsusi əhəmiyyət daşıyır. Belə ki, Azərbaycan Prezidentinin 16 mart 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı" mineral xammal bazasının qorunması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi, xammal tələbatının ödənilməsi, qanunvericiliyin tələblərinə, norma və standartlara əməl olunması, təhlükəsizliyin və şəffaflığın təmin edilməsi, ətraf mühitin, təbii landşaftın mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi məqsədilə də müvafiq tədbirlər həyata keçirilməsinə imkan verib. Azərbaycanın mühüm təbii və mineral ehtiyatlarının mənimsənilməsi və ixrac potensialının gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli sərəncamına əsasən "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti yaradılıb. Bununla da ölkə ərazisində əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, bu metalların hasilatı, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı əhəmiyyətli işlərə başlanılıb.

Beləliklə də xüsusi qeyd olunmalıdır ki, müasir çağırışlar nəzərə alınmaqla son 10 ildə ölkəmizdə dağ-mədən sənayesinin yeni inkişaf konsepsiyası işlənib hazırlanıb və uğurla həyata keçirilməkdədir.

30 il ərzində Ermənistanın əsarətində olan tarixi Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə bu əzəli bölgələrimizdə yenidənqurma, bərpa-tikinti işlərinə başlanılıb. Güclü dövlət olan Azərbaycan işğaldan azad olunan ərazilərə Böyük qayıdışı yüksək səviyyədə təmin etmək əzmindədir. Müharibənin başa çatmasından az vaxt ötməsinə baxmayaraq, qeyd olunan ərazilərdə böyükmiqyaslı bərpa və quruculuq işlərinə başlanılması deyilənləri əyani şəkildə təsdiqləyir.

İşğaldan azad olunan ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsi də ölkəmizdə dövlət siyasətinin mühüm prioritetləri sırasında yer alır. Prezident İlham Əliyev 7 iyul 2021-ci ildə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərman imzalayıb. Sənədə əsasən, ölkəmizdə iqtisadi rayonların sayı artırılaraq 14-ə çatdırılıb və respublikamızın iqtisadi rayonlarının sırasına Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının adları da daxil edilib. Qarabağ iqtisadi rayonu Xankəndi şəhərini, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edir. Vətən müharibəsində işğaldan azad olunan Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları isə Şərqi Zəngəzur iqtisadi rayonunda birləşir. Göründüyü kimi, işğaldan azad edilmiş ərazilərin yeni iqtisadi rayonlarda birləşdirilməsi ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqlara əsaslanır.

Bu ərazilərdə iqtisadiyyatın inkişaf etdirilməsi üçün nəzərdə tutulan istiqamətlər sırasında dağ-mədən sənayesi də yer alır ki, bu da təsadüfi deyil. Sözügedən ərazilərdə dağ-mədən sənayesi üçün böyük potensial var. Burada zəngin faydalı qazıntı ehtiyatı hesabına dağ-mədən sənayesinin inkişafı planlaşdırılır. Xüsusən də Söyüdlü yatağının hesabına Kəlbəcərin bölgədə dağ-mədən sənayesinin mərkəzinə çevrilməsi imkanları genişdir. Ümumiyyətlə, Qarabağ bölgəsinin ölkəmizdə mədənçıxarma sənayesində payı yüksək qiymətləndirilir.

İşğaldan azad edilmiş ərazilərdə dağ-mədən sənayesinin inkişafı üçün geniş imkanlar olduğuna diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda da bu sahənin çox böyük perspektivi var. Bildiyiniz kimi, uzun illər xarici şirkətlər qanunsuz olaraq bizim qızıl və digər mədənlərimizi istismar edirdilər. Bu, cinayətdir və mən bu haqda artıq öz sözümü demişəm, bir daha demək istəyirəm, bu şirkətlərin iki yolu var: ya bizə təzminat ödəyəcəklər, bizim şərtlərimizi qəbul edəcəklər, ya da ki, onların başqa alternativi hüquqi müstəvidə bu məsələnin həll olunmasıdır".

Gündən-günə sürətlənən qloballaşma prosesi dağ-mədən sənayesinin rolunu və əhəmiyyətini artırır. Bu sahə Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafı üçün prioritetlərdəndir. Yerin təkindəki mineral-xammal ehtiyatları ümumi təbii sərvətlərin əsas hissəsi olmaqla hər bir ölkənin iqtisadi və sosial-siyasi müstəqilliyini müəyyən edən amillərdəndir. Azərbaycan geoloqlarının fədakar əməyi sayəsində respublika ərazisində yaradılmış mineral-xammal bazasının mövcud vəziyyəti və perspektivləri ölkəmizdə dağ-mədən sənayesinin inkişaf etdirilməsinə, milli və xarici investorların cəlb olunması ilə dünya sənayesinə inteqrasiyasına geniş imkanlar açır. Hazırkı qloballaşma dövründə biz dünya iqtisadiyyatının mövcud vəziyyətinə nəzər salsaq, görərik ki, dağ-mədən sənayesi, həqiqətən, burada aparıcı rol oynayır.

Son 20 ildə milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri qeyri-neft sektorunda qeydə alınıb ki, bu da təsadüfi deyil. Bəhs olunan dövrdə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında neftdənkənar iqtisadiyyatın inkişafı davamlı olaraq diqqət mərkəzində saxlanılıb və bu məqsədlə silsilə tədbirlər görülüb. Yüksək infrastruktur təminatı, ardıcıl səciyyə daşıyan islahatlar, həmçinin neft gəlirlərinin məqsədyönlü şəkildə iqtisadiyyatın şaxələndirilməsinə yönəldilməsi, innovativ texnologiyalarla işləyən yeni istehsal müəssisələrinin yaradılması, sənaye xəritəsinin regionlara doğru genişləndirilməsi və digər belə tədbirlər öz müsbət nəticələrini verib.

*Sadiq QURBANOV,*
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*



# Zəfər bayrağı

## İlham Əliyev milli rəmzimizi bütün Azərbaycan ərazisində qürurla dalğalandırır

**"Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".**



20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, tam müstəqil siyasəti ilə dünyada etibarlı tərəfdaş statusunu qazanan, ən nəhayət, 200 illik erməni xülyasını məhv edən İlham Əliyev Xankəndidə bayrağımızı ucaldanda bir daha 2003-cü il oktyabr ayının 31-də Prezident kimi Azərbaycan xalqı qarşısında içdiyi andı xatırladı. Həmin zaman hər bir azərbaycanlının Prezidenti olacağına və nəyin bahasına olur-olsun işğal altında olan torpaqlarımızın azad ediləcəyinə söz verən İlham Əliyev xalqının ən böyük arzusunu gerçəkləşdirdi.

Dövlət başçısının təbirincə desək, 30 illik işğal dövründə bəziləri, xüsusilə xaricdəki dairələr Azərbaycanın mövcud durumla artıq barışdığını, xalqın illər keçdikcə öz torpaqlarını unudacağını, gənc nəslin isə ümumiyyətlə, tam başqa tərzdə tərbiyə alacağını zənn edirdilər. Yəni qloballaşan dünya haqqında bir çox fərziyyə irəli sürülürdü. Ancaq o təhlilçilər və eyni zamanda siyasi müstəvidə olanlar anlaya bilmirdilər ki, Azərbaycan xalqının doğma diyarına sevgisi ölməzdir, tükənməzdir. Bu xalq 30 ildə məşəqqətlər yaşasa da, ağrı-acılar çəksə də, bir gün belə doğma yurdu ilə bağlı unutqanlıq hissi keçirmədi. 20 il öncə etimad mandatı verərək özünə Prezident seçdiyi İlham Əliyevə inandı, güvəndi və səbirlə gözlədi. Sözü imzası qədər keçərli olan Azərbaycan Prezidenti tam müstəqil siyasəti ilə 20 ildə Ermənistanı dünyada işğalçı dövlət kimi tanıda bildi. Bununla bağlı beynəlxalq təşkilatlarda qətnamələrin, bəyanatların qəbul olunmasına nail oldu. Amma işğalçının havadarları imkan vermədilər ki, münaqişə sülh yolu ilə tənzimlənsin və Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını geri qaytarsın.

Əlbəttə ki, İlham Əliyev bütün bunları görürdü və yaxşı bilirdi ki, işğalçı ölkə keçmiş status-kvonu qorumaq üçün havadarlarından aldığı tapşırıqların icrasını təmin edir. Keçmiş münaqişənin həlli istiqaməti üzrə yaradılan ATƏT-in tarixin arxivinə göndərilən Minsk qrupunun da xristian təəssübkeşliyi ikili standartların tətbiqini şərtləndirirdi.

Məhz uzaqgörən Lider kimi İlham Əliyev ordumuzun gücünü gündən-günə artırdı. Ən müasir silahlar alındı, gənc nəslin vətənpərvərlik ruhunun yüksəlməsi istiqamətində çox mühüm işlər görüldü. Zaman yetişdi, Azərbaycanın səbir kasası daşdı və 2020-ci ildə Vətən müharibəsində İlham Əliyevin "dəmir yumruq" əməliyyatı ilə cəmi 44 günə Ermənistan diz çökdürüldü.

Müzəffər Ali Baş Komandanın qüdrətli Ordusu Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Xalqın yurd həsrətinə son qoyuldu. Dünya Azərbaycanın gücünə, qüdrətinə şahidlik etdi.

Məğlub Ermənistan sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirərək vaxt istədi. Amma yenə də erməni məkri özünü büruzə verdi. Havadarlarına arxalanan Ermənistan həm sülh müqaviləsi imzalamaqdan boyun qaçırır, həm də Qarabağdakı separatçıları silahlandırır, keçmiş qondarma "Dağlıq Qarabağ Respublikası"na dəstək olurdu. Azərbaycan Prezidentinin dəfələrlə separatçılara xəbərdarlıq etməsinə baxmayaraq, separatçı dəstələr tez-tez hərbi təxribatlar törədirdilər.

Nəhayət, bu il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri antiterror tədbirləri keçirərək separatçıları 23 saat ərzində məhv etdi. Bunun ardınca qondarma qurum ləğv edildi və oktyabrın 15-də tariximizdə daha bir şanlı səhifə açıldı.

Xalqın İlham Əliyevi 20 il öncə Prezident seçdiyi gün - oktyabrın 15-də Müzəffər Ali Baş Komandan bayrağımızı Xankəndidə, Xocalıda, Xocavənd şəhərində dalğalandırdı. Bununlıa da Azərbaycanın suverenliyi tam təmin edildi.

Xanın kəndində bayrağımızı ucaldan İlham Əliyev xalqa müraciətində dedi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bu gün bütün Azərbaycan ərazilərində üçrəngli bayrağımız qürurla dalğalanmaqdadır. Suverenliyini tam təmin etmiş Azərbaycan İlham Əliyevlə daha möhtəşəm zəfərlərə doğru inamla addımlayır.

*Rəşad BAXŞƏLİYEV,
"Azərbaycan"*

# Möcüzə hesab etdiyimiz hadisə reallaşıb, Xankəndi şəhərində Dövlət bayrağı ucaldılıb

## **Eldar ƏZİZOV:** "Tarixi uğurların kökündə şəxsiyyət faktoru, İlham Əliyev fenomeni dayanır"

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsinə dair tapşırığına uyğun olaraq, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Suraxanı rayonunun Əmircan qəsəbəsinin sakinləri ilə görüşü keçirilib.**

Qəsəbə sakinlərinin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə təşkil olunan və 400-ə qədər Əmircan sakininin iştirak etdiyi görüşdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı ilə yanaşı, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Bakı şəhərinin və Suraxanı rayonunun təsərrüfat və digər xidmət sahələrinin rəhbərləri 3 saatdan çox, ayaq üstə zala toplaşanların müraciət və təkliflərini dinləyiblər.

Görüşdə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, biz böyük hadisələrin şahidi olaraq sevincli günlər yaşayırıq. İki yüz ildən artıq davam edən erməni-müsəlman qarşıdurmasına nəhayət ki, son qoyulub, Şanlı Qələbə qazanaraq torpaqlarımızı azad etmişik. Bir qədər əvvəl möcüzə hesab etdiyimiz hadisə artıq reallaşıb, Xankəndi şəhərində də ölkəmizin Dövlət bayrağı ucaldılıb. Bütün bunlar ölkə başçısı cənab İlham Əliyevin dahi intellekti və müdrik siyasətinin nəticəsidir ki, onların da kökündə şəxsiyyət faktoru, İlham Əliyev fenomeni dayanır.





Görüş zamanı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilən torpaqların bərpası və inkişafı istiqamətində gördükləri böyük işlər xüsusi vurğulanıb.

Sonra Suraxanı Rayon İcra Hakimiyyəti başçısının Əmircan qəsəbəsi üzrə nümayəndəsi Əlixan Əliyev qəsəbədə görülmüş işlərlə bağlı hesabat verib.

"Açıq mikrofon" formatında, maraqlı dialoq şəklində və sakinlərin böyük fəallığı ilə keçən görüşdə 30-dan çox qəsəbə sakininin çıxış və müraciəti dinlənilib. Onlar son vaxtlar Bakı şəhərində və eyni zamanda Əmircan qəsəbəsində görülən işlərə, əhaliyə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, dövlət başçısının həyata keçirdiyi siyasi kursa birmənalı dəstək ifadə ediblər.

Qarabağ müharibəsi qazisi İsrafil Hüseynov çıxışında Vətən müharibəsində qazanılan qələbənin memarı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Azərbaycanın Milli Qəhrəmanı adı verilməsini təklif edib. Təklif görüş iştirakçılarınını sürəkli alqışları ilə qarşılanıb.

Müraciətlər əsasən fərdi yaşayış evlərinin sənədləşdirilməsi, Murtuza Muxtarov məscidinin əsaslı təmir edilməsi, qəsəbədə su və kanalizasiya xətlərinin yenilənməsi, məhəlledaxili yolların təmiri və işıqlandırılması, məşğulluq, yeni avtobus xəttinin açılması, qəzalı binaların və dam örtüyünün təmiri və sairə olub.

Görüş zamanı bəzi müraciətlər yerində həll edilib, sakinlərin digər müraciət və təklifləri ilə bağlı müvafiq tapşırıqlar verilib, bütün müraciət və təkliflər nəzarətə götürülüb.

*Yasəmən MUSAYEVA,
"Azərbaycan"*

# Ağalı növbəti sakinlərini qarşıladı

**Böyük Zəfərimizdən cəmi üç il keçməsinə baxmayaraq, düşmən tapdağından azad edilən torpaqlarımızda sürətlə bərpa-quruculuq işləri aparılır, kəndlər və şəhərlər yenidən tikilir.**

Eyni zamanda Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış sürətlə davam edir. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın və Füzuliyə məcburi köçkünlərin qayıdışı təmin olunub və bu istiqamətdə işlər mərhələli şəkildə davam etdirilir.

### Daha 95 nəfər doğma yurda döndü

Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq, Zəngilan rayonunun yenidən qurulan Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən Abşeron rayonunun Masazır kəndindən Ağalıya növbəti köç karvanı yola salınıb. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 17 ailə - 95 nəfər bundan sonra doğma yurdlarında yaşayacaqlar. Onlar ermənilərin işğal dövründə tamamilə dağıtdıqları 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləridir. Kəndə köçürülmə davam etdiriləcək.

Evlərin bölgüsü, məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsi şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma yolu ilə aparılıb. Püşkatma oktyabrın 20-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentində keçirilib.

Yolasalma mərasimində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Zəngilan Rayon İcra Hakimiyyətinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

İndiyədək 150 ailə (744 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 295 ailə (1135 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 21 ailə (94 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bu günədək 2 min 991 keçmiş məcburi köçkünün həsrət və nisgilinə son qoyulub.

### "Yurd həsrətimə son qoyuldu"

Ağalı sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Ağalı sakini Mərcanə Həsənova deyir ki, Zəngilandan məcburi köçkün düşəndə 6 yaşında olub. Bu gün isə 37 yaşında doğma yurduna qayıdır: "Bu günləri bizə yaşatdığı üçün Allaha şükürlər olsun. Bundan sonrakı ömrümüzü Ağalıda firavanlıqla yaşayacağımıza inanırıq".

Doğulub boya-başa çatdığı yerlərə getdiyi üçün çox sevincli olduğunu bildirən M.Həsənova artıq ağrı-acılarının bitdiyini, bu gündən yeni həyata qədəm qoyduqlarını vurğulayıb.

"Bu gün ən gözəl və sevincli günlərimizdən biridir. Çünki uşaqlıq illərimizin keçdiyi Zəngilana qayıdırıq. Kəndimizi görmək üçün çox həyəcanlanıram. Zəngilandan ayrılanda 10 yaşım vardı, indi isə 41 yaşındayam. Otuzillik yurd həsrətimə son qoyuldu, arzularım reallaşdı", - deyə Ağalı kəndinin sakini Vüqar Səlimov söyləyib.

Dünən doğma yurduna qovuşan Zeynəb Alıyeva isə deyir ki, Zəngilandan zorla ayrıldığı 1993-cü ili indiki kimi xatırlayır: "Çox çətin günlər idi. Bu gün yurdumuza qayıdırıq. Allah şəhidlərimizə rəhmət etsin, onların sayəsində torpaqlarımız işğaldan azad olundu və biz arzularımıza yetişdik".







Zəngilandan oktyabr ayında ayrıldığını bildirən Z.Alıyeva söyləyir ki, otuz ildən sonra eyni ayda - oktyabrda məcburi köçkün düşdüyümüz doğma yerlərə geri dönürük.

Tezliklə Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa nəzarəti ilə bütün keçmiş məcburi köçkünlər əzəli torpaqlarına qovuşacaqlar. Böyük qayıdış sürətlə davam edir. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçürlər, bu yerlərdə həyat yenidən öz axarına qayıdır. Otuz il öncə ah-nalə ilə yurdlarından didərgin salınan soydaşlarımız fərəh, qürur və təzə ümidlərlə ömürlərinin yeni səhifəsinə başlayırlar. Bununla da 30 illik nisgil birdəfəlik bitəcək.

*Ülkər XASPOLADOVA,
"Azərbaycan"*



MÖHTƏŞƏM 20 İL 2003 2023

# Prezident İlham Əliyevin qayğısı ilə Sumqayıt

**Bu günlər Sumqayıtda bayram əhvali-ruhiyyəsi hökm sürür. Prezident İlham Əliyevin Sumqayıta etdiyi səfər həmişə şəhərin tarixində və ictimai həyatında əlamətdar hadisəyə çevrilib. Son səfər zamanı isə dövlət başçısının açılışında və təməlinin qoyulmasında iştirak etdiyi bütün layihələr həm də Sumqayıtın öz liderinə verdiyi növbəti uğur hesabatı idi.**

Elə bu əlamətdar günlərdə Sumqayıta səfər edərək şəhərin inkişaf prosesləri, aparılan abadlıq və quruculuq işləri ilə tanış olduq.





## Müasir Sumqayıt İlham Əliyevin inkişaf strategiyasının nəticəsidir

Prezident İlham Əliyevin rəhbərliyi ilə 20 ildə əldə edilən ən böyük nailiyyətlərdən biri isə Azərbaycanın bütün regionlarının, şəhərlərinin, kənd və qəsəbələrinin inkişaf yoluna çıxarılması, ölkənin hər yerində abadlıq və quruculuq işlərinin vüsət almasıdır. Dövlət başçısının sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissələrindən biri kimi 20 ildə bütün şəhər və rayonların iqtisadi potensialı hərəkətə gətirilib, əhalinin məşğulluğunun artırılması, sosial rifahının yüksəldilməsi istiqamətində böyük keyfiyyət dəyişiklikləri baş verib. Təsadüfi deyil ki, bu gün Azərbaycanın hansı şəhərinə, hansı rayonuna üz tutsaq, 20 ildə baş vermiş böyük dəyişikliklərin, abadlıq və quruculuğun, sosial-iqtisadi yüksəlişin şahidi olarıq.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov da bildirir ki, ötən 20 il Azərbaycanın müasir tarixinə intibah və yüksəliş dövrü kimi həkk olunub: "Bu illər ərzində Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə sürətli inkişaf yolu keçən Azərbaycanın güclü, qüdrətli, regionda və dünyada söz sahibi olan dövlətə çevrilməsi, dövlətçiliyimizin təməllərinin daha da möhkəmləndirilməsi tariximizin ən böyük reallıqlarıdır. İşğal altında olan torpaqlarımızın azad edilməsi, Qarabağda 200 illik erməni separatizminə son qoyulması isə ötən 20 ilin ən böyük siyasi-hərbi hadisələridir. Bütün bunlar həm də ondan xəbər verir ki, respublikamız əbədiyaşar şəxsiyyət, bu il anadan olmasının 100 illiyini böyük ehtiramla yad etdiyimiz Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu ilə inamla addımlayır, Ulu Öndərin ideyaları layiqincə həyata vəsiqə alır".

Bütün bunlar Sumqayıtın timsalında, bu şəhərin inkişaf və quruculuq nümunələrində daha aydın görünməkdədir. 20 ildə Sumqayıtın yüksəlişi həqiqətən möhtəşəm və qürurvericidir. "Bu dövrdə şəhərin iqtisadi və sosial həyatında baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri göstərir ki, vaxtilə Ulu Öndər Heydər Əliyevin inkişaf yoluna çıxardığı Sumqayıt bu gün Prezident İlham Əliyevin diqqət və qayğısı ilə keçmiş şöhrətini bərpa edib və tarixinin ən dinamik yüksəliş mərhələsinə qədəm qoyub. Sumqayıt da tarixinin ən qüdrətli dövrünü yaşayır", - deyə Zakir Fərəcov bildirir.

Bu günlərdə Prezident İlham Əliyevin Sumqayıta səfəri bir daha belə bir reallığın təsdiqi oldu ki, şəhərin inkişafı davamlı və sürətlidir. Bu səfərlər zamanı Prezidentin açılışında, təməlinin qoyulmasında iştirak etdiyi və tanış olduğu müəssisələr, infrastruktur layihələri tək Sumqayıtın deyil, bütövlükdə ölkəmizin yüksəlişindən xəbər verir.

## Ulu Öndər Heydər Əliyevin qayğı ilə yanaşdığı şəhər

Sumqayıtın inkişafından danışarkən Ulu Öndər Heydər Əliyevin bu şəhərə vaxtilə göstərmiş olduğu xüsusi diqqət və qayğını qeyd etməyə bilmərik. Sumqayıt vaxtilə Ulu Öndər Heydər Əliyevin sayəsində tərəqqi yoluna qədəm qoymuşdu. Hələ sovet illərində Heydər Əliyevin keçmiş ittifaqın qabaqcılları sırasına çıxardığı Azərbaycanın əldə etdiyi inkişaf göstəricilərində Sumqayıtın böyük payı var idi. Diqqət yetirdikdə görürük ki, 1949-cu ildə şəhər statusu almış Sumqayıtın sovet dövründə sürətli inkişafı Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərinə təsadüf edir.

1969-cu ildə Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyə başlayanda Sumqayıtda əsasən metallurgiya və kimya müəssisələri fəaliyyət göstərirdi. Lakin Heydər Əliyev bilirdi ki, Sumqayıtın potensialı daha böyükdür. Təsadüfi deyil ki, o illərdə Heydər Əliyevin təşəbbüsləri və xüsusi nəzarəti nəticəsində şəhərin ənənəvi sənaye sahələri ilə yanaşı, yüngül sənaye, habelə sənayenin digər sahələri inkişaf etdirildi. Buna misal olaraq əhalinin məişət kimyası mallarına olan tələbatını maksimum ödəmək məqsədilə 1970-ci illərin əvvəllərində yaradılan Sumqayıt Məişət Kimyası Zavodunu göstərmək olar. Heydər Əliyevin sayəsində belə bir zavod Zaqafqaziyada ilk olaraq Sumqayıtda yaradıldı. Yaxud "Superfosfat" zavodunda yüksək texnologiya əsasında dənəvər superfosfat gübrəsi istehsalatının işə salınmasını göstərmək olar. 1970-73-cü illərdə "Üzvi sintez" zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexlərinin fəaliyyətə başlaması, 1974-cü ildə Sintetik Kauçuk Zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücünün xeyli artırılması, Kompressorlar zavodunun, Üst trikotaj və Xovlu İplik fabriklərinin, Süd və Yeyinti məhsulları kombinatlarının yaradılması məhz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Sumqayıtda sənaye sahələrinin inkişafı ilə bağlı əldə olunmuş nailiyyətlərdir.

Sumqayıtın neft-kimya kompleksi üçün Almaniya və Çexoslovakiya istehsalı olan və ən yeni texnologiyalar əsasında yaradılmış EP-300 qurğusunun - layihə gücü etilenə görə 300 min, propilenə görə isə 138 min ton olan nadir kompleksin alınması da Heydər Əliyevin sayəsində mümkün olmuşdu. Bunun üçün o dövrdə Ulu Öndər SSRİ Nazirlər Soveti sədrinin birinci müavini N.Tixonovu respublikamıza dəvət etmişdi. Bundan sonra ittifaq rəhbərliyi Heydər Əliyevin təklifini nəzərə alaraq, EP-300 texnoloji kompleksinin alınmasına qərar vermişdi. Bu, Heydər Əliyev dühasının, onun müdrik iqtisadi siyasətinin böyük uğuru idi.

Bütün bunların nəticəsi kimi 1970-80-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda tanınan bir şəhər oldu. Şəhərin müəssisələrində istehsal olunan məhsullar ittifaqın 700-dən çox şəhərinə və xarici dövlətlərə ixrac olunurdu.

Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyev düz 16 dəfə Sumqayıta səfər edib ki, bu da onun şəhərə olan xüsusi diqqət və qayğısının göstəricisidir. 1974-cü ildə Sumqayıtın 25 illik yubiley tədbirində çıxış edən Heydər Əliyev kimyaçıların heç də asan olmayan, gərgin, fədakar əməyini, əldə olunmuş nailiyyətlərini yüksək qiymətləndirməklə yanaşı, kimya sənayesinin prioritet inkişaf istiqamətləri barədə fikirlərini söyləyərək, qarşıda duran vəzifələrlə bağlı kimyaçılara gələcək üçün fəaliyyət proqramı ola biləcək dəyərli tövsiyələrini də vermişdi.

O dövrdə sənayenin inkişafı ilə yanaşı, Sumqayıt bir şəhər kimi də böyümüş, mikrorayonların sayı artmışdı. Hər il şəhərdə orta hesabla 80 min kv.m. mənzil sahəsi tikilib istifadəyə verilirdi. Sumqayıtın bir çox məşhur ünvanının təməli məhz o illərdə qoyulmuş və inşa edilmişdir.

Bu baxımdan Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsi Sumqayıtın da yüksəlişinin qızıl dövrüdür. Təəssüf ki, sonrakı illərdə Azərbaycana rəhbərlik edənlərin, habelə müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin səbatsızlığı nəticəsində Sumqayıtda yaradılmış böyük iqtisadi potensial da sıradan çıxarıldı və bu, Ulu Öndəri ciddi narahat edirdi.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də əvvəlki kimi Sumqayıta daim diqqət və qayğını əsirgəmirdi. Bu qayğının nəticəsində Sumqayıt yenidən özünün dirçəliş dövrünə qədəm qoydu. 1993-cü il dekabrın 18-də Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi ilk dəfə Sumqayıta gəldi, şəhərdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etdi, Tarix muzeyində oldu, "Şəhidlər xiyabanı" kompleksini ziyarət etdi, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini verdi. Ulu Öndərin uzaqgörən siyasəti, verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan verdi. Müstəqillik illərində Heydər Əliyev 6 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Bütün bunlar Ulu Öndərin Sumqayıta və sumqayıtlılara diqqətinin təzahürü idi.

Məhz Ümummilli Liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq, ötən əsrin 90-cı illərində Sumqayıtın yeni ictimai-iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətləndi. Şəhərin sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tez bir zamanda müsbət nəticələrini göstərməyə başladı.

## Ulu Öndərin arzuları layiqincə gerçəkləşdirilir

Ümummilli Liderin Sumqayıtla bağlı qarşıya qoyduğu vəzifə belə idi ki, şəhərin ənənəvi sənaye kompleksi bərpa edilsin, yeni müəssisələr fəaliyyətə başlasın. Ən vacibi isə Sumqayıtda insanların rahat yaşamaları üçün müvafiq şərait yaradılsın və yeni iş yerləri açılsın, bununla da Sumqayıt yenidən seçilən bir şəhərə çevrilsin.

Şəhərin tarixi ənənələr əsasında inkişaf edərək respublikamızın ən gözəl ünvanlarından birinə çevrilməsi və Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması isə Prezident İlham Əliyevin Sumqayıtla bağlı qarşıya qoyduğu əsas hədəflərdəndir.

Ötən 20 ildə Sumqayıtın iqtisadi və sosial həyatında baş verənlər göstərir ki, Ulu Öndərin şəhərlə bağlı bütün arzuları həyata vəsiqə alır. Eyni zamanda Sumqayıt Prezident İlham Əliyevin müəyyən etdiyi hədəflərə doğru inamla irəliləyir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin inkişaf siyasətinin nəticəsi olaraq Sumqayıt tarixi ənənələrini sürətlə özünə qaytarıb və bu proses indinin özündə də davam edir.

Ötən 20 ildə ölkənin makroiqtisadi göstəricilərində bu şəhərin xüsusi çəkisi yüksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr əldə olunub. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası çərçivəsində qarşıya qoyulan vəzifələrin reallaşdırılması Sumqayıtı da dinamik inkişaf yoluna çıxarıb.

Bütövükdə 20 ildə şəhərdə qazanılan hər bir sosial-iqtisadi uğur cənab Prezidentin adı ilə bağlıdır. Bu illər ərzində Sumqayıt daim Prezident İlham Əliyevin qayğısını hiss etmişdir. Bunu dövlət başçısının Sumqayıta 33 dəfə səfər etməsi də təsdiqləyir. Bu səfərlərin hər biri ali qayğının təcəssümü olmaqla Sumqayıtın inkişafına təkan verib, şəhərin tarixində əlamətdar hadisəyə çevrilib. Bir vaxtlar Ulu Öndər Heydər Əliyevin sayəsində inkişaf mərhələsinə qədəm qoyan şəhər indi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə yenidən çiçəklənir. Başqa cür desək, bir vaxtlar Sumqayıtı dünyada şöhrətləndirən unudulmaz Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev bu şəhərin yeni intibahının memarıdır və buradakı inkişaf nümunələri müasir Azərbaycan dövlətinin yüksəlişini özündə simvolizə edir.

## Sumqayıt tarixi ənənələrini bərpa edir

Sovet İttifaqı dağıldıqdan sonra iqtisadi əlaqələrin qırılması, xammal və satış bazarının olmaması, eləcə də zavod və fabriklərdəki avadanlıqların fiziki və mənəvi surətdə köhnəlməsi səbəbindən demək olar ki, əksər zavod və fabriklər fəaliyyətini dayandırmış və ya az güclə işləməyə başlamışdı. Bu proses əhalinin sosial durumunun aşağı düşməsinə gətirib çıxarmışdı. Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə digər sahələrdə olduğu kimi, Sumqayıt sənayesi də özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Ümummilli Liderin şəhərlə bağlı qarşıya qoyduğu vəzifə belə idi ki, Sumqayıt yenidən ənənəvi sənaye kompleksi kimi bərpa edilsin.

Respublikamızda gedən inkişaf proseslərinin nəticəsi kimi, artıq Sumqayıt Heydər Əliyevin arzuladığı şəhər səviyyəsinə yüksəlmişdir. Möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin tərkib hissəsi kimi Sumqayıtda yeni sənaye kompleksinin formalaşdırılması ayrıca diqqət mərkəzində saxlanılmış və bu məqsədə nail olunmuşdur. 2003-cü ilin sonlarından başlayaraq, Prezident İlham Əliyevin tapşırıq və nəzarəti altında, diqqət və qayğısı nəticəsində Sumqayıt intensiv sosial-iqtisadi inkişaf prosesləri dövrünü yaşamış, şəhərin sənaye potensialı dəfələrlə artmışdır.

Beləliklə, tarixi şöhrətini bərpa edən Sumqayıt artıq yenidən regionun sənaye mərkəzinə çevrilmişdir. Hazırda şəhərdə onlarca kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri fəaliyyət göstərir. Onların hər biri Azərbaycan iqtisadiyyatında böyük rol oynayan aparıcı istehsal müəssisələridir. "Azgüntex" zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisəsi, Texnoil MMC mühərrik yağları istehsalı müəssisələri, Kimya Sənaye Parkındakı İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqrokimyəvi məhsullar, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodlar, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf proseslərinə layiqli töhfələr verir. O cümlədən "SOCAR Karbamid" və "SOCAR Polymer" kimi zavodların yaradılması nəinki Sumqayıtın, respublikamızın iqtisadi həyatında mühüm hadisəyə çevrilmişdir. "SOCAR Polymer" layihəsi son 45 ildə öz miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. Bu zavodların hər biri respublikamızın ixrac imkanlarının yüksəlməsinə, gəlirlərinin artmasına layiqli töhfələr verir. Bu müəssisələrin yaradılması həm də son illərdə Sumqayıtda əhalinin məşğulluğunu əhəmiyyətli dərəcədə təmin etmişdir.

Hazırda ərazisi 583,5 hektar təşkil edən Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiyalarının həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 23-ü fəaliyyət göstərir.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub.

Burada 6600-dən çox vətəndaş daimi işlə təmin olunub. Bundan əlavə, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2000-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunur.

Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin dediyi kimi, Sumqayıt hazırda müasir sənaye mərkəzidir: "Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir.















# MÖHTƏŞƏM 20 İL 2003 2023

# inkişafının ən yüksək dövrünü yaşayır

Eyni zamanda son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə insanların sağlamlığını nəzərə almışıq".

Sumqayıt üzrə 2023-cü ilin 9 ayının makroiqtisadi göstəriciləri də həm şəhərin sənaye mərkəzi kimi inkişafından, həm də bütövlükdə Sumqayıtda sosial-iqtisadi inkişafla bağlı qarşıya qoyulan vəzifələrin tam yerinə yetirilməsindən xəbər verir. Belə ki, bu dövrdə ümumi məhsul buraxılışı 4 milyard 80 milyon manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,3 faiz çoxdur. Bu dövrdə sənaye məhsulu 3 milyard 434,7 milyon manat təşkil edib və bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 11, 4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın həcmi 200 milyon manat təşkil edib.

Bu ilin 9 ayında şəhərdə orta aylıq əməkhaqqı 850 manat olub. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,1 faiz artım deməkdir. Müəssisə, idarə və təşkilatlarda 1121 yeni iş yeri açılıb. Şəhərdə ticarət dövriyyəsi 400 milyon manat təşkil edib ki, bu da ötən ilin 9 ayı ilə müqayisədə 22,6 faiz çoxdur.

Nail olduğu inkişafın nəticəsində artıq neçə illərdir ki, Sumqayıt özü özünü maliyyələşdirir, dövlət büdcəsindən dotasiya almır.

Onu da qeyd edək ki, 2003-cü ildə 327 min nəfərin yaşadığı Sumqayıtın indi 426 min nəfər əhalisi var. Bu artımın özü şəhərin iqtisadi və sosial inkişafının göstəricisidir.

## Yaraşıqlı və abad şəhər

Sumqayıt müəyyən dövrlərdə əsl tikinti meydanını xatırladıb. Elə son illərdə Prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə şəhərdə həyata keçirilən kompleks abadlıq və quruculuq işləri, yeni və möhtəşəm infrastruktur layihələrinin həyata keçirilməsi, şəhər təsərrüfatının yenidən qurulması burada tamamilə yeni ab-hava yaranıb. Əsaslı tikinti və quruculuq meydanına çevrilən Sumqayıt sanki yenidən qurulub. Xüsusən 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən həyata keçirilən layihələrin nəticəsində Sumqayıtın görkəmi tamamilə dəyişib, şəhərdə yeni infrastruktur yaranıb. Hansı ki bu infrastruktur uzun illər sumqayıtlılara ən yüksək standartlar əsasında xidmət edəcək. Möhtəşəm tikinti və quruculuq işlərinin nəticəsi kimi Sumqayıt respublikamızın yaraşıqlı və abad şəhərinə çevrilmişdir. Eyni zamanda şəhərin yeni ünvanları yaranmışdır.

Əzəmətli Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Muğam Mərkəzi, Sumqayıt Məhkəmə Kompleksi, Mərkəzi Bankın Ehtiyat Sistemi binası, şəhər prokurorluğunun binası, 500 metr uzunluğunda tərsanə, şəhərin əsas giriş yolundakı Bayraq Meydanı Sumqayıtın yeni və möhtəşəm ünvanlarıdır.

Bununla yanaşı, şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də həyata keçirilib, o cümlədən Olimpiya və Paralimpiya İdman kompleksləri, Əlillərin Bərpa Mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa olunub. Sumqayıtda "Kimyaçılar" Mədəniyyət Sarayının, Dram Teatrının, Tarix muzeyinin, 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, 3 nömrəli Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin, "Nizami" kinoteatrının binaları da əsaslı təmir olunub. Şəhərdə 2 "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb.





Son illərdə şəhərin bütün tibb müəssisələri də əsaslı təmir olunub. 1 saylı Şəhər Mərkəzi Xəstəxanası, 1 saylı doğum evi, 1 və 2 saylı qadın məsləhətxanaları, 1 və 4 saylı şəhər poliklinikaları, Uşaq Xəstəxanasının infeksion şöbəsi, Vərəm Xəstəxanası, 2 saylı uşaq poliklinikası, 3 saylı şəhər xəstəxanasının poliklinika şöbəsi əsaslı təmir olunub. 1 saylı uşaq poliklinikası, 2 saylı şəhər poliklinikası, Onkoloji Xəstəxana, 4 nömrəli şəhər xəstəxanasında cari təmir işləri aparılıb. 1 və 2 saylı doğum evlərinin reanimasiya şöbələri müasir tibbi avadanlıqlarla təchiz olunub. 1 saylı doğum evi 2018-ci ildən III səviyyəli Perinatal Mərkəz kimi fəaliyyət göstərir.

Sumqayıtın başqa bir möhtəşəm ünvanı isə dənizkənarı bulvardır. Şəhər dəniz sahilində yerləşsə də, burada heç vaxt bulvar olmayıb. Hələ 1974-cü ildə Sumqayıta şəhər statusunun verilməsinin 25 illiyi ilə bağlı Dram Teatrının inzibati binasında keçirilən mərasimdə çıxış edən Ulu Öndər Heydər Əliyev bu məsələyə toxunmuş, şəhərdə bulvarın salınması ilə bağlı arzusunu ifadə etmişdi.

Son illərdə Sumqayıtda həyata keçirilən quruculuq tədbirləri sırasında Ulu Öndərin bu arzusu da reallaşıb. Belə ki, şəhərdə son illərdə reallaşan ən möhtəşəm layihələrdən biri də Xəzərin sahilində salınan və ilk olaraq uzunluğu 4,2 kilometr olan, əhalinin istirahəti üçün bütün şərait yaradılan, müasir tələblərə cavab verən Dənizkənarı Bulvardır. Daha sonra Sumqayıt bulvarı şəhərin şimal-qərb istiqamətində 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə 40 hektar sahədə genişləndirilib. Beləliklə, bu istirahət məkanının sahəsi 106 hektara, uzunluğu isə 5,2 kilometrə çatdırılıb. Ərazidə geniş miqyasda yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma sistemi qurulub. Park boyu 1 kilometr uzunluğunda yeni yol inşa olunub. Kompleksin yeni salınan hissəsində bütün yaş qruplarının istirahəti üçün yüksək şərait yaradılıb.

Bir neçə il əvvəl Madriddə keçirilən "Global Trade Leaders Club"un XXIV Beynəlxalq Üstünlük və Liderlik Forumunda Sumqayıt bulvarı "International Award for Excellence & Leadership" mükafatına layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt bulvarının dünyanın diqqət mərkəzinə düşməsi olduqca qürurverici haldır.

Şəhərdəki Heydər parkı, Lüdviqshafen parkı, Sülh prospekti, Sahil küçəsi, ümumiyyətlə, bütün küçə və prospektlər əsaslı təmir olunaraq yenidən qurulub.

Son dövr ərzində Sumqayıtda 3 məktəb üçün yeni bina tikilib. 2021-ci ilin sentyabrında istifadəyə verilən 1 saylı tam orta məktəbin yeni tikilmiş tədris binası 1800 şagird yerlikdir. Həmçinin şəhərin İnşaatçılar qəsəbəsində yerləşən 9 saylı tam orta məktəb üçün də yeni tədris binası tikilib. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, məktəbin binası tam sökülərək yerində müasir tələblərə cavab verən 1176 şagird yerlik yeni bina inşa edilib. Sumqayıtdakı 20 saylı tam orta məktəb üçün bina isə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub. Şəhərin 4-cü mikrorayon ərazisində inşa olunan 3 mərtəbəli məktəb binası 1100 şagird yerlikdir.

Sumqayıtda şəhər təsərrüfatının yenilənməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Şəhərdə çoxmənzilli yaşayış binalarının sakinlərini ən çox narahat edən problemlərdən biri də liftlərin yenilənməsi ilə bağlı idi. Ölkə rəhbərliyinin bu sahəyə olan diqqəti sayəsində qısa müddət ərzində şəhərin lift təsərrüfatı da tamamilə yenilənib. Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə əhalinin liftdən təhlükəsiz istifadə etməsini təmin etmək üçün istismar müddətini ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz edilib.

426 min nəfərin yaşadığı Sumqayıtın əsas inkişaf göstəricilərindən biri də şəhərdə müasir nəqliyyat infrastrukturunun yaradılması, bu sahədə idarəetmənin təkmilləşdirilməsi, sərnişin daşınması sahəsində rahatlığın təmin olunmasıdır. Son illərdə şəhərin ictimai nəqliyyatı yenidən qurulub və marşrut xətlərinə Türkiyə istehsalı olan yeni avtobuslar buraxılıb.

Şəhərdə həyata keçirilən tikinti-quruculuq işlərinin bir hissəsini də ictimai yaşayış binalarının təmiri və yenidən qurulması təşkil edir. Belə ki, bir neçə il əvvəl yaşayış binalarının fasadının əsaslı təmirinə və şəhərlə yaşıd olan binaların müasir qaydada üzlənməsi işlərinə başlanılıb. Təmir olunan binaların memarlıq görünüşü saxlanılıb, aşınmaya məruz qalmış və piyadalar üçün təhlükə yaradan elementlər yenilənib. Fasadlama işləri zamanı binaların tarixi memarlıq elementləri, dizayn və naxışları olduğu kimi qorunub. O cümlədən 1200-dən artıq yaşayış binasına yeni dam örtüyü vurulub. Binalara dam örtüklərinin vurulması ilə şəhər sakinlərini narahat edən daha bir əsas problem öz həllini tapıb.

Bir neçə il əvvəl Sumqayıt şəhərinin əsas problemlərindən biri də həllini tapıb. Söhbət "Acı dərə" kanalından gedir. Bu kanal şəhər əhalisi üçün çox böyük təhlükə mənbəyi idi. Ötən dövr ərzində aparılan quruculuq işləri çərçivəsində bu kanal boruya salınıb.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bildirir ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində həyata keçirilən bu abadlıq, quruculuq və tikinti işləri sumqayıtlılara xoş ovqat və sakit həyat tərzi bəxş edib. Eyni zamanda həyata keçirilən genişmiqyaslı uğurlu layihələr şəhərimizin simasını tamamilə dəyişib.

## Prezidentin 33-cü səfəri

Prezident İlham Əliyev bu il oktyabrın 23-də Sumqayıta ötən 20 ildə sayca 33-cü səfərini etdi. Dövlət başçısının bu səfəri həm şəhərin sənaye potensialının inkişaf etdirilməsi, həm də abadlığı və quruculuğu baxımından mühüm hadisələrlə əlamətdar oldu. Belə ki, Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin və "Kartaş Kimya" MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməlqoyma, "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin, "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin və "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışlarında iştirak etdi. Bu üç müəssisənin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatdı.

Həmin gün Prezident İlham Əliyev Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Qeyd edək ki, ötən əsrin 60-cı illərində istifadəyə verilmiş və iki-üç min azarkeş üçün hesablanan bu stadion müasir tələblərə cavab vermirdi və azarkeşlərin çoxu yarışları yer darısqallığından canlı izləyə bilmirdi. Dörd tərəfi açıq olan stadion əhəmiyyətli futbol yarışlarını keçirən məkana da qətiyyən bənzəmirdi. Bir sözlə, yeni stadionun tikintisinə ehtiyac vardı. Bunu nəzərə alaraq Prezidentin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə vəsait ayrılıb.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun sözlərinə görə, Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli sərəncamına əsasən, 2020-ci ildə başlanılıb. Tikinti işləri mərhələli şəkildə icra edilməklə 2022-ci ildə başa çatdırılıb.

Yenidənqurmadan sonra stadionda tamaşaçı tutumu 9502 nəfərə çatdırılıb. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb. Bu kompleksdə cüdo, boks və karate zalları da fəaliyyət göstərəcək.

Şəhərin yeni ünvanlarından biri də 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasıdır. Oktyabrın 23-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan 150 çarpayılıq xəstəxana 6,1 hektar sahədə inşa edilib. Bu səhiyyə ocağının tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb. Xəstəxana poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən, həmçinin laboratoriyadan, digər tikili və qurğulardan ibarətdir. Müalicə ocağı müasir tələblərə cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar - çoxkəsikli kompüter tomoqrafiyası, rəqəmsal teleskopik rentgen cihazı, rəqəmsal rentgen qurğusu, oftalmoloji müayinə üçün mikroskop, oftalmoloji cərrahi əməliyyatlar üçün müasir cihazlar, habelə iki ədəd rəqəmsal stasionar ultrasəs müayinə cihazı ilə təchiz olunub.

## Sumqayıtlılar Vətən müharibəsində qəhrəmanlıq nümunələri də yaratdılar

3 il əvvəl Vətən müharibəsində qazanılan Qələbə Azərbaycanın dövlətçilik tarixinin ən böyük hadisəsi oldu. 44 gün davam edən Vətən müharibəsi Prezident İlham Əliyevin yenilməz iradəsini, Ali Baş Komandan kimi rəhbərlik etdiyi ordunun qüdrətini və hansı müasir döyüş imkanlarına malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Sentyabr ayında həyata keçirilən antiterror tədbirlərində isə Qarabağdakı erməni separatizminə son qoyuldu.

Vətən müharibəsi ilk gündən sumqayıtlıların da işğal altında olan torpaqlarımızın azadlığı uğrunda mübarizə əzminin, vətənpərvərliyinin təsdiqi oldu. Hələ 2020-ci ilin iyul ayında Ermənistanın Tovuzda törətdiyi təxribatdan sonra yüzlərlə vətəndaş könüllü olaraq Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər baş idarəsində qeydiyyata düşmüşdü.

Həmin il sentyabrın 27-dən sonra isə könüllü olaraq Vətən savaşında iştirak etmək istəyən sumqayıtlıların sayı daha da artdı. Sumqayıt ictimaiyyəti həmin günlərdə döyüşə gedənləri alqış sədaları ilə yola salırdı. Bu döyüşlərdə neçə-neçə sumqayıtlı qəhrəmanlıq nümunəsi yaratdı. Onlardan 3 nəfəri Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb, bir qismi yüksək orden və medallarla təltif olunub.

Ötən 3 ildə Sumqayıtda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı şəhid olmuş şəhər sakinlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib. Şəhərin küçələrindən birinə Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun adı verilib.

Eyni zamanda döyüşlər zamanı yaralanmış Vətən müharibəsi qaziləri ölkənin hər yerində olduğu kimi, Sumqayıt şəhərində də diqqət mərkəzində saxlanılır. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun tapşırığı ilə Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailələri və müharibədə yaralanmış qazilərlə bağlı işçi qrup fəaliyyət göstərir. Sumqayıt Şəhər İcra Hakimiyyətinin əməkdaşları mütəmadi olaraq Vətən müharibəsində yaralanmış qazilərimizin evlərində olur, onların qayğıları, səhhəti, müalicələrinin gedişi ilə maraqlanır, qazi ailələrinə ərzaq və maddi yardımlar çatdırırlar.

Sumqayıtda son illərdə aparılan abadlıq və quruculuq işləri şəhərin Şəhidlər xiyabanını da əhatə edib. 1992-ci ildə salınan Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunub, burada kompleks yenidənqurma işləri aparılıb, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılıb. Yenidən qurulan Şəhidlər xiyabanında "Qalib Əsgər" abidəsi ucaldılıb, hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılıb, Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi ucaldılıb.

## Möhtəşəm quruculuq şəhərdə yeni standartlar yaradıb

Prezident İlham Əliyevin qayğısı və diqqəti ilə Sumqayıt gündən-günə yüksəlir, tarixi şöhrətini bərpa edir, çoxsaylı inkişaf nümunələri yaradır. Sumqayıt qazandığı uğurları ilə Azərbaycanın iqtisadi qüdrətinin daha da artırılmasında yaxından iştirak edir, ölkənin mədəni və intellektual potensialının gücləndirilməsinə töhfələr verir. Ulu Öndər Heydər Əliyev də Sumqayıtı məhz belə görmək istəyirdi.

Sumqayıtda görülmüş işlərin həcmi və miqyası bir neçə onilliyə bərabərdir. Sumqayıtın siması qısa müddətdə çox dəyişib, modern bir şəhərə çevrilib. Burada həyata keçirilən quruculuq işləri həm də şəhərin yeni standartlarının yaranmasına gətirib çıxarıb. Bu standartlar isə yaxın onilliklərdə dəyişməyəcək və öz möhtəşəmliyini 50-100 il saxlayacaq.

Sumqayıtda bir daha şahidi olduq ki, şəhərin inkişafı və quruculuğu davamlı və sürətlidir. Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov əminliklə bildirir ki, şəhər "Heydər Əliyev İli"ni də böyük uğurlarla başa vuracaq: "Bu həm də bizim "Heydər Əliyev İli"nə layiqli töhfəmiz olacaq. Əminliklə qeyd etmək istəyirəm ki, Sumqayıtda dövlət başçısı cənab İlham Əliyevin qarşımıza qoyduğu bütün vəzifələr layiqincə yerinə yetiriləcək, şəhər ictimaiyyəti bu işə özünün böyük töhfəsini verəcək".

Bütövlükdə, ötən 20 ilin mənzərəsi göstərir ki, şəhərin inkişafı olduqca möhtəşəm və sürətlidir. Dövlət başçısının bu dövrdə Sumqayıta 33 dəfə səfər etməsi isə bu şəhərə olan xüsusi diqqətdən xəbər verir. Sumqayıtlılar bundan sonra da əməlləri ilə bu diqqətə layiq olacaq, şəhərin daha da inkişafı, dövlət başçısının müəyyən etdiyi vəzifələrin vaxtında və uğurla həyata keçirilməsi üçün bütün imkanlarını səfərbər edəcəklər.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

















# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 379** **QƏRAR** **Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

## "Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992, № 11, maddə 1404; 2021, № 1, maddə 102, № 4, maddə 412, № 7, maddə 883, № 8, maddə 963, № 10, maddə 1168, № 12, maddə 1540; 2022, № 3, maddə 260, № 4, maddə 418, № 6, maddə 667, № 8, maddə 963, № 9, maddə 1094, № 12, maddə 1537; 2023, № 1, maddə 142, № 3, maddələr 434, 441, № 5, maddə 728; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 avqust tarixli 288 nömrəli Qərarı) 2-ci hissəsində "2023-cü il oktyabrın 2-dək" sözləri "2024-cü il yanvarın 2-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 380** **QƏRAR** **Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

## "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın verilməsi Qaydasının və həmin Təhsil Qrantının məbləğinin təsdiq edilməsi haqqında

"Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 iyul tarixli 3956 nömrəli Sərəncamının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın məbləği" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respub-likasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 oktyabr tarixli 380 nömrəli Qərarı ilə təsdiq edilmişdir

## "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın verilməsi QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 iyul tarixli 3956 nömrəli Sərəncamının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris dilinə uyğun hazırlıq kurslarında, bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura), doktorantura səviyyələrində (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) dövlət büdcəsindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ayrılan vəsait hesabına aşağıdakı ölkələrin vətəndaşlarının (bundan sonra - proqram iştirakçıları) təhsilinin təşkili məqsədilə təhsil qrantının verilməsi qaydasını müəyyən edir:

1.1.1. İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin;

1.1.2. Qoşulmama Hərəkatına üzv ölkələrin;

1.1.3. İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələrin;

1.1.4. xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin.

1.2. "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" (bundan sonra - Təhsil Qrantı) Azərbaycan Respublikasının vətəndaşı olan və ya Azərbaycan Respublikasının vətəndaşlığına xitam verilmiş şəxslərə verilmir.

1.3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 iyul tarixli 3956 nömrəli Sərəncamının 1-ci hissəsi ilə təsis edilmiş Təhsil Qrantı proqramında (bundan sonra - proqram) Təhsil Qrantının verilməsi üçün kvotaları (o cümlədən ölkələr üzrə kvotaları), namizədlərin seçim meyarlarını və bunların əsasında Təhsil Qrantı alacaq şəxslərin siyahısını hər il may ayının 1-dən gec olmayaraq növbəti tədris ili üçün müəyyən edir.

1.4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qaydanın 1.3-cü bəndinə uyğun olaraq müəyyənləşdirilmiş siyahı üzrə proqram iştirakçılarının təhsil alacaqları Azərbaycan Respublikasının ali təhsil müəssisələrini, eləcə də ixtisasları müəyyən edir və onlara Təhsil Qrantı ilə əhatə olunan xərclərin müvafiq ali təhsil müəssisələri tərəfindən ödənilməsini təmin edir.

### 2. Proqram iştirakçılarının xərcləri

2.1. Təhsil Qrantı Azərbaycan Respublikasının hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, aylıq təqaüd, tibbi yardım və beynəlxalq nəqliyyat xərclərini əhatə edir. Proqram çərçivəsində ödənişlər bu məqsədlə dövlət büdcəsindən ayrılan və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müvafiq ali təhsil müəssisəsinə köçürülən vəsait hesabına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın məbləği"nə uyğun olaraq həmin ali təhsil müəssisəsi vasitəsilə həyata keçirilir.

2.2. Təhsil haqqı ilə bağlı xərclərə təhsil dövrü üçün bakalavriat, magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində təhsil haqqı və dil (tədris dilinə uyğun olaraq) hazırlıq kursları üzrə xərclər, həmçinin doktorantura səviyyəsi üçün təhsil haqqı və dil (tədris dilinə uyğun olaraq) hazırlıq kursları üzrə xərclərlə yanaşı, elmi tədqiqat xərcləri aiddir.

2.3. Beynəlxalq nəqliyyat xərclərinə proqram iştirakçısının ildə bir dəfə (tədris ilinin əvvəlində Azərbaycan Respublikasına gəliş və tədris ilinin sonunda gediş) Azərbaycan Respublikasına gəlişi və gedişi üçün beynəlxalq reyslər üzrə təyyarə biletinin ("ekonom sinif" üzrə bir baqaj xərci ödənilməklə) alınması xərcləri aiddir.

2.4. Aylıq təqaüd xərcləri proqram iştirakçısının yataqxana və ya mənzil kirayəsi, gündəlik qidalanma, tədris ədəbiyyatı ilə təminat, ictimai nəqliyyatdan (taksi xidmətindən başqa) istifadə və kommunal xərclərini əhatə edir. Bu xərclər proqram iştirakçısı Azərbaycan Respublikasına daxil olduqdan etibarən təhsil müddətinin sonunadək olan dövrü əhatə edir. Aylıq təqaüdlər Azərbaycan Respublikasında ali təhsil pilləsinin təhsil səviyyələri üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 4 iyun tarixli 104 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti"nin 1.5-ci bəndi ilə müəyyənləşdirilmiş normativ müddətə uyğun olaraq, eləcə də hazırlıq kursları üzrə bu Qaydanın 3.2.3-cü yarımbəndində göstərilən hallar istisna olmaqla, hər tədris ili ən çoxu 10 (on) ay olmaqla ödənilir.

2.5. Tibbi yardım xərclərinə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın məbləği"nə uyğun olaraq proqram iştirakçısına Azərbaycan Respublikasında təhsil aldığı müddətdə göstərilən tibbi xidmət və dərman alınması xərcləri daxildir.

2.6. Viza və qeydiyyat xərclərinə proqram iştirakçısının Azərbaycan Respublikasına giriş vizasının alınması, eləcə də proqram iştirakçısının Azərbaycan Respublikasında müvəqqəti yaşama icazəsinin alınması xərcləri aiddir.

### 3. Proqram iştirakçılarının xərclərinin ödənilməsi

3.1. Hər bir proqram iştirakçısı proqram çərçivəsində nəzərdə tutulan xərclər və onların ödənilməsi proseduru barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ali təhsil müəssisələri tərəfindən məlumatlandırılır. Ali təhsil müəssisəsi ilə proqram iştirakçısı arasında bu Qaydanın tələblərinə uyğun şəkildə xərclərin ödənilməsi şərtlərini, eləcə də tərəflərin digər məsuliyyət və öhdəliklərini özündə əks etdirən, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş formaya uyğun müqavilə imzalanır. Proqram iştirakçılarının xərclərinin maliyyələşdirilməsi il ərzində müvafiq ali təhsil müəssisələrinin sifarişləri əsasında vəsaitin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən həmin ali təhsil müəssisələrinə köçürülməsi yolu ilə həyata keçirilir.

3.2. Proqram iştirakçılarının xərclərinin ödənilməsi aşağıdakı prosedurlar əsasında həyata keçirilir:

3.2.1. hər il üçün təhsil haqqı ilə bağlı xərclərin ödənilməsi ali təhsil müəssisəsinin təqdim etdiyi sifarişlər əsasında ildə 2 (iki) dəfə olmaqla, hər bir semestrin əvvəlində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müvafiq ali təhsil müəssisələrinin hesabına köçürülmə yolu ilə həyata keçirilir;

3.2.2. proqram iştirakçılarının beynəlxalq nəqliyyat, viza və qeydiyyat xərcləri təqdim olunan müvafiq təsdiqedici sənədlər əsasında hesablanmaqla, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə göndərilən sifarişə uyğun olaraq ayrılan vəsait hesabına ali təhsil müəssisəsi tərəfindən ödənilir. Beynəlxalq nəqliyyat, viza və qeydiyyat xərcləri proqram iştirakçısı tərəfindən ödənildiyi halda, həmin vəsaiti müvafiq təsdiqedici sənədlər əsasında ali təhsil müəssisəsi proqram iştirakçısının yerli bankdakı milli valyuta hesabına ödəyir. Əgər beynəlxalq nəqliyyat və viza xərcləri ödəniş edilməli tarixdən əvvəl proqram iştirakçısı tərəfindən xarici valyuta ilə ödənilmişdirsə, onda beynəlxalq nəqliyyat və viza xərcləri ona ödənişin rəsmiləşdirilməsi tarixinə olan rəsmi məzənnə əsasında manatla ödənilir. Proqram iştirakçısı üçün təyyarə biletinin ali təhsil müəssisəsi tərəfindən sifarişi və ödənilməsi proqram iştirakçısının ali təhsil müəssisəsinə göndərdiyi sorğu (elektron poçt və ya digər formada) və təqdim etdiyi pasportun surəti əsasında ali təhsil müəssisəsi tərəfindən aparılır;

3.2.3. bu Qaydanın 2.4-cü bəndində qeyd olunan proqram iştirakçısının aylıq təqaüdü ali təhsil müəssisəsi tərəfindən hər ay onun yerli bankdakı milli valyuta hesabına köçürülür. Proqram iştirakçıları tədris ilinin sonunda fövqəladə hal və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində öz ölkələrinə gedə bilmədikdə və onların hər hansı maliyyə mənbəyi olmadıqda, bu zaman sözügedən fövqəladə hal və ya qarşısıalınmaz qüvvənin təsiri aradan qalxana və proqram iştirakçıları öz ölkələrinə gedənə qədər müvafiq ali təhsil müəssisəsinin vəsatəti və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəyi əsasında onlara aylıq təqaüd, məzun olan şəxslərə münasibətdə isə 3 (üç) aydan çox olmamaqla aylıq təqaüd ödənilir;

3.2.4. proqram iştirakçısı üçün Azərbaycan Respublikasında təhsil aldığı müddətdə nəzərdə tutulan tibbi yardımla bağlı xərcin ödənilməsini müvafiq ali təhsil müəssisəsinin sifarişi əsasında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən ayrılan vəsait hesabına həmin ali təhsil müəssisəsi təşkil edir. Proqram iştirakçılarının tibbi yardımla bağlı xərcləri Azərbaycan Respublikasında təhsil aldıqları müddətdə proqram iştirakçılarını müqavilə əsasında müəyyən olunmuş qaydada tibbi xidmətlə təmin edən sığortaçı tərəfindən təqdim edilən, eləcə də digər təsdiqedici sənədlər əsasında ödənilir.

3.3. Müvafiq ali təhsil müəssisəsi hər semestrin sonunda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə həmin semestrdə fənlər üzrə proqram iştirakçılarının aldıqları yekun qiymətlərin hesabatlarını təqdim etməlidir. Proqram iştirakçılarının təqdim edilən hesabatda əks olunan fənlər (bir və ya daha çox) üzrə göstəriciləri təhsil aldığı müddətdə iki dəfədən çox olmamaqla 51 baldan aşağı olduğu təqdirdə, bu akademik müvəffəqiyyətsizlik hesab edilir və bu hal aradan qaldırılana qədər növbəti semestrlər üçün proqram iştirakçılarının xərclərinin ödənilməsi müvəqqəti olaraq dayandırılır. Bu zaman bütün xərclər proqram iştirakçısı tərəfindən ödənilir.

3.4. Proqram iştirakçısının təhsil müəssisəsini, ixtisası, təhsilalma formasını dəyişdirməsi, onun təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilini müvəqqəti dayandırması (ona akademik məzuniyyətin verilməsi) məsələləri "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.10-1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada tənzimlənir. Proqram iştirakçısı ali təhsil müəssisəsindən xaric edildikdə, həmin təhsil müəssisəsi 3 (üç) iş günü ərzində bu barədə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə məlumat verməlidir.

3.5. Proqram iştirakçılarının təhsil müddətinin üzrlü (xəstəlik, ailə vəziyyəti və s.) və ya onlardan asılı olmayan səbəblərə görə uzadılması halında, onların və ya ali təhsil müəssisəsinin müraciəti əsasında yalnız 1 (bir) əlavə semestr üzrə xərclərin ödənişi həyata keçirilə bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 oktyabr tarixli 380 nömrəli Qərarı ilə təsdiq edilmişdir

## "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın məbləği

(manatla)

| Hazırlıq kursu və təhsil səviyyələri üzrə təhsil haqqı (illik maksimum məbləğ) | | | | | | Aylıq təqaüd xərcləri | İllik tibbi yardım |
|---|---|---|---|---|---|---|---|
| tədris dilinə uyğun hazırlıq kursu | bakalavriat | magistratura | doktorantura | əsas (baza ali) tibb təhsili | rezidentura | | |
| 3000 | 4000 | 4500 | 5000 | 5500 | 6000 | 800 | 200 |

**Qeyd.** Proqram iştirakçılarının viza və qeydiyyat xərcləri "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məbləğlərə uyğun, beynəlxalq nəqliyyat xərcləri isə faktiki xərclər üzrə təqdim olunan müvafiq təsdiqedici sənədlər əsasında ödənilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 381** **QƏRAR** **Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379, № 7, maddə 1342, № 11, maddələr 1965, 1976, № 12, maddə 2239; 2018, № 8, maddələr 1793, 1795, № 12 (II kitab), maddə 2730; 2019, № 1, maddə 165, № 3, maddə 532, № 7, maddələr 1318, 1334; 2020, № 10, maddə 1269, № 11, maddə 1389; 2022, № 4, maddə 382, № 9, maddə 1100, № 12, maddə 1552; 2023, № 6, maddə 846) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissəyə aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Bu Qaydaların məqsədləri üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Bu sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

2. 2-ci hissə üzrə:

2.1. 2.1-ci bəndin üçüncü cümləsi dördüncü cümlə hesab olunsun və həmin bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Notarius tərəfindən təsdiq olunmuş ərizə üzrə məlumatlar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemindən bu Qaydaların 1.3.3-cü yarımbəndinə uyğun olaraq Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" (VEMTAS) altsisteminə (bundan sonra - VEMTAS) ötürülür.";

2.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Təmsilçilik barədə ərizə bu Qaydaların 2.1-ci bəndinə uyğun olaraq təsdiq edildikdən sonra müraciət üçün 90 (doxsan) gün müddətində, sosial yardım təyin olunduğu halda isə sosial yardımın alındığı dövrdə qüvvədədir.";

2.3. 2.2-ci bənddə "Elektron hökumət" və ya Nazirliyin "e-sosial" internet portallarında" sözləri "Elektron Hökumət İnformasiya Sistemi və ya Nazirliyin "e-sosial" internet portalında" sözləri ilə, "Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" (VEMTAS) altsisteminə (bundan sonra - VEMTAS)" sözləri "VEMTAS-a" sözü ilə əvəz edilsin.

3. 3-cü hissə üzrə:

3.1. 3.2-ci bənddə "Elektron hökumət" portalı" sözləri "Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin;

3.2. 3.3-cü bənddən "ünvanlı" sözü çıxarılsın;

3.3. 3.4-cü bəndin birinci cümləsində ", foto çəkilişi və səs yazısı" sözləri "və foto çəkilişi" sözləri ilə əvəz edilsin;

3.4. aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

"3.4-1. Sosial yardım təyin olunmuş ailənin tərkibi, yaşayış ünvanı dəyişmədikdə və ailədə ailə başçısını itirməyə görə əmək pensiyası və ya sosial müavinət alan, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü və ya orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 2 (iki) və daha çox ailə üzvü, 3 (üç) və daha çox uşaq olduqda sosial yardımın təyin edilmə müddəti bitdikdən sonra həmin ailənin sosial yardımın alınması üçün növbəti 1 (bir) il ərzində təkrar müraciəti Bölmənin və ya Mərkəzin sosial yardım üzrə işçisinə tapşırıq göndərilmədən VEMTAS tərəfindən araşdırılır və sosial yardımın təyin olunması və ya təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır.";

3.5. 3.7.5-ci yarımbəndə "bölməsi" sözündən sonra "və ya Mərkəz" sözləri əlavə edilsin;

3.6. aşağıdakı məzmunda 3.7-1-ci bənd əlavə edilsin:

"3.7-1. Bölmə və ya Mərkəzin sosial yardım üzrə işçisi tərəfindən ailənin maddi-məişət şəraitinin müayinəsi aparılarkən aşağıdakı halların aşkar edilməsi səbəbindən sosial yardımın təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarıldıqda və həmin ailənin növbəti müraciəti zamanı bu hallar aradan qaldırılmadıqda maddi-məişət şəraitinin müayinəsi aparılmadan ailəyə sosial yardımın təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır:

3.7-1.1. ailənin "Ərizə-bəyannamə"də göstərdiyi ünvan düzgün olmadıqda;

3.7-1.2. ailənin əmlakı barədə məlumat düzgün göstərilmədikdə.".

4. 4-cü hissə üzrə:

4.1. 4.4-cü bənddə "Təmsilçinin müraciəti əsasında" sözləri "15 (on beş) iş günü müddətində" sözləri ilə əvəz edilsin;

4.2. 4.5-ci bənddə "Sosial" sözü "Təmsilçi vəfat etdikdə, habelə sosial" sözləri ilə, "Təmsilçinin" sözü "ailənin" sözü ilə əvəz edilsin;

4.3. aşağıdakı məzmunda 4.8-1-ci bənd əlavə edilsin:

"4.8-1. Aşağıdakı hallar istisna olmaqla, ailənin tərkibində dəyişikliklər baş verdikdə sosial yardımın ödənişi dayandırılır və ailənin sosial yardım almaq hüququna Təmsilçinin müraciəti əsasında yenidən baxılır:

4.8-1.1. ailədə yeni uşaq doğulduqda və ya övladlığa götürüldükdə;

4.8-1.2. ailə üzvü (üzvləri) vəfat etdikdə (Təmsilçi istisna olmaqla);

4.8-1.3. ailə üzvü müddətli həqiqi hərbi xidmətə çağırıldıqda və ya müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqda;

4.8-1.4. bu Qaydaların 1.2.2-ci və 1.2.3-cü yarımbəndlərində qeyd olunan müddətlər başa çatdıqda.".

5. 5-ci hissə üzrə:

5.1. 5.1-ci bəndin ikinci cümləsindən "və yaxud əldə oluna biləcək" sözləri çıxarılsın;

5.2. 5.2-ci bənd ləğv edilsin;

5.3. 5.3-cü bənddə "və mənbəyi bəlli olan digər mənbələrdən (o cümlədən bilavasitə yerində araşdırmaqla)" sözləri "mənbələrdən (o cümlədən ailənin maddi məişət şəraitinin müayinəsi zamanı aparılan video və foto çəkiliş üzrə məlumatlardan)" sözləri ilə əvəz edilsin;

5.4. 5.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"5.9. Ailə üzvünün aldığı cari transfertlərə bütün növ pensiyalar, sosial müavinətlər və kompensasiya xarakterli ödənişlər (5.24.3-cü yarımbənddə göstərilən hallar istisna olmaqla), təqaüdlər, maddi yardımlar (5.24.2-ci yarımbənddə göstərilən hallar istisna olmaqla), qrantlar, aliment, sığorta ödənişi aiddir.";

5.5. 5.22-ci bənddə qeyd olunan hesablama qaydasında "30" rəqəmləri "32.6" rəqəmləri ilə, "11.7" rəqəmləri "15.6" rəqəmləri ilə, "6.1" rəqəmləri "7.2" rəqəmləri ilə əvəz edilsin;

5.6. 5.24.3-cü yarımbəndə "müavinətlər" sözündən sonra "və kompensasiyalar" sözləri əlavə olunsun və həmin yarımbənddə "və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə birdəfəlik müavinət" sözləri ", penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə birdəfəlik müavinət və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə ilk dəfə işə düzələn zaman ödənilən birdəfəlik müavinət və paltar, ayaqqabı, yumşaq ləvazimat və avadanlıq əvəzinə verilən pul kompensasiyası" sözləri ilə əvəz edilsin.

6. 7-ci hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ermənistanın avantürası onun iflasını sürətləndirir



*"44 günlük Vətən müharibəsi və sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri təkcə Azərbaycan və Ermənistanda yox, ümumiyyətlə, regionda yeni siyasi mənzərə formalaşdırıb. Bu regiondakı yeni siyasi arxitekturanın əsas qurucusu və müəllifi isə, təbii ki, Azərbaycandır. Azərbaycanın iştirakı olmadan Cənubi Qafqazda heç bir böyük layihə icra oluna bilməz. Bu, zamanın tələbi və ölkəmizin yenilməz gücüdür. Azərbaycan bu gün qlobal aləmdə güclü və qətiyyətli dövlət kimi tanınır".*

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Azərbaycanla Ermənistan arasında gedən sülh danışıqları barədə danışan deputat bildirib ki, respublikamız müharibə başa çatdıqdan dərhal sonra sülhün bərqərar olunması üçün əlindən gələni etsə də, Ermənistanın baş naziri Nikol Paşinyan sülh barədə yalnız danışır, əməldə heç nə göstərmir. Bu ölkə ona havadarlıq edən qüvvələrin əlində oyuncağa çevrilib. Ermənistan Cənubi Qafaqazla bağlı məkrli planlar quran hamiləri ilə sövdələşməyə gedərək regionda dayanıqlı sülhün əldə olunmasına əngəllər yaradır.

Deputat qeyd edib ki, hazırkı situasiyada Azərbaycan tərəfi Ermənistanla müharibənin başa çatdığını və yeni səhifənin açıldığını bəyan edir. Bunun üçün məğlub tərəfə beş baza prinsipi təklif edib. Yəni Azərbaycan sülh gündəliyinin formalaşması üçün bütün vacib addımları atır. Bu addımların tərkib hissəsi kimi sülh müqaviləsinin imzalanması üçün həm Qərb institutları, həm də Rusiya ilə danışıqlarda hər zaman iştirak edib. Prezident İlham Əliyev dəfələrlə münaqişənin geridə qaldığını və artıq bu bölgəyə dayanıqlı sülh və əmin-amanlığın gəlməsi üçün qarşılıqlı işlərin görülməsinin vacibliyini bildirib.

"Məlumdur ki, sülh danışıqları zamanı Ermənistan qeyri-konstruktiv mövqe nümayiş etdirir. Ermənistan tarixi təkrarlayaraq Cənubi Qafqaza yenə də digər gücləri, lazımsız qüvvələri gətirməyə çalışır. Lakin başa düşmək istəmir ki, regionda əsas faktor Azərbaycandır. Azərbaycan isə heç bir vəchlə belə arzuolunmaz hadisələrin baş verməsinə razılıq verməyəcək. Həmçinin bu danışıqlara Fransanı cəlb etməyə cəhd etməklə Ermənistan özünün uğursuz siyasətini bir daha ortaya qoyur", - deyə Vüqar İskəndərov bildirib.

Vüqar İskəndərovun sözlərinə görə, hadisələrin bu fonda irəliləməsi, sülh sazişinin imzalanmasının gecikdirilməsi Ermənistanın rəhbərliyinin günahı ucbatındandır. Lakin İrəvan gecikmədən rasional mövqe nümayiş etdirməli və iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün konkret əməli addımlar atmalıdır.

"Nəzərə almaq lazımdır ki, dünyada artıq əhali və ərazinin böyüklüyündən yox, məhz mahiyyətin ölçüsündən danışılır. Bu mənada Azərbaycan da artıq mahiyyətcə böyük dövlətlərin sırasındadır. Belə olan halda regionda və dünyada yüksək nüfuz sahibi olan Azərbaycanla sülh şəraitində yaşamaq Ermənistana faydalı olar. Ermənistanın məsuliyyətsizliyi onun iflasını sürətləndirir", - deyə deputat əlavə edib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Mənfur təcrübə, çirkin maraq

## Fransa Ermənistanı silahlandırmaqla onu Azərbaycana qarşı revanşa sövq edir

*"Fransanın sərgilədiyi mövqe bu günə qədərki davranışlarının davamıdır. Rəsmi Paris hər zaman Ermənistanın işğalçılıq siyasətinə dəstək olub. Əslində, ATƏT-in keçmiş Minsk qrupunun həmsədri kimi münaqişənin tənzimlənməsi ilə deyil, idarəolunması ilə məşğul olub".*

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, o dövrdə başlıca məqsəd Ermənistana vaxt qazandırmaqla müəyyən müddətdən sonra işğal altında saxlanılan Azərbaycan torpaqlarının anneksiyasını həyata keçirmək olub. Digər məqsədləri isə Ermənistandan istifadə edərək Cənubi Qafqazda müdaxilə imkanlarını qoruyub saxlamaq idi. "Təsadüfi deyil ki, Fransa parlamentində müzakirələr zamanı Azərbaycan ərazisində separatizmin aşkar şəkildə dəstəklənməsi ilə bağlı çağırışlar edilirdi. Həmin dövrdə ərazilərimizdə separatizmin mövcudluğu Fransanın maraqlarına xidmət edirdi. Təkcə Fransa deyil, Avropa siyasi dairələrinin yanaşması hər zaman Azərbaycan ərazisindəki ermənilərin vəziyyətinin beynəlxalq mexanizmlərin tətbiqi yolu ilə müəyyənləşdirilməsi olub. Beynəlxalq mexanizm dedikdə nəyi nəzərdə tutduqları aydındır, yəni hər hansı formada Azərbaycanın ermənilər yaşayan ərazilərinə müdaxilə etsinlər. Bunun da müxtəlif forması ola bilərdi. Bütün hallarda isə bu, Avropa dairələrinin geosiyasi maraqlarının təmin olunmasına xidmət edəcəkdi", - deyə deputat vurğulayıb.



Avropa İttifaqının mülki missiyasının Ermənistana göndərildiyini xatırladan deputat deyib ki, bu missiyanın Fransa və Almaniyanın güc təmsilçilərindən təşkil edildiyi məlumdur. O vaxt Azərbaycan ərazisindəki ermənilərin hüquq və təhlükəsizliyinin təmin edilməsi üçün hansısa missiyanın regiona göndərilməsi nəzərdə tutula bilərdi. Lakin bütün bunlar baş vermədi. Azərbaycan həmişə olduğu kimi, preventiv davrandı, haqlı mövqelərini inamla müdafiə etdi, suveren ərazilərində separatizmin kökünü kəsdi. Belə olan halda Fransa, Ermənistan və Avropanın bəzi siyasi dairələrinin əllərindəki alət əhəmiyyətini itirmiş oldu.

Azərbaycan ərazisində separatizmin kökünün kəsildiyini qeyd edən E.Mirbəşiroğlu vurğulayıb ki, artıq siyasi spekulyasiyalar üçün platforma mövcud deyil: "Fransa bu halda Ermənistanı silahlandırmaqla onu Azərbaycana qarşı revanşa sövq edir. Ermənistandakı hakimiyyət Qərb tərəfindən formalaşdırılıb, ona görə də müstəqil siyasət yürüdə bilmir. Ermənistan Avropadan gələn təlimatlar əsasında idarə olunur".

Deputatın sözlərinə görə, hava hücumundan müdafiə silahlarının Ermənistana verilməsi ilə bağlı razılaşmanın əldə olunması, bu ölkənin digər silah-sursatlarla hərbi arsenalının yenidən formalaşdırılması istəyi ona dəlalət edir ki, Fransa Cənubi Qafqazda yenidən silahlı münaqişənin alovlandırılmasını qarşısına məqsəd kimi qoyub. Avropadan gələn təlimatlar Ermənistanın hazırkı rəhbərliyi tərəfindən müzakirəsiz icra olunur. Bu da region üçün təhlükəli perspektivlərdən xəbər verir.

E.Mirbəşiroğlu vurğulayıb ki, Fransa Ermənistana vermiş olduğu yeni silahları öz sərəncamında saxlayıb, onlardan ermənilərin əli ilə istifadə etmək fikrindədir: "Reallıq bundan ibarətdir. Fransanın bu addımı qınanmalıdır. Prezident İlham Əliyevin iradəsi, Azərbaycan dövlətinin gücü, qətiyyəti ilə Cənubi Qafqaz regionunun münaqişə potensialı əhəmiyyətli dərəcədə məhdudlaşdırılıb. Lakin Fransa Ermənistanı silahlandırmaqla regionda gərginliyin yüksək həddə saxlanılmasında maraqlı olduğunu nümayiş etdirir. Bütün bunlara qarşı təxirəsalınmaz addımlar atılmalıdır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***




# Fransanın məkrli planları baş tutmayacaq



*"Fransa əsrlər boyu kolonializm siyasətini yürüdüb, insanların azadlıqlarını əlindən alıb. Bu ölkə soyqırımı və qırğınlar törədərək xalqları köləlikdə saxlamaqda davam edir. XXI əsrdə köləliyə son qoyulması, insanların hüquq və azadlıqlarının təmin edilməsi BMT-nin qarşısında dayanan ən prioritet vəzifələrdən olsa da, Fransa özünün köhnə və çirkin əməllərindən əl çəkmək niyyətində deyil. Bu, BMT-nin günün reallıqlarına uyğun dünya nizamını tənzimlənmək iqtidarında olmadığını bir daha sübut edir. Hələ 70 il əvvəl keçirilmiş Bandunq konfransında neokolonializmə son qoyulması tələb olunsa da, Fransa öz məkrli siyasətini hələ də yürüdür".*

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, Afrikada, Cənub-Şərqi Asiyada, Sakit Okean və Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa hərbi cinayətlər törədərək xalqları soyqırımlara məruz qoyub: "XX əsrdə 30 il ərzində Fransanın Poleneziya və Əlcəzairdə həyata keçirdiyi nüvə sınaqlarının törətdiyi faciələrin fəsadları indi də yaşanır. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır nəticələrini hiss edirlər. Ruandada tutsi qəbiləsinin 800 min üzvünün qətlə yetirilməsi Fransanın adına yazılmış ən çirkin səhifələrdən biridir. Həmçinin bu gün Fransanın muzeyində saxlanan 18 min əlcəzairli hərbçinin kəllə sümüyü fransızların qanlı iç üzünün ifadəsidir. Paris bütün bunlarla yanaşı, Mayot adası və Yeni Koledonyanın müstəqilliyə qovuşmasına imkan vermir, korsikalıların hüquq və azadlıqlarını təmin etmir".

Deputat deyib ki, Fransada neokolonializm meyilləri ilə paralel olaraq irqçilik və islamofobiyanın da geniş vüsət alması beynəlxalq ictimaiyyəti narahat etməlidir. Qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan çıxarılması və Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olmasını yaşayan Fransa indi də Cənubi Qafqazda öz antihumanist və millitarist siyasətini həyata keçirməyə çalışır.

"Bu baxımdan, Fransa və Ermənistanı ümumi oxşar cəhətlər birləşdirir. Fransa Əlcəzair ərazisində 5 milyon mina basdırdığı kimi, Ermənistan da Azərbaycanın ərazilərində milyonlarla mina basdırıb və son üç ildə 340-dan çox vətəndaşımız mina qurbanına çevrilib. Fransa Afrika ölkələrində itirdiyi mövqelərini Cənubi Qafqazda yeniləyərək möhkəmlətməyə çalışır. Amma Fransa unudur ki, Cənubi Qafqaz Afrika deyil. Bu regionun əsas söz sahibi Azərbaycandır və onun ən yaxın müttəfiqi olan NATO-nun ikinci ordusuna malik Türkiyədir", - deyə o qeyd edib.

Azər Badamov vurğulayıb ki, bu gün Fransa Ermənistanı silahlandırır və yenidən revanşizmə hazırlayır. Bu ölkə davranışları ilə regiona sülhün gəlməsinə mane olmaqla yanaşı, erməniləri fəlakətə sürükləyir. Fransanın təşəbbüs göstərdiyi sülh danışıqları da gözdən asılan pərdədir. Onun əsl niyyəti Rusiyanı regiondan çıxartmaq və Cənubi Qafqazda mövqe üstünlüyünü təmin etməkdir. Təsadüfi deyil ki, Fransa tarixən çirkin niyyətlərini həyata keçirən ölkə kimi ad çıxardıb. Bütün cəhdlərə baxmayaraq, Fransanın və Ermənistanın planları baş tutmayacaq.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Günahsız insanların ölümündə Ermənistanı müdafiə edənlər də məsuliyyət daşıyırlar

**Bu nə birincidir, nə də sonuncu... Yenə də Ermənistanın ərazilərimizə basdırdığı mina partladı. Cəlilabad rayon sakini Elçin Xanbala oğlu Nurəliyev Tərtər rayonunun Talış kəndi ərazisində traktorla təsərrüfat işləri görərkən tank əleyhinə minanın partlaması nəticəsində ağır xəsarət alıb. Onun sağ qolu amputasiya edilib.**








Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) saytında yerləşən məlumatda bildirilir ki, İkinci Qarabağ müharibəsi başa çatandan bu günə qədər işğaldan azad edilmiş ərazilərdə 307 nəfər minadan zərər çəkib. Onlardan 56 nəfəri həlak olub, 251-i isə yaralanıb. O cümlədən 43 mülki şəxs həlak olub, 101-i isə xəsarət alıb. Eyni zamanda 13 hərbi qulluqçu həyatını itirib, 150 nəfər isə yaralanıb. Lokal xarakterli antiterror tədbirlərindən əvvəl Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən ərazilərimizə azı yarım milyon əlavə mina yerləşdirildiyi ehtimal edilir.

İşğalçı dövlət 30 ildə işğal etdiyi ərazilərdə həyat üçün, yaşayış üçün faydalı nə varsa məhv edib, yalnız torpaqlara mina basdırmaqla məşğul olub. Bunun nəticəsidir ki, Azərbaycan ərazisi minalardan çirklənmə əmsalına görə dünyada liderlik edir. Nə qədər dəhşətli müqayisə olsa da, deməliyik ki, Azərbaycanda basdırılan minaların sayına görə hər 10 nəfərə bir mina düşür. Birmənalı olaraq bu minaların böyük əksəriyyətinin Ermənistan istehsalı olduğunu və onların ərazilərimizə bu dövlət tərəfindən basdırıldığını, Qarabağı dünyanın ən çox mina ilə çirklənmiş ərazisinə çevirənin Ermənistan olduğunu indi bu dövləti müdafiə edən Qərb dövlətləri yaxşı bilir, amma susurlar. Ən dəhşətlisi də odur ki, Ermənistan rəhbərliyindən minalanmış ərazilərin xəritələrini verməyi tələb etmirlər.

Unudurlar ki, bu yalnız azərbaycanlılar əleyhinə deyil, həm də canlı təbiət, bioloji müxtəliflik əleyhinə törədilmiş dəhşətli bəşəri bir cinayətdir. Ermənistanın bu vəhşiliyinə görə təbiətin günahsız canlıları da əziyyət çəkirlər. Bu günlərdə işğaldan azad edilmiş ərazilərdə 2 ayı da mina terrorunun qurbanı olub. Partlayış nəticəsində bala ayı ölmüş, ana ayı isə şikəst olmuşdur. Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF) bir neçə il əvvəl Ermənistanla Azərbaycan sərhədində ayaqları şikəst qalmış 2 bəbirin (Panthera pardus) təsvirini də yaymışdı. Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan, Beynəlxalq Qırmızı Siyahıya düşmüş növlər də var. Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır.

Ayı balasının ölümünə səbəb olan mina 2021-ci ildə Ermənistanda istehsal olunub. Bu isə o deməkdir ki, Ermənistan 2020-ci ildə 44 günlük müharibədən sonra da Laçın yolundan sui-istifadə edərək Azərbaycan ərazilərini minalamaqda davam edib. Yalnız 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun icra etdiyi lokal xarakterli antiterror tədbirləri ilə Ermənistanın Azərbaycanın suveren ərazilərini minalamasının qarşısını alınıb. Xatırladaq ki, bu günə qədər Azərbaycan işğaldan azad olunmuş 98 min hektardan artıq ərazini minalardan təmizləyib.

Ortalıqda Ermənistanın həm də heyvanlardan terror aktlarının törədilməsində suiqəsdçi olaraq istifadə etməsi kimi qeyri-insani fakt da mövcuddur. 2023-cü il sentyabrın 11-də Ermənistanın Azərbaycan ərazisindəki qeyri-qanuni silahlı dəstələri itin üzərinə uzaqdan idarə olunan əldəqayırma partlayıcı qurğu bağlayaraq onu Azərbaycan Ordusunun mövqeləri istiqamətində hərəkət etməyə məcbur etmişdilər.

Bu cür təxribatlar adi silahların müəyyən növlərinin istifadəsinə qadağa və məhdudiyyətlərə dair Konvensiyanın minaların, mina tələlərinin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında protokoluna zidd olan əməldir.

Mina problemi Azərbaycan vətəndaşlarının öz əzəli torpaqlarına qayıdış prosesini ləngitməklə yanaşı, eyni zamanda onların təhlükəsizliyi üçün də ciddi təhdid yaradır.

Mina təhlükəsinin böyüklüyü və törətdiyi fəsadlar bu problemin qlobal səviyyədə həll olunmasını labüd edir. Təəssüf ki, dünya birliyi Ermənistanın törətdiyi bu bəşəri cinayətə göz yumur. Bu azmış kimi, dünyanın bəzi dövlətləri, silah alverçiləri insanlığa və canlı təbiətə qarşı cinayətlər törətmiş bu dövləti indi də silahlandırırlar.

Nə yaxşı ki, dünyada Ermənistanın törətdiyi bu qeyri-insani davranışa etiraz edənlər də var. Artıq bir sıra xarici QHT, vətəndaş cəmiyyəti fəalları bu problemlə bağlı BMT-yə müraciət ediblər.

"Minadan azad dünya üçün qlobal təşəbbüs" adlı petisiya başladılıb. Petisiya "Jotform" beynəlxalq platformasında "Dünya Qafqazda sülh üçün" ("World for Peace in Caucasus") adlı beynəlxalq kampaniya çərçivəsində elan olunub. Petisiyada deyilir ki, minalar və partlamamış hərbi sursatlar (PHS) mülki əhalinin sağlamlığı, həyatı və təhlükəsizliyi üçün ciddi təhlükə yaradır, münaqişələr bitdikdən sonra da minalar insanları öldürməyə davam edir.

Kampaniya müəllifləri bəyan edirlər ki, Ermənistan Azərbaycan ərazilərini minalayıb, 2020-ci ildə 44 günlük müharibədən sonra da bu proses dayanmayıb. Azərbaycan yalnız Laçın yolunda sərhəd keçid məntəqəsi qurduqdan sonra vəziyyət nəzarətə götürülüb. Müraciət müəllifləri qeyd edirlər ki, 19-20 sentyabr 2023-cü il tarixlərində aparılan son antiterror tədbirləri nəticəsində Azərbaycan 480 kilometrlik xətt boyunca Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən azı yarım milyon əlavə mina yerləşdirildiyini aşkarlayıb. Müraciət müəllifləri tələb ediblər ki, Ermənistan yeni basdırılmış minaların da xəritələrini dərhal Azərbaycan dövlətinə təhvil verməlidir. Təəssüf ki, beynəlxalq birlik bu məsələdə həssas mövqe göstərmək, Ermənistana müvafiq çağırışlar etmək əvəzinə, hadisələrə ikili standartlarla yanaşmanın şahidi oluruq. Bu gün Ermənistanı müdafiə edənlər, bu dövlətin törətdiyi cinayətləri görüb susanlar unutmasınlar ki, Qarabağda ölən, öldürülən hər bir günahsız canlının qanının axmasında, həyatına son qoyulmasında onların da əli var. Bu cinayətləri törədənlər, buna rəvac verənlər qanun qarşısında cavab verməsələr də, bir gün Tanrı qarşısında cavab verəcəklər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Bakıda kibertəhlükəsizlik üzrə tədbir keçirilmişdir

**Oktyabrın 26-da Bakı Konqres Mərkəzində kiberfestivala ("Critical Infrastructure Defence Challenge 2023") start verilmişdir. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən tədbir kiber sahə üzrə yerli və xarici şirkətləri, dövlət və özəl sektorda fəaliyyət göstərən qurumları, tələbə və ekspertləri bir araya toplamışdır.**



Tədbirin açılışında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev, Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Kazımov, Azərbaycan Respublikasının Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, "Azerconnect" şirkətinin baş direktorunun müavini Dövlət Dövlətov və "BP" şirkətinin Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış etmişlər.

Tədbir çərçivəsində Azərbaycanda ilk dəfə kiberhücumların simulyasiyası ilə virtual müharibədə dövlət qurumlarının, kritik infrastrukturların, bankların, telekommunikasiya müəssisələrinin IT üzrə 3-5 nəfər tərkibdə 20 komandası 2 gün ərzində yarışacaq. Tədbirin son günündə qalib komanda 30.000 manat mükafat əldə edəcəkdir.

Təşkilatçılar tərəfindən tədbir günləri ərzində informasiya təhlükəsizliyi mövzusunda 10 təqdimat, 5 panel müzakirəsi, eləcə də ödənişsiz 6 fərqli sahə üzrə təlimlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bütün qonaqlar kibertəhlükəsizlik həlləri sərgisini ziyarət etmək, virtual yarışlarda iştirak edib hədiyyələr qazanmaq imkanlarına malik olacaqlar.

Qeyd edək ki, kiberfestival dövlət qurumları, kritik infrastrukturlar, maliyyə və telekommunikasiya sektorları əməkdaşlarının informasiya təhlükəsizliyi üzrə təcrübə, bilik və bacarıqlarının təkmilləşdirilməsi, dövlət və özəl sektorlararası şəbəkələşmənin və koordinasiyanın gücləndirilməsi məqsədilə təşkil olunmuşdur.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin noyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Baş prokuror**<br>Kamran Əliyev | **Abşeron** | Abşeron, Zəngilan | **02** |
| 2. | **Ədliyyə naziri**<br>Fikrət Məmmədov | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **03** |
| 3. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | **Tərtər** | Tərtər, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa | **03** |
| 4. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru**<br>Ruslan Əliyev | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **04** |
| 5. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | **Zaqatala** | Zaqatala, Balakən | **07** |
| 6. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **14** |
| 7. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | **Gəncə** | Gəncə, Naftalan, Goranboy, Samux, Göygöl, Kəlbəcər, Xocalı | **15** |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | **17** |
| 9. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | **Şirvan** | Şirvan, Hacıqabul | **22** |
| 10. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Bərdə | **22** |
| 11. | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri**<br>İnam Kərimov | **Şəki** | Şəki, Qax | **23** |
| 12. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Muxtar Babayev | **Şəmkir** | Şəmkir, Gədəbəy | **23** |
| 13. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Mübariz Qurbanlı | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | **23** |
| 14. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi, Laçın | **23** |
| 15. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri**<br>Zaur Əliyev | **Quba** | Quba, Qusar | **23** |
| 16. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **24** |
| 17. | **Energetika naziri**<br>Pərviz Şahbazov | **Sabirabad** | Sabirabad, Şirvan, Hacıqabul, Saatlı, İmişli | **24** |
| 18. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | **Quba** | Quba, Qusar | **24** |
| 19. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | **Yevlax** | Yevlax, Mingəçevir | **24** |
| 20. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | **Ağsu** | Ağsu, İsmayıllı | **24** |
| 21. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | **Şirvan** | Şirvan, Hacıqabul | **24** |
| 22. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | **Bərdə** | Bərdə, Naftalan, Ağcabədi, Ağdam, Tərtər, Füzuli, Laçın, Xocalı | **24** |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Saleh Məmmədov | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **24** |
| 24. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | **Qax** | Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala, Balakən | **24** |
| 25. | **"Azərişıq" ASC-nin sədri**<br>Vüqar Əhmədov | **Şabran** | Şabran, Siyəzən | **24** |
| 26. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən**<br>İlham Mirzəliyev | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **24** |
| 27. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Sahil Babayev | **İmişli** | İmişli, Beyləqan | **30** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Beynəlxalq Geologiya-Mədənçilik Forumunun rəsmi açılış mərasimi keçirilib

**26 oktyabr 2023-cü il tarixində Bakıda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq Geologiya-Mədənçilik - "GeoMining" Forumunun rəsmi açılış mərasimi keçirilib.**









Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi, Geoloji Kəşfiyyat Agentliyinin təşkilatçılığı, Azərbaycan Milli Elmlər Akademiyası, "AzerGold" QSC, Türkiyə Mineral Tədqiqatlar və Kəşfiyyat Baş İdarəsinin tərəfdaşlığı ilə keçirilən mötəbər tədbirdə dünyanın 30-a yaxın ölkəsindən dövlət qurumlarının, elmi təşkilatların, yerli və xarici şirkətlərin ümumilikdə 300 nəfərə yaxın nümayəndəsi iştirak edir.

Geologiya və mədənçilik sahəsində mütərəqqi beynəlxalq təcrübəyə əsaslanan əməkdaşlıq modeli yaratmaq, ölkəmizin dağ-mədən sahəsində potensialını nümayiş etdirmək məqsədilə təşkil edilən forum Ulu Öndər Heydər Əliyevin dağ-mədən sahəsinin inkişafındakı xidmətlərindən bəhs edən videoçarxın nümayişi ilə başlayıb.

Forumun rəsmi açılış mərasimində çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev əvvəlcə ölkəmizdə geologiya və dağ-mədən sahəsinin inkişafı istiqamətində görülən işlərdən danışıb. O, hazırda cənab Prezident İlham Əliyevin rəhbərliyi altında sözügedən sahələrdə həyata keçirilən fəaliyyətin effektiv nəticələr verdiyini, faydalı qazıntı yataqlarımızın səmərəli idarə olunması sahəsində mühüm tədbirlərin görüldüyünü diqqətə çatdırıb. Ümumilikdə ölkəmizin dağ-mədən sahəsində əməkdaşlıq üçün böyük potensialının olduğunu deyən nazir xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda mövcud olan təbii ehtiyatlarımızın bölgənin sosial-iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

"AzerGold" QSC-nin idarə heyəti sədrinin müavini Oqtay Məmmədov isə qeyd edib ki, Azərbaycanda geologiya və dağ-mədən sahəsi ilə bağlı beynəlxalq miqyasda mötəbər tədbirin məhz belə bir əlamətdar tarixdə - "Heydər Əliyev İli" çərçivəsində keçirilməsi təsadüfi deyil. O bildirib ki, Ümummilli Liderin əsasını qoyduğu, möhtərəm Prezident İlham Əliyevin qətiyyətlə davam etdirdiyi siyasət kursunun effektiv nəticələri ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, dağ-mədən sənayesinin dayanıqlı və dinamik inkişafında da özünü göstərməkdədir.

Qeyd olunub ki, Azərbaycanda və ölkə hüdudlarından kənarda dünya miqyaslı və aparıcı mədən şirkəti olmaq "AzerGold" QSC-nin strateji hədəflərindən biridir: "Bu məqsədlərə nail olmaq üçün beynəlxalq tərəfdaşlıq əlaqələrimizi inkişaf etdirmək, təcrübə mübadiləsi aparmaq önəmli faktorlardır. Bu mənada forumun həm ölkəmiz, həm də mövcud və potensial xarici tərəfdaşlarımız üçün əhəmiyyəti böyükdür".

Tədbirdə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru Akif Əlizadə, BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Alessandra Rokasalvo, Türkiyənin Mədən və Neft İşləri Agentliyinin sədri Arslan Narin, Türkiyənin Mədən Texnik Araşdırma Dövlət Şirkətinin rəhbəri Vedat Yanık, Azərbaycan Respublikasının Kosmik Agentliyinin ("Azərkosmos") idarə heyətinin sədri Saməddin Əsədov çıxış ediblər, müasir dövrdə geologiya və dağ-mədən fəaliyyətinin ekoloji aspektləri, bu sahədə texnologiyalar, rəqəmsal həllər, innovativ yanaşmaların tətbiqi məsələlərindən danışıblar. Qeyd olunub ki, mütərəqqi beynəlxalq təcrübəyə əsaslanan əməkdaşlıq modeli yaratmaq, ətraf mühiti mənfi təsirlərdən qorumaq və daim inkişaf etmək üçün bu forum mühüm platformadır.

Daha sonra forum öz işinə başlayıb."Dağ-mədən sənayesinin beynəlxalq təchizat zəncirində rolu və Azərbaycan üçün perspektivləri", "Geologiya və dağ-mədən sənayesində yeni texnologiyaların və metodologiyaların tətbiqi", "Geoekoloji problemlər və dağ-mədən sənayesində ətraf mühitin qorunması", "Geologiya və dağ-mədən sənayesində hesabatlılıq və investisiya trendləri" mövzuları üzrə panel müzakirələri təşkil ediləcək, yerli və xarici mütəxəssislərin məruzələri dinləniləcəkdir.

Forum çərçivəsində Azərbaycanda fəaliyyət göstərən yerli və xarici dağ-mədən şirkətlərinin fəaliyyətinə dair sərgi də təşkil olunub.

Qeyd edək ki, iki gün davam edəcək forum çərçivəsində yerli və xarici mütəxəssis, o cümlədən dövlət, elm və iş adamları arasında ikitərəfli görüşlərin təşkili də nəzərdə tutulub.

# "AzerGold" QSC, Azərbaycan İnvestisiya Şirkəti və "Devngi Innovations LLP" arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

**25 oktyabr 2023-cü il tarixində "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC), "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti və Hindistanın "Devngi Innovations LLP" şirkəti arasında qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən mərasimdə memorandumu "AzerGold" QSC-nin idarə heyətinin sədri Zakir İbrahimov, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru Ülvi Mansurov və "Devngi Innovations LLP" şirkətinin səlahiyyətli nümayəndəsi Sanat Nareşkumar Vaviya imzalayıblar.

Anlaşma Memorandumunun imzalanmasında əsas məqsəd Azərbaycan-Hindistan tərəfdaşlığı əsasında ölkəmizdə sintetik (süni) almaz sənayesi, təbii almaz emalı infrastrukturunun qurulması imkanlarının öyrənilməsi, birgə şirkətin yaradılması və fəaliyyətinin təşkil edilməsidir.

Tədbirdə çıxış edən "AzerGold" QSC-nin idarə heyətinin sədri Z.İbrahimov qeyd edib ki, müasir nəqliyyat-logistika infrastrukturuna malik olan Azərbaycanın əlverişli coğrafi mövqeyi iqtisadiyyatın ən müxtəlif sahələrində beynəlxalq əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə imkan verir. Bu xüsusda dünyada sintetik almaz istehsalı sahəsində aparıcı ölkə hesab edilən Hindistanla əməkdaşlıq şəraitində yeni istehsal infrastrukturunun qurulmasının ölkə iqtisadiyyatı üçün geniş perspektivlər vəd etdiyi bildirilib.

Zakir İbrahimov təbii və sintetik almazların emalı proseslərinin oxşar olduğunu nəzərə alaraq, Azərbaycanın Kimberley Prosesinə üzv kimi qəbul edilməsi üçün aidiyyəti dövlət qurumlarına müraciət edildiyini və həmin qurumlar tərəfindən prosesə başlanıldığını bildirib. Z.İbrahimov Azərbaycanın bu Prosesə üzvlüyü təsdiqləndikdən sonra təbii almaz emalı sahəsinin qurulması istiqamətində də tərəflərin birgə səyləri ilə müvafiq addımların atılacağını qeyd edib. O əlavə edib ki, layihənin uğurlu icrası nəticəsində yeni istehsal sahələri, iş yerləri açılacaq, yeni növ məhsulların ixracı, idxalı həyata keçiriləcək. Bu, qeyri-neft sektorunun ümumi daxili məhsulda payının artmasına, ölkəmizin zərgərlik sənayesinin çoxşaxəli inkişafına müsbət təsirlərini göstərəcək.

Ekologiya və təbii sərvətlər naziri, Azərbaycan Respublikası və Hindistan Respublikası arasında Ticarət, İqtisadi, Elmi və Texnoloji Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Muxtar Babayev ölkəmizdə sintetik almaz sənayesinin, təbii almaz emalının təşkili istiqamətində qurulan əməkdaşlığın Azərbaycan və Hindistan arasında mövcud iqtisadi əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Tədbirdə həmçinin "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru Ü.Mansurov, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun idarə heyətinin sədri Valeh Ələsgərov, "Devngi Innovations LLP" şirkətinin səlahiyyətli nümayəndəsi S.N.Vaviya çıxış edərək, ilkin mərhələdə sintetik almaz istehsalı üzrə Ələt Azad İqtisadi Zonasında yaradılması nəzərdə tutulan birgə müəssisənin fəaliyyəti ilə Azərbaycan üçün ənənəvi olmayan sektorun təməlinin qoyulacağına diqqət çəkiblər.

Qeyd edək ki, Hindistanın "Devngi Innovations LLP" şirkəti sintetik almaz sənayesində geniş təcrübəyə malik olmaqla, CVD (kimyəvi buxarçökmə texnologiyası ilə yetişdirilən sintetik almazlar) almazlarının istehsalçısıdır.

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Düşmən cəbhəsini yaran birincilərdən biri

## Şəhidliyindən sonra "Azərbaycan bayrağı" ordeni alan zabit

**Bu günədək bütün şəhidlər haqqında valideynlərinin, qohum-əqrabasının, dostlarının dediyi bir sözün şahidi olmuşuq: "O, Vətəni çox sevirdi". Deməli ki, bütün şəhdilərimizi birləşdirən amal Vətən sevgisi imiş! Bu üzdən onlar dünyada ən şirin nemət olan canlarını Vətən üçün fəda edə bilirmişlər.**





Şəhidlərimizin hamısının bir amalı olub - işğal altındakı torpaqları düşmən tapdağından azad etmək! Bu əqidə onlarda Vətən yolunda ölümü ölümsüzlük, şəref, müqəddəs borc kimi qəbul etmək keyfiyyətləri formalaşdırıb. Şəhidlərimizi adi adamlardan fərqləndirən də belə yüksək hisslərə sahib olmalarıdır.

Keçdiyi ömür yolundan bəhs etmək istədiyimiz şəhid Aqil Niyaz oğlu Məlikov belə amalla yaşayan igidlərimizdən idi. Aqil düşmən əsirliyində olan torpaqlarımızı azad etmək üçün hərbçi peşəsini seçmişdi. Quba rayonunun Alpan kənd orta məktəbini bitirmiş, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. Təhsilini uğurla başa vurub zabit kimi Azərbaycan Ordusunda hərbi xidmətə başlamışdı.

Aqil könüllü şəkildə xidmətini cəbhə bölgəsində aparıb. Ağdam, Goranboy, Ağcabədi, Tərtər rayonlarındakı döyüş bölgəsində xidmətini davam etdirib. Hər dəfə atəşkəs pozulanda tabeliyindəki əsgərlərlə birlikdə düşmənə layiqli cavab verib. Adi vaxtlarda təmkinli olan zabitimiz döyüş başlananda düşmənə qarşı son dərəcə amansız olurdu. Döyüş yoldaşlarına, tabeliyindəki əsgərlərə qarşı həssaslığı ilə seçilirdi. Onlara dost, qardaş münasibəti göstərirdi. Bir yerdə xidmət etdiyi silah qardaşlarına göstərdiyi münasibət onlar tərəfindən yüksək qiymətləndirilirdi. Yaxın qohumu Fəxri Aydəmir deyir ki, tabeliyində xidmət edən əsgərlərin valideynləri Aqillə tanışlıqdan sonra övladları barədə arxayın olurdular. Bilirdilər ki, komandir övladlarının dostu, qayğıkeşidir, onların problemlərini özü həll edir, ata-analarını narahat etməməyi tapşırırdı. Belə insani keyfiyyətlərinə görə Azərbaycanın bütün bölgələrindən olan əsgər valideynləri onu evlərində qonaq edib, şəhid olanda isə rəhmət oxuyublar. Aqil dəfn olunanda hüzürə gələn tanımadıqları adamlar onun xeyirxahlığından, övladlarına göstərdiyi qayğıdan minnətdarlıqla danışırdılar.

O, 44 günlük Vətən müharibəsinədək böyük döyüş təcrübəsi qazanmışdı. Cəbhə bölgəsində xidmət edərkən dəfələrlə düşmənin mövqelərimizi ələ keçirmək istəməsinin qarşısını mərdliklə almışdı. Bu zaman özünü peşəkar zabit kimi aparmaqla yanaşı, tabeliyindəki əsgərləri qorumaq kimi keyfiyyəti ilə də fərqlənmişdi. Cəsur zabitin bu işi komandanlıq tərəfindən yüksək qiymətləndirilmişdi.

Zabit kimi qatıldığı ilk irimiqyaslı döyüş Azərbyacan tarixinə Aprel döyüşləri kimi düşən savaş olub. Həmin ay Azərbaycan Ordusunun ilk böyük qələbəsi və düşmənə dağ çəkildiyi ay kimi yaddaşlara həkk edilib. Bu döyüşlər ordumuza, xalqımıza öz gücünə olan inamı artırdı. Düşmənə isə Azərbaycan Ordusunun nə qədər güclü olduğunu göstərə bildi. İşğal olunmuş xeyli ərazilərimizi, mühüm əhəmiyyət daşıyan strateji yüksəklikləri azad etdi.

Azərbaycan Ordusunun qarşısında tab gətirməyən Ermənistan rəhbərliyi döyüşlərin dayandırılması üçün Rusiyadan xahiş-minnət etməyə məcbur oldu. Bu döyüşlər nəticəsində düşmən uzun illərdən sonra məğlubiyyətin acısını, biz isə qələbənin şirinliyini daddıq. Bu qələbənin qazanılmasında xidmətləri olan zabitlərimizdən biri də Aqil Məlikov idi.

44 günlük Vətən müharibəsi başlayanda Aqil ilk döyüş tapşırığını icra edən hərbi hissələrdən birində xidmət edirdi. Əsl Azərbaycan igidi kimi döyüşə qatılan zabitimiz tabeliyindəki əsgərlərə nümunə göstərərək öndə getdi və döyüş meydanında qəhrəmanlıq göstərib şəhid oldu. Belə ki, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşa qatıldı və elə həmin döyüşdə ali şəhidlik mərtəbəsinə yüksəldi. O, düşmən cəbhəsini ilk yaran zabitlərdən biri idi!

Aqil bacısı Aybənizlə sirdaş olub. O, Bakıda Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alarkən tez-tez bacısıgilə gələrmiş. Arzu və istəklərini, gələcək barədə düşüncələrini bacısı ilə bölüşərmiş. Aybəniz Aydəmirli deyir: "Uşaqlıqdan şeirə, rəssamlığa böyük həvəsi vardı, hətta rəssam olmaq istəyirdi. Ancaq torpaqlarımızın işğalı ilə heç cür barışa bilmirdi. Ən böyük arzusu düşməndən qisas alıb torpaqlarımızı işğaldan azad etmək idi. Buna görə də hərbçi olmağa qərar verdi. Vətən müharibəsinə qədər düşmənlə üzbəüz bir neçə dəfə döyüşmüşdü. Aprel döyüşlərinin iştirakçısı olub. Bircə təsəllimiz onun ən böyük arzusuna çatması - torpaqlarımızın düşməndən azad olunmasıdır".

Şəhidin atası Niyaz Məlikov uzun illər Quba rayonunun Alpan kəndindəki sovxozda mühəndis-elektrik kimi fəaliyyət göstərib, övladlarını halal çörəklə vətənpərvər ruhda böyüdüb. Anası Sara xanım ömrünü övladlarının tərbiyəli, ləyaqətli böyüməsinə həsr edib. Bu mərd ata-ananın bir təsəllisi var: yetişdirdikləri igid oğul torpaq uğrunda həyatdan gedib. Odur ki, "Vətən sağ olsun!" deyərək səbir və qeyrətlə dayanırlar.

Dünya psixoloqlarının qənaəti budur ki, sevdiklərini itirdikdə ən çox sarsılan ömür-gün yoldaşları olur. Şəhid Aqil Məlikovun ömür-gün yoldaşı Günel xanım bunu taleyində yaşasa da, ən böyük təsəllisi övladları Süleymanla Xədicədir. Ən böyük arzusu isə onları atalarına layiq övlad kimi böyütməkdir. Azərbaycan qadınının şəhid adını uca tutub, ləyaqətlə yaşaması isə ayrı bir mövzudur. Onlarda bu qədər səbir, dözümün olması Allahın kəramətidir. Çünki sevdiklərinin Allahın hüzurunda olduqlarını bilirlər. Necə ki, müqəddəs kitabımızda şəhidlər barədə deyilir: "Onlara öldü deməyin, onlar diridirlər". Vətən, millət, din uğrunda şəhid olanların belə mükafatlandırılması isə Uca Yaradanın lütfüdür.

Dövlət şəhid zabitimizin Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə Aqil Məlikov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. Dövlət başçısının 25 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalına layiq görülüb. İşğal altında olan torpaqların azad olunması zamanı döyüş tapşırığını yerinə yetirərkən şəxsi mərdlik və igidliyinə görə Prezident tərəfindən 24 iyun 2021-ci il tarixli sərəncamla ona "İgidliyə görə" medalı verilib.

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatları zamanı şəhid olmuş Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında dövlət başçısının 5 noyabr 2021-ci il tarixli sərəncamı ilə isə igid zabitimiz ölümündən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif olunub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bir ailədən beş döyüşçü - 2 şəhid, 3 qazi…

**"Birinci Qarabağ müharibəsində savaşanda Faiqin 18 yaşı var idi. O zaman Azərbaycan Milli Ordusunun sıralarında əsgər idi. Özündən böyük qardaşı Həsən Qorxmaz kimi tanınan Həsənqulu Qasımov Birinci Qarabağ müharibəsində şəhid olduqdan sonra onun qisasını almaq üçün hərbçi olmağa qərar verdi. Vətən müharibəsində Həsənqulunun qisasını almağı bacardı, lakin özü də şəhadətə yüksəldi…"**








Bunu AZƏRTAC-a müsahibəsində Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Faiq Qasımovun bacısı Ruqiyyə Qasımova deyib.

O, fikirlərinə belə davam edib: "Əslən Qubadlı rayonundanıq. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlananda qardaşlarım da digər Vətən övladları kimi döyüşə atıldılar. Faiq 1991-ci ildə döyüşmək istəsə də, yaşı çatmadığından icazə verilmədi. Yalnız 1992-ci ildə 18 yaşı tamam olandan sonra Azərbaycan Ordusunun əsgəri kimi ərazi bütövlüyümüz uğrunda savaşa qoşuldu. O zaman digər qardaşım leytenant Həsənqulu Qasımov da rota komandiri kimi müharibədə iştirak edirdi. Ona şücaətinə görə "Qorxmaz" ləqəbi verilmişdi, Həsən Qorxmaz kimi tanınırdı. Həsənqulu Qubadlıda şəhid olandan sonra Faiq onun qisasını alacağını əhd etmişdi. Buna görə də hərbçi olmağı qərara aldı. Faiq Vətən müharibəsinə qədər 30 ilə yaxın müddət idi Azərbaycan Ordusunda xidmət edirdi. Şəhid general-mayor Polad Həşimovla birlikdə hərbi məktəbi bitirənlərdəndir. O, 2016-cı il Aprel döyüşlərində öz dəstəsi ilə Ohanyan səddini ilk dəfə yarıb keçənlərdən idi. Tovuz döyüşlərində Polad Həşimovun şəhid olması Faiqi çox sarsıtmışdı. Alacağı qisasın üstünə sanki biri də əlavə olunmuşdu. Vətən müharibəsi başlananda döyüşlərə Füzuli rayonu istiqamətindən qoşulan Faiq sentyabrın 27-dən 28-nə keçən gecə elə həmin rayon uğrunda aparılan hərbi əməliyyatlarda şəhid oldu. Faiq Həsənqulunun yanına üzüağ getdi. Onun qisasını ala bildi, lakin çox təəssüf ki, Qələbəni, Qubadlının azad olduğunu görmək ona nəsib olmadı. Faiq özü başladığı işi özü də bitirdi…

Digər qardaşım Əhliyyət Qasımov Birinci Qarabağ müharibəsi qazisi idi. Əhliyyət polis idi, 1994-cü ildə Horadiz əməliyyatı zamanı ağır yaralanmışdı, hətta böyrəklərindən birini itirmişdi. Ondan sonra sağlamlığı bərpa olmadı, 1998-ci ildə dünyasını dəyişdi. Çox təəssüf edirəm ki, hər üç qardaşım uğrunda canlarını, sağlamlıqlarını verdikləri torpaqların düşmən tapdağından xilas olunduğunu görə bilmədilər.

Şəhidin qardaşı, Birinci Qarabağ qazisi Gəray Qasımov ailədə altı qardaşdan beşinin ərazi bütövlüyümüz uğrunda savaşdığını qeyd edib: "Atamız 45 yaşında dünyasını dəyişdi, qardaşlardan böyüyü mən idim. Onları özüm böyütdüm, özüm də əllərimlə torpağa verdim. Birinci Qarabağ müharibəsi savaşında iştirak etmişəm. Həlledici savaşda döyüşmək nəsib olmasa da, Faiq hər birimizin əvəzinə mübarizə apardı. Mən fəxr edirəm ki, Qubadlının Qayalı kəndində bir ailənin beş döyüşçü üzvündən biriyəm. Elə qardaşları itirmək ağır olsa da, azad edilmiş ərazilərimizdə üçrəngli bayrağımızın dalğalanması, həmin torpaqların sakinlərinin yavaş-yavaş yurd-yuvalarına dönməsi ilə təsəlli tapıram. Doğma Qubadlımıza, Qayalı kəndinə dönəndə qardaşlarımın ruhu dinclik tapacaq".

Qeyd edək ki, polkovnik-leytenant Faiq Qasımov ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

# 27 oktyabr ZƏFƏR gündəliyi 2020-ci il

Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 26-sı gün ərzində və 27-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutur.

Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulur.

Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilir. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da var.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.



❖ ❖ ❖

Ermənistan yalan məlumat yayaraq sərhəd zastavasının vurulduğunu iddia edir. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, Ermənistanın guya Azərbaycana məxsus PUA və raket-artilleriya sistemlərindən istifadə etməklə Ermənistan ərazisinin atəşə tutulması barədə yaydığı məlumat yalandır və təxribat xarakteri daşıyır:

"Bildiririk ki, Azərbaycan yeni humanitar atəşkəs rejiminə tam riayət edir. Əksinə, oktyabrın 27-də saat 09:30-dan başlayaraq indiyədək Ermənistan tərəfi Zəngilan rayonunun Ağbənd kəndi istiqamətində ərazilərimizi minaatanlardan intensiv atəşə tutur".



❖ ❖ ❖

Yeni humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun kəndlərini, eləcə də Goranboy və Bərdə rayonlarının ərazilərini raket atəşinə tutur.

Saat 16:00 radələrində Ermənistan silahlı qüvvələri Bərdə rayonu ərazisini "Smerç" yaylım atəşli reaktiv sistemləri ilə atəşə tutur. Ermənistanın siyasi-hərbi rəhbərliyinin bu



müharibə cinayəti nəticəsində mülki şəxslər, o cümlədən azyaşlı uşaq həyatını itirir və aralarında uşaqlar və qadınlar olmaqla xeyli sayda mülki şəxs xəsarət alır.

Azərbaycan Ordusu bütün cəbhəboyu humanitar atəşkəs rejiminə əməl edir.

❖ ❖ ❖

Bərdə ərazisinin "Smerç" yaylım atəşli reaktiv sistemləri ilə atəşə tutulması, insan təlefatı hər kəsi kədərləndirir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında paylaşım edərək yazır:

"Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb.

Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq.

Uca Tanrı Vətənimizi qorusun!"

❖ ❖ ❖

Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti birgə bəyanat yayır. Qeyd edilir ki, yeni humanitar atəşkəs rejiminə riayət edən Azərbaycan bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görür.

Bundan istifadə edən Ermənistan isə cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməklə növbəti təxribatlarına zəmin yaradır:

"Ermənistan rəhbərliyi artıq dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri münaqişə zonası deyil və Azərbaycanın tamhüquqlu suveren ərazilərini müəyyən edən beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir.

Bu baxımdan Azərbaycan öz ərazilərinə təhdid təşkil edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmək hüququna malikdir".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 yanvar (Cümə günü) tarixli 90-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 14 rəbiülaxir sənə 1337.
17 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24,
başqa şəhərlərə 35 rubledir.
Bir aylığı Bakıda 12,
başqa şəhərlərdə 19 rubledir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Abbasəli Məhəmmədov kamaliyəs və təhəssürlə [böyük bir matəm və kədərlə] öz sevgili qardaşı olan Kərbəlayi Məhəmmədəli Hacı Məhəmməd oğlu Məhəmmədovun ölüm xəbərini qövməqrəba və dostaşnalarına xəbər verir. Təşyiyi-cənazə [cənazənin yola salınması] bu gün sübh saat 10-da öz evindən (Tverskaya, nömrə 35) Cümə məscidinə aparılacaqdır.

*2650*

## AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN MƏŞİXƏTİ-İSLAMİYYƏSİ TƏRƏFİNDƏN AZƏRBAYCAN MÜSƏLMANLARINA XİTABƏN VƏZ [MOİZƏ] VƏ NƏSİHƏTDİR. AXUNDLARDAN, ƏFƏNDİLƏRDƏN, MOLLALARDAN VƏ İMAMLARDAN VƏ ƏRBABİ-KAMALDAN [KAMAL SAHİBLƏRİNDƏN] RİCA OLUNUR Kİ, BU VƏZ VƏ NƏSİHƏTİ VAXTBAVAXT CAMAATA OXUYUB, ONLARA ÖZ VƏZİFEYİ-DİNİYYƏLƏRİNİ QANDIRSINLAR.

Allah-taala buyurur: "Və əiddü ləhüm məstəta'tüm minqüvvətin və minribatil-xeyli türhibunə bihi əduvvallahi və əduvvəküm..." Əl-ayə [ayə]. Yəni din düşmənlərini dəf etmək üçün bacardığınız miqdarda və lazım gələn qədərdə hər növ müharibə qüvvələrini və dava üçün bəslənmiş atları amadə [hazır] edin ki, ta bunuyla Allahın düşmənlərini və öz düşmənlərinizi qorxudasınız, dəxi sizlərə təəddi [zülüm] etmək xəyalına düşməyələr.

Və yenə də buyurur: "Və in cənəhu lissəlmi fəcnəh ləha vətəvəkkəl əlallahi innəhu hüvə-ssəmiul-alim." Yəni, ey peyğəmbər, əgər səninlə qital [savaş] edənlər sülh və saziş etməyə meyl göstərsələr, sən dəxi sülh və sazişə meyl edib onlarla müsalihə [barışıq] eylə və bu surətlə əsla nigaran olmayıb və iztirab etməyib, Allaha təvəkkül eylə ki, Allah-taala sözlərinizi eşidən və qəlblərə alimdir [qəlbləri biləndir].

İştə, müsəlmanlar difa [müdafiə] etməyə tədarük görməli və hər halda düşmənlərlə sülh etməyə dəxi razı olmalıdırlar.

Arxadaşlar! Sizə məlumdur ki, yer üzündə nə qədər millətlər varsa, hamıları özlərini himayət etməkdə növbənöv tədbirlər və çarələr arayıb, düşmənlərdən özlərini müdafiə üçün hazır və amadə durublar. İslam əhli isə bu qədər kəsrətlə [çoxluqla], pərişan bir hal ilə yaşamaqdan, zalımlar tərəfindən hər növ rəzalətə düçar və əhli-əyalları [ailəsi] əsir və nəhayət rüsvalıqla paymal oldular.

Qardaşlar! Allah-taalaya həmdlər olsun ki, bizlərə təfəzzülü [lütfü] və mərhəməti şamil olub, Azərbaycan Hökuməti bərpa və təsis olundu və iş başına milləti və dini sevən zatlar keçib, Azərbaycan dairəsində olan camaatı zalımlardan himayət edir. Lakin düşünmək gərəkdir ki, hökumət camaatın ruhudur, necə ki məriz [xəstə] olan bədəndə ruh fəaliyyət edəmməz, əxlaqı pozğun olan camaatı dəxi hökumət idarə etməyə qüdrəti olmaz. Pəs [deməli], biz camaata əlzəmdir ki, hökumətin əmrlərini icra etməkdə kütahlıq [qüsur] və müsamihə [başısoyuqluq] etməyək və onu qüvvətli və şövkətli bir halda saxlamaqda var qüvvəmizi fəaliyyətə gətirib, sədaqət və ixlas [səmimiyyət] göstərək.

Qardaşlar! İnsaf edin. Müntəzəm əsgəri olmayan hökumət, camaatı nə növlə himayət edə bilər? Siz haçanadək qəflət uyqusunda qalıb ibrət götürməyəcəksiniz? Məgər bir neçə ay bundan əqdəm [qabaq] hadis olan [baş verən] qəziyyələri eşitmədinizmi və görmədinizmi? Siz anaların və bacıların və xırdaca uşaqların paymal olmaqlarını nə tezcə yaddan çıxartdınız? Haydi, qardaşlar, əsgər getməklə hökumətə kömək edin! Ta ki, dünyada sərbülənd və sərəfraz [başıuca, başıyuxarı] və axirətdə əcr və savaba nail olub [əvəzini alıb və savab qazanıb] nicat tapasınız.

Qardaşlar! Peyğəmbər əleyhissəlam zamanında cannisarlıq edən [canını fəda edən] müsəlmanları və səhabeyi-kiramı [şərəfli, uca səhabələri] bir yada gətirin və onlara peyrəv olub [onların ardınca gedib], islam hökumətini parlaq və təntənəli hal ilə saxlamaqda hümmət edin. "Qurani-kərim"də Allah yolunda ciddü-cəhd edib candan və maldan güzəşt edənlərə vədə verilən kəramətlərə [lütfkarlıqlara, nemətlərə] inanıb, sədaqət və iradətlə [ürəkdən] din yolunda xidmət edin.

Yada gətirin Allah-taalanın kəlamını ki buyurur: "İnnəllahəştəra min-əl-mümininə ənfüsəhum və əmvaləhum biənnə ləhümül-cənnətə..." Əl-ayə. Yəni Allah-taala möminlərdən canlarını və mallarını behişt müqabilində alıbdır, əvəzində onlara behişt kəramət buyuracaqdır.

Pəs, Allah-taala yolunda candan və maldan keçmək ibadətlərin əfzəli [ən fəzilətlisi] və böyük şan və şərafət və səadətdir və bu yolda məqtul olan [öldürülən] şəhid mənzələsindədir [dərəcəsindədir]. Şəhid isə behiştin ən əla dərəcəsində qərar tutacaqdır. Əfsuslar olsun ki, biz bu vədələri səhl [asan] sanıb, din yolunda hümmət və irz və namus saxlamaqda qeyrət etməyib, millətlər arasında xar və zəlil olduq. Halbuki hədisi-şərifdə buyurulur: "Əl-islamu ya'lu və laya'lu əleyh". Yəni, əlbəttə, İslam əhli hamıdan uca və izzətli olmalıdırlar.

Qardaşlar! Oyanınınız. Qəflət bəsdir, uyqu kifayətdir. Nə vaxta kimi kəsalət və bətalətlə [süstlük və tənbəlliklə] yaşayacaqsınız? Nə vaxta kimi nifaq və ədavəti özünüzə şüar edib, ittihad və üxüvvətin [birlik və qardaşlığın] və din yolunda mərdanəlik etməyin lazım olduğunu düşünməyəcəksiniz?

Müsəlmanlığın nişanələrindən birisi də dini və milləti sevməkdir. Əlbəttə, dini və milləti və irz və namusu sevən cavanlar əsgərliyə getməkdən qaçmasınlar. Cavanlarımız necə rəva görərlər ki, gözlərinin bərabərində əhli-əyalları zalımlar əlində əsir düşüb vəsfə və bəyana gəlməyən rüsvalığa düçar olsunlar!

Müsəlmanlar! Dininizi, millətinizi və irznamusunuzu saxlamaqda hümmət və qeyrət edin. Biçarə camaatı himayət etmək üçün əsgərliyə getməklə hökumətə kömək olub ixlas göstərin!

Qardaşlar! Ayılın və ətraf aləmə baxıb ibrət edin. Haçanadək ruhsuz qəlib olub vəz və nəsihətlər və rəva görülməyən faciələr sizlərə təsir etməyəcəkdir, gözləriniz baxacaq, qəlbləriniz oyanmayacaqdır?!

Ey dövlətlilər, ey tacirlər! Sizlər haçanadək mal cəm etmək qeydinə qalıb, dini və milləti yaddan çıxaracaqsınız? Allahın əzabından qorxun. Malınızdan Allahın haqqını verin. Yada salın ki, neçə ay bundan əqdəm düşmənləriniz mallarınıza malik olub sizləri cəlayi-vətən [vətəndən didərgin] olmağa məcbur etdilər. Əgər böylə qəflətlə yaşayıb hökumətə kömək etməyəsiniz, yenə də o günlərin məsəlinə düçar olarsınız. Məgər insan nə vaxta kimi səhv edər, məgər insan nə vaxta kimi öz qəbahətini başa düşməz? İslam hökumətinin təhtihimayəsində [himayəsi altında] yaşamağın nə dərəcədə böyük nemət və səadət olmağını düşünürsünüzmü? Əgər bu hökumətə, əliyazübillah [Allah eləməsin], zə'f [zəiflik] və xələl yetişsə, sizlər kimlərə pənah aparacaqsınız? Bilirmisiniz o surətdə halınız necə keçər və necə fəna və pərişan olar?

Qardaşlar! Mültəfit olun [diqqət yetirin, qulaq asın], hökuməti fəqət [sadəcə] arzu və dua ilə saxlamaq olmaz. Hökumətə əsgər gərəkdir. Əsgəri nizam üzrə saxlamaq üçün para lazımdır. Bir insaf edin. Gürcü və erməni qonşularımızın millət yolunda hümmət və qeyrətlərinə baxın. Ta ki, islam hökumətinin sizlərə nə dərəcədə faidəmənd [faydalı] olduğunu düşünüb öz vəzifənizi əmələ gətirəsiniz.

Qardaşlar! Allah-taala sizlərə əmr edir ki, rəhmli, mürüvvətli, insaflı və ədalətli olasınız və heç kəsin malına və canına və irz və namusuna təəddi etməyib [toxunmayıb], bila-fərqi-millətü məzhəb [millət və məzhəb fərqi qoymadan] tamam camaatla insaniyyət hüququnu müraat edib [gözləyib, riayət edib], hamılarına mehriban və xeyirxah olasınız. Lakin kim ki, sizin dininizə, millətinizə və ya irz və namusunuza təəddi edə, onunla da difa etmək [özünü qorumaq] sizə fərz və lazım gəlir. Yoxsa olsun ki, zalımlar sizlərə təəddi etməklə məhv və nabud [yox] olasınız.

Pəs, əsgərliyə şövq və rəğbətlə gedin və nizamlı qoşunlar tədarük edib Allah-taalaya və peyğəmbərə və hökumətə ixlas və sədaqət göstərin. Ta ki, lazım olan vaxtda milləti və biçarələri himayət etməyə iqtidarınız olsun. Yoxsa, nə qədər çox da olsanız, başqaların[ın] nizamlı qoşunları sizləri murü mələx [qarışqa və çəyirtkə] kimi pərakəndə qılıb, malü mənalınıza [maldövlətinizə] və əhli-əyalınıza malik və sizləri xar və sərnigun [başıaşağı] edərlər.

Ey atalar və ey analar! Peyğəmbər əleyhissəlamın zamanını yada gətirib, övladınızı onun dini yolunda islam hökumətinə əsgər verin. Yoxsa, qiyamətdə Allah-taala indində [hüzurunda] cavabdəhəndə [cavabdeh] və peyğəmbər əley-hissəlam hüzurunda şərməndə [üzüqara] olub əzabi-əlimə [çox əziyyət verən bir əzaba] giriftar olarsınız.

Qardaşlar! Əgər səmimi-qəlblə islam hökumətinə məhəbbət və iradət göstərsəniz, əlbəttə, Allah-taala sizə kömək olar. Necə ki buyurur: "İn tənsuru-llahə yənsurküm və yusəbbit əqdaməküm." Yəni siz Allah-taalanın dininə yardım etsəniz, Allah-taala bu barədə sizə imdad edib, qədəmlərinizi möhkəm və sabit qılar.

Allah-taala Azərbaycan Hökumətinə ixlas və iradət göstərənlərə əcri-cəzil kəramət buyursun [bol mükafat, əvəz versin]. Amin!

*Məşixət [Şeyxülislamlıq] İdarəsinin sədri:*
*Şeyxülislam Axund Ağa Ağaəlizadə*
*Müftü : Mustafa əfəndi Əfəndizadə*
*Üzvi-məşixət: Ələddin əfəndi Sübhanquluzadə*
*Üzvi-idarə: Axundzadə*

## TÜRKİYƏ MƏĞLUBMUDUR?

Mütarikə əqd olunmuş [atəşkəs imzalanmış], Türkiyə aman istəyəcək bir dərəcəyə gəlmiş. Müttəfiqlər İstanbulda otururlar.

Deməк, Türkiyə məğlub olmuş.

Zahiri düşünülərsə böylədir. Məğlubluq vaqedir [baş vermişdir].

Bu mülahizədən baxılarsa, çox adamlar Türkiyənin məğlub olduğuna hökm edərlər. Həm sözün camaat arasında mötad olan [adət edilmiş, öyrəşilmiş] mənası ilə də iş böylədir.

Türkiyə Müttəfiq dövlətlərə qarşı məğlubdur. Mənsub olduğu müharib [savaşan] dövlətlər zümrəsi sındı, o da onlarla bərabər basıldı, məğlub oldu.

Bu xüsusda iki söz olammaz. Böylə zahiri bir mühakimənin təsiri çox böyükdür. Yalnız zahirbin [zahiri görən] adamlar deyil, bugünkü halda Türkiyənin Maarif naziri məqamında bulunan filosof Rza Tofiq bəy cənabları dəxi, hökumətə vaqe olan bir sorğuya cavab verərkən "Nə yapalım, onlar qalibdir, biz məğlub; hökm qalibindir" – demişdir.

Maarif nazirinin böylə filosofanə bir rizada bulunması, məbuslardan bəzinin ötəri tənqidatına məruz qalmışsa da, ən şiddətli taziyanəni [qamçını] İstanbul qadınlarından yemişdir.

Oxucular yəqin hiss edirlər ki, Kadıköy xanımlarının qəzetələr vasitəsilə nəşr eyləmiş olduqları protestona-mədən bəhs ediriz. Qəzetəni diqqətlə oxuyanların ömürləri uzunu unutmayacaqları lazım gələn bu fəqərəni [hadisəni], hər ehtimala qarşı, bir daha buraya nəql ediriz. Bəlkə oxumamış olanlar vardır.

İstanbul Kadıköy xanımları məzkur [deyilən] protestolarında deyirlər ki:

"Tarixi-cahana [dünya tarixinə] Çanaqqala müdafiəsi kimi bir şahəsər ehda [hədiyyə] edən qəhrəmanların ana, zövcə, həmşirə və qızları olan bizlər, Çanaqqalanın müqəddəs torpaqları altında yatan şəhidlərimizin ruhi-müəzzəzləri [əziz ruhları] qarşısında türk qadınlığına və aləmi-mədəniyyətə xitab ediriz: Limanımızda görülən ahənin [dəmir] qalaları məğlub edən və qaraya çıxarılan yarım milyon əsgərini dənizə tökən millətimizi məğlub ədd [hesab] etməyiriz. Dün Məclisi-Məbusan kürsüsündən hökumət naminə söz söyləyən Maarif nazirinin "məğlubuz, istədiklərini yaparlar" sözlərini şiddətlə protesto ediriz. Peçələrimizi [niqablarımız] yırtan və sonra hürriyyəti-cahan [dünyanın azadlığı] naminə deyə hərb etdiklərini elan edənlərə təəssüf ediriz. Hüquqi-milliyyə və ismətimizi mühafizə edəcək hökumət və erkək yoxsa, biz varız."

Kadıköy türk xanımlarının bu protestonaməsi müşkül zamanlarda gücü ancaq dilinə çatanların qüvvət və əhəmiyyətdən ari [uzaq] sözü kimi görüləmməz.

Bu sətirlərdə böyük bir qüvvət, bir iman qüvvəti görülür. Çanaqqala müdafiəsi kimi "şahəsər"in istişhadı [şahidliyi] ilə qəhrəman millətlərini məğlub ədd [hesab] etməyən analar, zövcələr və bacıların yerdən göyə qədər haqları vardır.

Çanaqqala əsrimizin ağılları heyran buraxan möcüznüma [möcüzəli] sənəti, texnikası, böyük mənzilli topları, bilməm hangi cəhənnəmasa [cəhənnəmi andıran] ixtiraları vasitəsilə müdafiə edilməmişdi. Burası vətənini xilas etmək, hürriyyətini saxlamaq, paytaxtını qorumaq niyyətilə canını verən qəhrəman bir millətin köksü ilə, ölümü istehqarı [ölümə meydan oxuması, ölümü saymaması] ilə müdafiə edilmişdir. Bu müdafiə yüz minlərlə nüfusa mal olmuş [yüz minlərlə insan bahasına başa gəlmiş], Türkiyə əməlpərvər [idealist] gəncliyi, türk millətinin çiçəkləri burada tələf olmuş, canını cananına vermişdir.

Müharibənin mənfur, nəngin [bədnam] səhifələri arasında öylə şanlı parçaları vardır ki, qarşısında təzim üçün əyilməlidir.

Məsələn, kiçik Belçikanın o ölür, fəqət dönmək bilməz əzmi, Serbiyanın hər növ məhrumiyyətlərə, məhviyyətlərə qarşı ta dəmivapəsinə [son nəfəsinə] qədər duruşu Hərbi-ümuminin təqdirlərlə yad edəcək hadisələrdəndir.

Çanaqqala hadiseyi-kübrası [böyük hadisəsi] dəxi tarixin sitayişlərlə yad edəcəyi şanlı bir cilveyi-hərb [müharibənin şanlı bir təzahürü], şahkar [şahəsər; nadir] bir müdafiədir.

Çanaqqaladakı türklük Verdendəki fransızlıq kimi yalnız maddətən deyil, mənən də qalib idi. Türklər Çanaqqala müdafiəsini təfaxürlərlə [iftixarla] yad edərkən "Bu müdafiə ilə biz yalnız İstanbulu deyil, İstanbuldan daha qiymətdar bir şeyi qazandıq" - deyə tərif edirdilər. O şey nədir?

Etimadi-nəfs!

Çanaqqala müdafiəsində müzəffər çıxan türklər, bir az əvvəl Balkan müharibəsində itirdikləri etimadi-nəfslərini qazanmışdılar. Yaşaya biləcəyiz - deyə inanmışdılar.

Etimadi-nəfsin türkcəsi "özünə güvənmək"dir.

Özünə güvənən türk, Çanaqqala müdafiəsində yalnız maddətən deyil, mənən də qalib idi. Bunu artıq nə məndən, nə də İstanbul qəzetələrindən deyil, türklərin böyük dostu, fransız ədibi-möhtərəmi Pyer Loti həzrətlərindən öyrənəlim.

Fəqət Pyer Lotinin mütarikədən sonra Türkiyə haqqında yazmış olduğu bir məqaləsinin mövzumuza aid olan bəzi parçalarını buraya nəql etməkdən əvvəl, bu böyük mühərririn [yazıçının] kəndisi haqqında bir qaç sətir yazmadan keçəmməyəcəyəm.

Türkiyə müharibəyə girər-girməz, Pyer Lotinin türklərdən üz çevirdiyini, bir bəhriyyə [dənizçi] zabiti sifətilə İstanbula qarşı müharib [hərbçi] olaraq getdiyini və türk dostluğundan hüzurinasda [xalqın qarşısında] tövbə eylədiyini rusca qəzetələr nəşr eyləmişlərdi.

Şərq aşiqi səmimi bir Qərb mühərririnin nə olduğunu təsəvvür edəmməyən adamlar bittəb' [təbii olaraq] bu xəbərə inanmışlardı. Bilxassə ki, müharibənin ilk günlərində vətən qeyrəti və millət təəssübünün məntiqinə uyan hər bir xəbərə inanmamaq əldə deyildi. Dünya "internasionalı" uçduqdan, sosi-alistlərin belə qarşı-qarşıya gəlib də vətən və millət naminə biri-birinə qılınc çəkdikdən sonra bir fransız ədibinin təğyiri-məslək etməsində [əqidəsini dəyişdirməsində] nə bə's [qüsur; zərər] ola bilərdi?

Fəqət həqiqət böylə deyilmiş. Pyer Lotinin türklərə qarşı olan məhəbbətini "müəzzəz [əziz] və şimdi hər zamandan ziyadə şayani-pərəstiş [pərəstişə layiq]" Fransası ilə Türkiyə arasındakı hali-hərb belə dəyişməmiş, dəyişəmməmişdir.

Pyer Lotinin türklər haqqındakı bu məqaləsini ayrıca dərc edəcəyiz. Burada isə Çanaqqalada türklərin mənən dəxi qələbə çaldıqlarını isbat edən bir yerini nəql ediriz.

Fransa mühərriri:

"Deyirəm ki və bütün müddəti-həyatımda [həyatım boyu] dedim ki, türklər Şərqin ən namuskar, ən salim [sağlam] ünsürünü, bilxassə ən səbur [səbirli] və ən mütəhəmmil [dözümlü] olanını təşkil edirlər" - deyir və əlavə edir ki: "Bu iddia həqiqətə naməhrəm olanları diksindirə bilər, inanmaq istəməzlər."

Fəqət bu kimilərin ən inadçı olanlarını belə iqna [qane] etmək üçün müharibəyə gedərkən, kəndisini türklər haqqındakı fikirlərindən dolayı "təhlükəli bir xəyalçı" təsəvvür edən bir çox general, zabit və nəfər [əsgər] dostlarından aldığı bir kitablıq minlərcə məktubdan bir parasını nəşr edir. Əzcümlə [o cümlədən] kəndisinə oradan (Çanaqqaladan) yazırlar ki: "Ox, bunları, bu nəcib və qəhrəman adamları siz nə qədər eyi tanıyırmışsınız. Bu adamları ki, əsirlərə, məcruhlara [yaralılara] qarşı o qədər müşfiqdirlər və onları birər qardaşa baxırlarmış kimi tədavi [müalicə] edirlər. Bizə etimad ediniz, vətənə dönüncə sizin hissiyyat və etiqadatınıza biz də bizimkilərini komalarla əlavə edəcəyiz!".

* * *

Kadıköy xanımlarının filosof Rza Tofiq bəy əfəndiyə eyi bir fəlsəfeyi-siyasət dərsi verdiklərində nə dərəcədə haqlı olub-olmadıqlarını daha aydın bir surətdə həll edə bilmək üçün Türkiyənin nə üçün hərb eylədiyini bilməlidir.

Həqiqətən Türkiyə nə üçün hərb edirdi? Üzərinə mütaliə [fikir] yürütdüyümüz mövzu ilə bu sualın böyük bir əlaqəsi vardır. Çünki Türkiyənin hərbdən gözlədiyi məqsədi hasil olmuşsa qalib, olmamışsa məğlubdur.

Hərbi-ümumini doğuran amillərdən ən müəssir [təsirli] olanı məşhur Şərq məsələsidir. Bu məsələdən dolayı qarşı-qarşıya gələn iki müharib [savaşan] zümrə arasında Türkiyə bitərəf qala bilməyəcəkdi. Bir tərəfə qoşulmalıydı. Türkiyə Almaniya zümrəsinə qoşuldu. Fəqət bununla o, Fransa ilə İngiltərəyə deyil, Rusiya çarlığına elani-hərb etdi. Rusiya İstanbulu istəyirdi. Rusiya Türkiyəyə qəsd etmişdi.

Pyer Loti "Türklər bizə degil, ruslara elani-hərb etdilər" - deyir və "Onların yerində kim başqa tərzdə hərəkət edə bilərdi?" - deyə kəndilərinə haqq verir.

Türklərin bu müharibədəki məqsədləri rusların qalib gəlməməsi idi.

"Xəstə adam", malına göz dikmiş və bunun üçün canına qıymış "sağlam" qonşusu ilə son dəfə olaraq pəncələşməyə qərar vermişdi.

Türkiyə, əsrimizdə icra olunan müharibə nöqteyi-nəzərindən müvəffəqiyyətlə çəkişməyə müsaid bir məmləkət deyil ikən, daha Trablusqərb, Balkan hərbləri, Yəmən, Havran, Arnavud ixtilalları ilə siyasi inqilablar keçirmiş, yorğun və bitab düşmüş ikən hərbə girdi.

Bu qələbə deyilmi ki, tam mənası ilə sağlam və 15 milyonluqla əsgər çıxarmış Rusiya kimi əzim [böyük] bir dövlətin davam gətirəmmədiyi bu badireyi-üzmada [böyük müsibətdə] xəstə təsəvvür olunan Türkiyə daha ziyadə qabiliyyəti-həyat [həyatda qalmaq bacarığı] göstərdi?...

Türkiyənin bu nöqteyi-nəzərdən məqsədi hasil oldu. Canına qıymış, İstanbula göz dikmiş Rusiya bu gün yoxdur. Demokratizm və sosializm fikirləri ilə pürcuş [cuşa gəlmiş] bir qazan kimi qaynar bir qitə üzərində bir çox hökumətlər, istiqlallarını təminə çalışan xırda millətlər vardır. Əsl rus milləti isə Sazonov-Milyukov məsləkini təqiblə Ayasofiyanın başına xaç taxmaq qəsdində deyil, kəndisinə təhəmmül olunar [qatlaşmaq mümkün olan] bir insan həyatı təmin eyləməklə məşğuldur.

Bu, Türkiyənin qələbəsidir. Məclisi-Məbusan rəisi Xəlil bəy bu qələbəyə aləmşümul bir məna vermişdi. O, Çanaqqala müdafiə edilməsə, bu günün hakimi Vilson deyil, İkinci Nikolay olacaqdı - deyir. Bəlkə bir dərəcəyə qədər də haqq söyləyir.

Tələt paşa kabinəsinin ən böyük xətası hərbə girməsində deyil, hərbdən çıxmamasındadır. Türkiyəni təhdid edən bir Rusiya ortadan çıxdıqdan sonra, türklər üçün artıq heç bir məqsədi-hərb qalmamışdı.

Məğlub olan Türkiyə Brest-Litovskdan sonrakı Türkiyədir.

* * *

Ərəbistanın istiqlalını, Ermənistanın muxtariyyət alacağını, Suriyanın ayrıldığını, xülasə Osmanlı imperatorluğunun parçalandığını, Türkiyənin olsa-olsa türklərlə məskun Anadoluya inhisar edəcəyi [sığacağı; həbs olacağı] mühəqqəq [qəti] olduğunu nəzərə alaraq, nasıl olur da Türkiyə qalib olur, deyə heyrət edə bilərlər.

Osmanlı Məclisi-Məbusanında Rza Tofiqin mövzuyi-bəhsimiz olan nitqi irad olunan [söylənən] iclasda məbuslardan birisi "Bu millət ölməz, çünki islamiyyətə istinad edir və müsəlmanlıq və osmanlılıq layəmutdur [ölümsüzdür]" - demişdir.

Fəqət mən cəsarət edib demək istəyirəm ki, bu müharibədə məğlub olan bir şey varsa, o da müsəlmanlıq və osmanlılıqdır.

Türklər elani-cihad etdilər, bütün müsəlmanları kəndiləri ilə bərabər hərb etməyə çağırdılar. Fəqət fitvayi-cihad, [cihad fitvası] ərəb üsyanı ilə Hicaz, Suriya və İraq istiqlallarından başqa bir nəticə vermədi.

Osmanlılıq fikri dəxi iflas etdi. Türklər kəndilərindən başqa kəndilərinə sadiq bir ünsür bulammadılar. Hər millət kəndi kökü üzərində bitmək istədi. Bununla mübarizə edərkən, türklər erməni müqatilatı [toqquşmaları] kimi maddi və mənəvi böyük zərərlərə, həqiqi məğlubiyyətlərə uğradılar.

Rus imperializmi kimi türk mərkəziyyətçiliyi də aləmşümul müharibənin təzyiqinə dayanammadı. Avstriya xəlitəsi kimi Osmanlı xəşili də qaynayıb qarışmadı.

Süleyman Qanuni zamanındakı "müsəlmanlıq iksiri" iqtizayizamana [zamanın ehtiyaclarına] pək yabançı bir tədbir olaraq "milliyyət kimyası" qarşısında kargər olammadı [işə yaramadı].

Osmanlı imperatorluğu ilə müsəlman xəlifəliyi məğlub oldu.

Bu məna ilə filosof Rza Tofiq bəyin bütün mənası ilə "məğlub olduq" deməyə haqqı vardır.

Fəqət bununla bərabər, Türkiyədə əməlpərvər [idealist] bir gənclik var. Bu gənclik xalqa doğru getmək yolu ilə azim [əzimli], demokrat və milliyyətpərvər bir qafilədir. Əməlpərvərlər qafiləsi! Bu qafilə Anadolunun dərdlərini çəkir, türkün qəlbi [həqiqi, ürəkdən gələn] ehtiyaclarını dərk edir. Çanaqqala xariqələrini göstərən bir millətin müasir bir həyati-milliyyə yoluna düşdükdən sonra qabil deyil, dünya üzündən silinməyəcəyinə, kəndi hürriyyətilə, düha və ürfanı ilə xarab olmuş mədəniyyət dünyasının təmir ediləcək bağında rəngin və rəna [gözəl] bir bağça yapacağına əmindir.

Bu əmniyyəti, bu imanı ilə o çalışır. Əvvəla kəndisinə, sonra da dünya demokratiyasının əzminə, məzlum bəşəriyyətin adil vicdanına inanır. "Cəmiyyəti-əqvam" [Millətlər Cəmiyyəti] daxilində türk millətinin də möhtərəm və azad bir mövqe tutacağı üçün çalışır, çırpışır. Bu səylər məşkur [təşəkkürə layiq] olmaya bilməz. Bu ümidlər əlbəttə ölməz.

Bu nöqteyi-nəzərdən Kadıköy xanımlarının "Millətimiz məğlub deyildir!" - deyə bağırmaya haqları vardır.

Türkiyə məğlub deyildir!

*M. Ə. Rəsulzadə*

## KNYAZ TUMANOV İLƏ MÜSAHİBƏ

Erməni intiriqaları əleyhinə yazmaqda olduğu ciddi məqalələri ilə məşhur olan gürcü mütəfəkkirlərindən, "Qruziya" qəzetəsinin mühərriri knyaz Tumanov cənabları ilə bir para məsələlər haqqında müsahibədə bulunduq. Knyaz cənabları bir neçə gündür ki, Tiflisdən şəhərimizə varid olubdur [gəlibdir].

Əvvəl-əvvəl bizi maraqlandıran erməni-gürcü müharibəsi oldu. Knyaz cənablarının bu xüsusdaki ifadatından [ifadələrindən] böylə məlum oldu ki, davanın əvvəllərində ermənilər gürcülərə böyük güc gəlibdirlər və bir çox tələfat veribdirlər. Gürcülər müharibəyə hazır deyilmişlər. Bu işdə əhali hökumət ricalını [adamlarını] müqəssir görür, çünki hökumət ricalı hər dəfə camaatı inandırırmış ki, ermənilər tərəfindən qardaş qardaşı qırmaq kimi təşəbbüs baş verə bilməz. Lakin görünür hökumət əhli erməni başçılarının intriqalarından qafil imiş. Bizim hökumətin qəfləti müqabilində erməni hökuməti, hökumət olaraq səfərbərlik elan edib qoşunlarını davaya hazırlayırmış. O idi ki, müharibə ibtidasında [əvvəlində] qəflətən üzərimizə tökülüb bizi bərk sıxdılar. Hökumətimizin əcalətən [təcili] sövq etdiyi əsgəri isə, cavan və təcrübəsiz olduğundan davam gətirə bilməyirdi. O idi ki, camaat özü tez imdada yetişib dava görmüş, müharibə etmiş könüllülərimizi yığıb dəstə-dəstə meydana, müharibəyə göndərməklə bizi erməni hücumundan qurtardı. Könüllülərimiz, əsgərlərimizlə bərabər erməniləri böyük bir qəhrəmanlıqla bizim yerlərimizdən çıxardıb öz sərhədlərinədək qovdular və qovduqdan sonra erməni qoşununu çevirmə üsuli ilə əhatə edib tamam və kamal ya qırıb və ya əsir edəcəklərdi ki, bu halda sülh teleqramı yetişib, qoşunumuzu dayandırmağa məcbur etdi. Lakin qoşun sülhə razı deyildi.

Sülh işini araya salan Müttəfiqlər nümayəndələri oldu. Əsnayimüzakirədə [müzakirə əsnasında] sülh şəraiti [şərtləri] danışılarkən erməni vəkillərinin sözündən bu çıxdı ki, ermənilər qoşunlarını hələ tərxis etmək istəməyirlər və əlavə genə də səfərbərlik xəyalındadırlar. Bunların bu cürə sözləri gürcü vəkillərini həyəcanlandırıb etirazlarına səbəb olmuşdur. Öylə olsa biz də səfərbərlik halında qalacayıq, deyə müqabilə etmişdir. Lakin ermənilər, bu növ tədbirlərinin səbəbi gürcülərdən ehtiyat etmək olmayıb da, başqa bir yerdən qorxu var deyə izahat vermişdirlər. Bunun üzərinə ingilis nümayəndəsi mütəğəyyir olaraq [əsəbləşərək] ermənilərin bu ifadatını [sözlərini] "biməzmun" [məzmunsuz, mənasız] deyə adlandırmaqla erməniləri utandırmışdır.

Zaqatala haqqındakı bizimlə Gürcüstan arasında olan balaca mübahisə haqqında knyaz Tumanov cənabları bu rəyədir ki, bu cürə məsələlər heç vaxt Gürcüstanla Azərbaycan arasında təzad törədə bilməz. Gürcüstan Hökumətinin Zaqatalanın hamısını mənimsəmək fikri yoxdur. Mübahisə Zaqatalanın cüzi bir hissəsi üstündə ola bilər ki, o da müzakirə və müsalihə [barışıq] ilə həll olunub gedər. Gürcülərin "tarixi" dəlillərindən və azərbaycanlıların "etnoqrafi" sübutlarından daha gözəli əhalinin öz meyil və xahişidir ki, məsələ həllində bunu nəzərə almalıdır. Knyaz əmindir ki, Gürcüstanla Azərbaycan arasında hər nə mübahisəli məsələlər varsa, hər iki tərəfin rizalığı ilə həll olunub, heç bir vaxt xüsumətə [düşmənçiliyə] məhəl [yer] qalmaz.

*Ayn*

## BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ

### VIII

Hərgah təzə razvedka [kəşfiyyat] xəritələrinə baxılarsa, bir çoxunun köhnə əl quyuçularının yerlərində bərqərar olması zahir olar. Bu aşağıdakı razvedka qitələrinə [sahələrinə] diqqət olunarsa, hər birində köhnə quyuçular tərəfindən nə qədər neftli quyu əllərindən alınmış olduğu məlum olar:

1) Şubanıda 26 nömrəli Səfərəliyev xüttəsi [ərazisi] - 266 quyu;
2) Şubanıda 25 nömrəli Məlikov xüttəsi - 154 quyu;
3) Şubanıda 18 nömrəli Fayvişeviç xüttəsi - 472 quyu;
4) Xırdalanda ? nömrəli Qolubov xüttəsi - 912 quyu;
5) Şorda 17 nömrəli Şahnəzərov xüttəsi - 234 quyu.

Cümlətan - 2038 quyu.

Fərz edəlim ki, bu quyuların hər birindən gündə beş put neft hasil olarsa, hamısından yövmiyyə [günlük] 10190 put və ildə də 3668400 put eyləyir.

Qanuna görə, bu məhsulatın hamısı bələdçilərin (razvedkaçıların) mənfəətinə qalır. Hərgah bu məhsulatdan xəzinə 12 % cizyə [vergi] (долевое отчисление) tələb etsəydi, putu bir manat qiyməti ilə üç ilin müddətində xəzinəyə 1300000 manatdan artıq varidat daxil olardı...

Bir bu qədər mədaxildən xəzinə boyun qaçırır. Minlərcə quyu sahibləri qovulub yerləri və neftli quyuları əllərindən alınır və qoyduqları pullar, çəkdikləri zəhmət də hədər gedir. Bələdçi cənab isə kamali-istirahətlə özgə pulu və əli ilə qazılmış quyulardan müftə neftləri çəkib böyük pullar qazanır, yaxud qəsb etdiyi quyuları özgəsinə kirayəyə verir. Söz yox ki, bu qədər müftə qazanclarla bələdçi çox asan vəchlə 200 sajınlıq buruğu qazıb beş desyatinə də havadan

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 yanvar (Cümə günü) tarixli 90-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

malik olur. Buna deyərlər: "Nə yoğurdu, nə yapdı, hazırca kökə tapdı."

İştə, "razvedka" qanunu ki, hamı qurbanlar bunun üçün kəsilmişdir.

Neft yerlərini böyük qiymətə mindirmək üçün, yəni buralardan xəzinəyə güclü mədaxillər qazandırmaq üçün, "razvedka" üsulu gözəl bir üsuldur. Amma bir şərtlə ki, əl quyuçularının hazır quyuları, mədənləri, qışlaları (казармы) və sair mayehtacı [alətləri, vasitələri] əllərindən alınmasın. Bu bələdçilik gərək o yerlərdə olsun ki, orada hələ bu çağadək külüng səsi eşidilməmişdir.

Hərgah əl quyuları mövcud olan yerləri də "razvedka"ya vermək lüzumiyyəti görünərsə, nə eybi var, buralar da verilsin; lakin kimə verilsin? Əlbəttə, kənardan gələn cibi yoğun firmaçılara yox, quyu sahiblərinin mütləq özlərinə verməlidir. Zira bunların həm maddi və həm də mənəvi ixtiyarları vardır. Bunu heç sahibi-əql [ağlı olan] inkar edə bilməz.

Məntiq də, insaf və mürüvvət də bunu tələb eyləyir ki, quyulu yerlərin "razvedka"sı quyu sahiblərinə verilsin və bu məramı əncama gətirmək üçün, təşəbbüs etmək lazımdır ki, quyuçular birləşib öz aralarında ticarət cəmiyyətləri və şirkətlər yapsınlar. Bu da çətin bir iş deyil. Lakin bunlara dəlil və rəhbər lazımdır ki, hökumət tərəfindən gərək olsun.

Tutalım ki, hökumət tərəfindən bu quyuçulara bir rəhbər yaxud xüsusi bir müsaidə də verildi. Bununla iş tamam olmayır. Quyuçuların özləri də səy və kuşiş gərək etsinlər [çalışsınlar], həmiyyət və qeyrət göstərsinlər.

Beş min nəfər quyu sahibləri birləşib bir "ittifaq" yapsalar, hangi məqsədlərinə nail olammazlar? Bugün öylə bir ittifaqın ortalığa gəlməsinə böyük bir ehtiyac vardır ki, onun vasitəsilə quyuçular həm maddi və həm də mənəvi işlərini sazlaşdıra bilərlər. Ələlxüsus, bu ittifaqın ətraflıca bir məramnaməsi gərək olsun ki, üzvlərinə quyuçuluğa dair maddiyyat yardımı ilə bərabər, məişətdə ehtiyacı bulunan zəxirə [ərzaq], libas və sair mayehtac ilə də kömək olunsun. Anbarlar gərək açılsın ki, oradan quyuçulara şalman, taxta, dövreyi-məftul [məftil təkəri], vedrə və sairləri quyuçulara ucuz qiymətlə tamam olsun. Banklar gərək açılsın ki, buradan az faizlə quyuçular ehtiyacına pullar götürülsün.

İttifaqın özünə məxsus gərək klubu olsun ki, oraya faydalı vaxt keçirmək üçün quyuçular cəmləşsinlər, təqazayi-zəmanəni andıran [dövrün ehtiyaclarını başa salan] elmi və fənni [texniki] müsahibə və xitabələr dinləsinlər. Daha nələr mümkün deyil?

Xülasə, yeni icad olası "ittifaq" mürüri-dühurla [vaxt keçdikcə] fəaliyyətini artırıb, axırda öylə bir güclü və sərbəst təşəbbüsat əmələ gətirər ki, vaxtilə məramını, sözünü "Sovet Syezd" kimi hökumət kişilərinə dinlətdirər. Bu gün neft mənquləleri [kəmərləri] böyük firmaların əllərində olduğu üçün quyuçular neftlərini bu firmalara aşağı qiymətlə satmağa məcburdurlar. Yəni mal sahibi olaraq birjada mətalarını satmağa qadir deyillər. Bunların ittifaqı əmələ gələrsə, özləri mənqulələr yapıb, firmaların da çəngalından [caynağından] qurtararlar. Daha bu fəqərədən [hadisədən] sonra quyuçular böyük sərmayədarlardan qorxmayıb asudə yaşamağa başlarlar və gündən günə işləri böyüdüb axırda böyük sərmayədarlarla qabaq-qarşı duraraq rəqabət barına [yükünə] mütəhəmmil ola [dözə, güc yetirə] bilərlər.

Beş min nəfər üzv hər biri 100 rublə verməklə 500 min manatlıq bir sərmayəyə malik olarlar ki, həman sərmayə ilə birinci ildən başlayaraq bir çox ehtiyaclarını rəf edə [aradan qaldıra] biləcəklər.

Eşitdiyimizə görə, böylə bir ittifaqın məramnaməsi təsdiq olunmuşdur. Olsun ki, bu aydan işə şüru olunsun [başlansın]. İştə neçə ildən bəri avara qalmış quyuçular varsınlar da qeyrət və şücaətlərini göstərsinlər.

Sözü nəticələndirəlim. Sabiq hökumət əli ilə təsdiq olunmuş qanunlar gərək fəsx [ləğv] olunsun.

1) Quyular əl ilə qazılsın, lakin həştad sajınlıq dərinliyə çatdıqdan sonra motor və buruq ilə də qazılmağa izin verilsin.

2) Razvedka və bələdçilik işləri həman yerlərdə quyuçuluqla məşğul olan quyu sahiblərinə tapşırılsın.

3) Müqavilənamələr bir ilə olmayıb əqəllən [ən az] səkkiz ilə bağlanılsın.

4) Xəzinənin mədaxili cizyə (долевое отчисление) üsulu ilə alınsın və ondan ötrü hər quyuçunun rəsmi örtülmüş və möhürlənmiş qazanları gərək olsun. Vəssalam.

İşbu məqaləmizə lazım məlumatı bu aşağıdakı mənbələrdən kəsb etmişəm [əldə etmişəm]:

1) "Иностранные капиталы въ русской нефтяной промышленности" – Зевъ. [Ziv, "Rus neft sənayesində xarici sərmayələr".]

2) "Добыча нефти" – Глушкова. [Qluşkov, "Neft hasilatı".]

3) "25 лѣтие Тва Бр. Нобель." ["Nobel Qardaşları Şirkətinin 25 illiyi".]

4) "Современное положенiе нефтяной промышленности въ связи с кустарной добычею нефти" – Деминскаго. [Deminski, "Kustar üsulla neft hasilatıyla əlaqədar olaraq, neft sənayesinin müasir vəziyyəti."]

5) "О кустарной добычѣ нефти и способахъ ея урегулированія" – А. Н. Гаговы и др. [Qaqov və başqaları, "Kustar üsulla neft hasilati və onun tənzimlənməsi haqqında".]

*Fərhad Ağazadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**İspaniyanın arzuları**

Paris - Srağagün İspaniyanın Baş vəziri knyaz Romanones Xariciyyə Vəzarətinə [Xarici İşlər Nazirliyinə] ziyafətə dəvət edilmişdir. Baş vəzir demiş: İspaniya dəxi Sülh Konfransında iştirak etmək istəyir. Zira, İspaniya Bəhri-səfidin [Aralıq dənizinin] gələcəyindən maraqlandığı kimi, Fransa ilə İspaniya rizası ilə Mərakeş məsələsinin həll edilməsini də arzu edir.

**Almaniyada**

Berlində Şuralar Konqresi bu qərara gəlmişdir:

1) Bütün əksinqilabçılar tərksilah edilsinlər.

2) Bütün bəylik imtiyazatı [imtiyazları] ləğv edilsin.

Bu iki qətnamələr andırır ki, bolşevik nüfuzu Almaniyada güclüdür. Bunlara baxmayaraq, zənn edirlər ki, Şeydeman sosialistləri Məclisi-Müəssisan dəvəti məsələsini gözəlcəsinə keçirəcəkdirlər.

Kopenhagen - Berlindən xəbər verilir. Ebert və Daxiliyyə vəziri doktor Preysin prezidentliyə namizədliyi qoyulmuşdur. Əsgərlər təzliklə intixabları [seçkiləri] qurtarmaq fikrindədirlər, tainki Almaniya tərəfindən hökumət başçısı Sülh Konfransında iştirak edə bilsin.

**Nemeslər və hindlilər**

Sinqapurdan "Tayms" qəzetəsinə böylə bir teleqram çəkilmişdir: Burada ingilis təbəəsi olan hindlilərin böyük mitinqləri vaqe olmuş [baş tutmuş]. Onlar qərar qoymuşlar hökumətdən tələb edilsin ki, 10 il müddətlə heç bir alman təbəəsinə Hindistanla ticarət etməyə müsaidə verilməsin.

**"Havas" ajansı xəbər verir**

Senatın məlumatına görə, Almaniya təxribatından Şimali Fransaya 75 milyard zərər dəymişdir.

**İngiltərədə tətilin tərki**

İplik malı fabrikaçıları ilə əmələlər [işçilər] arasında olan müttəhid [birgə] iclasda tətili tərk etməyə qərar verilmişdir. Binaənileyh [ona görə], bu gün bütün fabrikalarda əmələlər işə başlamışlardır.

## SÜLH ƏTRAFINDA

**Sülh Konqresi**

Londondan Parisə verilən xəbərlərə görə, ümumi sülh əqd edilənə [bağlanana] qədər üç konqre vaqe olacaqdır. Birinci konqre Versalda açılıb, dekabrın axırında qurtaracaqdır. İkincisi Müttəfiqlərin sülh konfransıdır ki, mart və ya aprel aylarının axırlarında başlanacaqdır. Bundan sonra da Müttəfiq və düşmən dövlətlərin axırıncı konqresi olacaqdır.

**Amerika donanmasının övdəti [qayıdışı]**

Londondan verilən xəbərlərə görə, Amerika donanması Amerikaya qayıtmaqdan ötrü İngiltərə sularından çıxmışdır. Bu axırıncı 12 ay müddətində Amerika donanması İngiltərə donanmasına ciddi müavinətdə [yardımda] bulunmuşdur.

**Türkiyə mətbuatı Vilson haqqında**

"İqdam" qəzetəsi Vilsonun Avropaya gəlməsi haqqında yazır ki:

"Biz Sülh Konfransının ərəfəsindəyiz. Millətlərin müqəddəratı həll edilən böylə bir tarixi və mühüm zamanda biz öz mənafeyimizin keşiyində olmalıyız. Şübhəsiz ki, Vilson Sülh Konfransı rəisi olub, onun 14 maddəsi hamı millətlərə şamil olacaqdır. Əks surətdə Amerika bu müharibədə olmayan bir məğlubiyyətə düçar və Vilson da ancaq böyük bir xülyapərəst hesab edilər. Burasını da nəzərdə tutmalıdır ki, Vilson müharibəyə başladıqda, əvvəlcədən öz 14 maddəsinin Müttəfiqlər tərəfindən qəbul olunmasını şərt qoymuş idi. Vilsonun maddələrinin birində deyilir ki, türklərlə məskun olan yerlər türklər əlində qalmalıdır. Fəqət buna baxmayaraq, ermənilər və yunanlar öz mətbuatlarında Türkiyə torpağının bir para yerlərini, o cümlədən Aydını yunanlar və Adananı ermənilər özlərinin olduğunu isbat etməyə çalışırlar. Hətta bu yerlərin tarixi-qədimi üzrə onlara mütəəlliq [aid] olmasını belə söyləyirlər. Bu nöqteyi-nəzərlə yer üzündə bir elə millət tapılmaz ki, əvvəlcədən qeyri bir millətə mütəəlliq olan torpağı zəbt etməmiş olsun. Ümidvar olmalıdır ki, Sülh Konfransı bu yaxın vaxtda mübahisəli torpaqlar məsələsini ədalətli bir surətdə həll edər."

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Daxiliyyə Nəzarətində**

Qarabağ dairəsindəki qaçqınlara müavinət [yardım] etmək və onların halını bilmək niyyəti ilə oraya Məclisi-Məbusan üzvləri təhti-idarəsində [başçılığı altında] bir heyəti-məxsus [xüsusi bir heyət] gedir. Buna görə, dünən Daxiliyyə naziri əvəzində olaraq onun müavini general Sadiq bəy Ağabəyov, Gəncə valisi və Şişə-Cavanşir uyezd naçalniklərinə bu məzmunda bir teleqraf çəkmişdir:

"Qarabağ dairəsində yaşayan qaçqınların halını bilib, onlara müavinət etmək üçün Məclisi-Məbusan əzası təhti-idarəsində gedən heyəti-məxsusəyə lazım görülən müzahirət [kömək] göstərmək və onlara lazım gəldikdə qaraqol [keşikçi] verməyi sizə təklif edirəm."

* Dünən Daxiliyyə naziri həzrətləri Gəncə qubernatoru namına bir böylə teleqram göndərmişdir: "Qarabağ fərarilərinin [qaçqınlarının] əhvalını məhəllində [yerində] təhqiq edərək müavinətdə bulunmaq qəsdilə buradan, başda Parlaman əzası olmaq üzrə, xüsusi bir komisyon oraya azim olmuşdur [yola düşmüşdür]. Mən teleqrafən onlara hər halda müavinətdə bulunmağı xəbər vermişəm."

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi], Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişlər ki, Bakıdan Yevlax mövqifinə [stansiyasına] Qarabağ fərarilərinə paylanmaqdan ötrü 10 min arşın bez göndərilsin.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti, Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, müfəttişliklər məmurini [məmurları] küçələrdə qalmış evsiz və pərəstarsız [kimsəsiz] çocuqları darüleytama [yetimxanaya] göndərmək barəsində lazımi binagüzarlıqlarda [rəsmi təşəbbüsdə] bulunsun. Bununla bərabər xəbər vermişdir ki, şəhərdə müsri [yoluxucu] yatalaq xəstəliyi hökmfərma olduğu [hökm sürdüyü] üçün, Bakıya qaçqınlar və işsizlərin gəlməsi məmnu [qadağan] edilməlidir.

* Bu gün saat 12-də Ümuri-Xeyriyə və Nafiə naziri kabinəsində sabiq Bakı qradonaçalstvası kəndlilərin füqəra [yoxsul] hissələrinə müavinət edəcək xüsusi komisyonun iclası vaqe olacaqdır.

* İşbu günlərdə tacir və Ticarət və Sənaye Nəzarəti acentəsi [agenti] Alley Aleksandroviç, Krım və Ukraynaya azim olacaqdır [yola düşəcəkdir]. Məqsəd Azərbaycan daxilinə gətirmək üçün növbənöv mal almaqdır. Alley Aleksandroviç böyük bir təşkilat nümayəndəsidir ki, həman təşkilatın 200 milyon rubləyədək əsasi kapitalı vardır.

## "HACIQABUL VAQEATI" [HADİSƏLƏRİ]

Qriqoryan adında bir erməni Bakıda Erməni Milli Şurasına gəlib bir ərzihal verir ki, keçən il dekabr ayının 24-cü gecəsində Gəncədən Bakıya gələrkən, onu Hacıqabul mövqifində [stansiyasında] tıutub həbs etmişlər. Belə ki, azərbaycanlı bir zabit üç nəfər əsgərlə vaqona daxil olub sormuşlar ki, burada erməni var, ya yoxdur? Bir nəfər Qriqoryanı göstərmiş. Məzkur [deyilən] əsgərlər onu tutub bayıra çıxarmışlar. Qriqoryan bayıra çıxdıqda görür ki, 13 nəfər ermənini dəxi tutub həbs etmişlər. Bunlara bir qədərdən sonra gəlib bəyan etmişlər ki, sabah bunlara getmək icazəsini verəcəklər. Nə isə, saat yarımdan sonra 14 nəfəri aparıb vağzalın yaxınlığında güllələmişlər, amma Qriqoryan qaçıb qurtarmışdır. Qriqoryanın dediyinə görə, dörd zabit əfəndi müqəssirdirlər. Onların ikisi məlumdur. Biri İsfəndiyar əfəndi, biri də Süleyman əfəndi. Və əgər lazım olsa, məzkur Qriqoryan, müqəssirləri tanıyıb göstərə bilər və habelə ölülərin qəbirlərini dəxi göstərə bilər.

Qriqoryanın bu şikayətini Bakıdakı Erməni Milli Şurası tamamilə general Tomsona təqdim edir və mumaileyh [deyilən] general bu işi Azərbaycan Hökumətinə göndərib təhqiqat icrasını rica edir. Bu xəbər Hökumətə yetişən kimi Daxiliyyə naziri Bakı qubernatoruna əmr verir ki, təcili bir halda bu əhvalatı təhqiq eyləsin. İş aydın və aşkar olmaqdan ötrü Bakı qubernatoru yanvar ayının 5-ində Erməni Milli Şurası tərəfindən vəkil olaraq dava [məhkəmə] vəkili Paronyanı və mərqum [adı çəkilən] Qriqoryanı götürüb Hacıqabul mövqifinə rəvanə olur [yola düşür]. Orada işi təhqiq eylədikdə, nəticəsi məlum olur.

Qubernator Daxiliyyə nazirinə verdiyi ərzihalda deyir ki:

"Mən Hacıqabula gələn kimi bütün orada olan hökumət məmurlarını dəvət eylədim. Buraya bizim gəlməyimiz öylə bir gizli oldu ki, kimsə səbəbini bilməzdi. Səbəbi o idi ki, görüm bu erməni doğru deyir, yainki böhtan eyləyir. Ən əvvəl mən Hacıqabulda olan qoşun komandanı polkovnik Məhəmmədovu dəvət eyləyib bu əhvalatı soruşdum. Komandan bu işə öylə bir halda təəccüb eylədi ki, məbhut [çaşmış] olaraq soruşdu:

– Bu Qriqoryanın ağlı başındadır, yainki divanədir? 13 adamın ölümünü gizləmək olarmı?

Ondan sonra mövqif naçalniki Çiçinadzeni çağırdım, bundan əhvalatı sordum. Cavab verdi ki, əgər böylə iş olmuş olsa, ən əvvəl mən bilərəm. Çünki mənim məmurlarım gecə-gündüz işdədirlər. Bunun cavabı böylə. Halbuki Qriqoryan Erməni Milli Şurasında demişdir ki, mövqif naçalniki bu əhvalatı yaxşı bilir. Ondan sonra bütün Hacıqabulda olan dəmiryol əmələlərindən [işçilərindən] sordum. Hər kəsdən işi sordumsa, deyirdi ki, başdan ayağa yalan və böhtandır. Sonra Qriqoryan Kreyev adında bir məmuru nişan vermişdi ki, o, əhvalatı bilir."

Qubetnator yazır ki:

"Mən Kreyevi çağırıb sordum. Mənim cavabımda dedi ki, dün gecəni növbətçi idim. Nəinki adam öldürmək, hətta güllə səsi də eşitmədim."

Qubernator ərzihalında yazır ki:

"Qriqoryan xəbər vermiş yerə getdik. Bu da mövqifdən beş addım fasilədədir. Oranı gəzdik, bir əsər görünmədi. Ondan sonra buranın yaxınlığında olan daxmalar var, burada müsəlmanlar olurlar. Burada dəxi bir övrəti çağırıb sual eylədim. O dəxi cavab verdi ki, burada adam öldürmək yalandır. Bununla da iktifa [kifayət] etməyib mövqifin yaxınlığında olan yerləri gəzdik. Genə bir əsər görünmədi. Bunu da ərz edirəm ki, bu işi təhqiq edən zaman Cavad uyezd naçalniki Yusifov, xüsusi məmurum Nəcəfbəyov, Erməni Milli Şurası vəkili Paronyan, mərqum Qriqoryan hazır idilər. Ondan sonra bütün Hacıqabulda olan zabitləri Qriqoryana göstərdim. Genə birisini də müqəssir bilmədi və tanıya bilmədi. Tamam günü əsgərlər məşqə gedərkən hamısını Qriqoryana göstərdim ki, bəlkə bir adamı tanısın, amma bir kimsəni göstərə bilmədi. Bununla da iktifa etməyib, dəmiryol xidmətində olan polis nəfərlərini göstərdim. Genə Qriqoryan bir kəsi nişan verə bilmədi. Nəticə olaraq məlum oldu ki, şaki [şikayətçi] Qriqoryan müsəlmanlara böhtan bağlamaqla onları ləkələmək istəyir. Bu dərəcədə rəzalət! Əcəba Qriqoryan kimi müfəttinlərin [fitnəkarların] şikayətinə erməni Şurayi-Millisi necə etibar edir? Rəvadırmı Azərbaycanın təmiz əsgərlərinə və zabitlərinə şura böylə bir ləkə vurmaq istəyir? Genə köhnə adətləri tərk etməyib bütün dünyaya çığırmaq istəyirlər ki, müsəlmanlar onlara zülüm edirlər. Halbuki öz vəkillərinin hüzurunda deyil biz müsəlmanlar, ruslar, gürcülər təsdiq eylədirlər ki, böylə bir əhvalat olmamışdır. Baştan-başa yalan, böhtan və iftiradır. Ar olsun vicdanı şəxsiyyətə [şəxsi mənfəətə] verən ərbabi-qərəzlərə [pis niyyətli adamlara]!

*Sad.*

## BAKI XƏBƏRLƏRİ

**Biçeraxovun getməsi ətrafında**

Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, general Biçeraxovun Baş komandan mənsəbini tərk etməsi xəbəri Bəhri-Xəzər donanmasını və Bakı demokratiyasını təşvişə salmışdır. Biçeraxovun getməsi Müttəfiq komandanlığının xahişi ilə əlaqədar tutulur. General Biçeraxov yaxın zamanlarda Hacı-Tərxan müqabilinə və Tersk üzərinə hücum etmək fikrində imiş. Ona görə də demokratiya onun getməsini qeyri-mümkün əd [hesab] edir. Bu münasibətlə Sentrokaspinin iclası vaqe olmuşdur. Təfsilatı gələn nömrədə.

**Bakıya çəkmə və sair qalanteri malı gətirmək üçün**

* Qilsker adlı bir şəxsə Odessadan Bakıya çəkmə, dəri və qalanteri malları gətimək üçün Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir. Məzkur Qilsker aldığı şeyləri Ərzaq Nəzarəti adına göndərəcəkdir.

* Ərzaq Nəzarətinin Gəncə qəzası vəkili teleqafla xəbər verir ki, onun mal dəyişdirmək üçün xaricə gedən adamlarla müqavilənamə bağlamasına Ticarət və Sənaye Nəzarəti mümaniət [maneçilik] edir. Bu barədə Ərzaq Nəzarəti Ticarət və Sənaye nazirinə xəbər verir ki, hərgah bu xüsusda hər iki Vəzarət [Nazirlik] arasında birlik olmasa, ərzaq işləri irəli gedə bilməyəcəkdir.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi Daxiliyə Nəzarətinə bir ərzihal göndərib xəbər vermişdir ki, Bakı Kazyonnaya Palatası [Xəzinə Palatası] 30 dekabrda verilən qanun mövcibincə [əsasında] 1919-cu sənə üçün veriləcək mədən şəhadətnamələrinin qiymətlərinin üç dəfə artırılmasını bildirmişdir. Bunu Bələdiyyə İdarəsi təcili surətdə qövldən feilə [sözdən işə] gətirməli imiş.

Müvəqqəti hökumət tərəfindən verilmiş qanunun 64-cü maddəsinə görə, bələdiyyə vergisi mədən şəhadətnamələrindən alınır. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsinin qətnaməsinə məbni [əsasən] şəhər nəfinə [xeyrinə] alınacaq vergi yeni qiymətlərdən hesab olmaq üzrə 10-15 faiz qədər alınacaqdır.

Bunu məlum etdikdən sonra Bələdiyyə İdarəsi rica edir ki, yeni vergi təyin etdikdə şəhər nəfinə alınacaq vergini Bələdiyyə İdarəsi tərəfindən qəbul olunmuş miqdarda təyin etməlidir. Zira onsuz da rublənin ucuz olması şəhər kassasına təsirbəxş olmuşdur [öz təsirini göstərmişdir].

## ƏRZAQ İŞLƏRİ

* Ərzaq naziri Dəmiryollar nazirinə xəbər verir ki, Ərzaq Nəzarəti Gəncə vilayət nümayəndəsinin yazdığına görə, Kürdəmir mövqifində [stansiyasında] tərəzi olmadığından, Şamaxıdan gətirilməkdə olan taxılın miqdarını bilmək xeyli müşkül olmuşdur. Buna binaən [buna görə] həman mövqifdə tərəzi qoyulması xahiş olunur.

* Ərzaq naziri Ticarət və Sənaət [Ticarət və Sənaye] nazirinə yazır ki: Bir çox adamlar Ərzaq Nəzarətinin Gəncə vilayəti nümayəndəsinə müraciət edib, mal dəyişdirmək şərtilə Azərbaycan dairəsindən kənara mal aparmaq üçün icazə verilməsini xahiş edirlər. Gəncə vilayəti nümayəndəsi hər dəfə Ərzaq Nəzarətinə müraciət edib icazə istəyir. Ərzaq Nəzarətindən razılıq verildiyi zaman, lazımı müqavilənamə əqd edilib [bağlanıb], mal aparmaq xahişində olanlara icazə verilir. Hal-hazırda Gəncə vilayəti nümayəndəsi xəbər verir ki, Ticarət və Sənaət Nəzarəti teleqraf göndərib mal dəyişdirmək işlərinə müdaxilə etməmək təklifində bulunmuşdur. Ticarət və Sənaət Nəzarətinin bu teleqrafına görə, Gəncə nümayəndəsi fəaliyyətsiz qalıb bundan böylə nə tövr müamilədə bulunmağı [necə rəftar etməyi] sual etmişdir. Ticarət və Sənaət Nəzarətinin bu teleqrafı göndərməkdə məqsədi nə olduğu Ərzaq Nəzarətinə məlum olmadığından, bunun səbəbini məlum etməyi xahiş edirəm. Bundan əlavə, hökumət mənafeyi Ərzaq Nəzarəti ilə Ticarət və Sənaət Nəzarətinin ərzaq işlərində müttəhid [birgə] işləmələrini iqtiza [tələb] etdiyindən, bundan belə Ərzaq Nəzarətindən bixəbər Ərzaq Nəzarəti nümayəndələrinə binagüzarlıq [sərəncam] verilməməsi dəxi xahiş olunur.

* Ərzaq Nəzarəti Gəncə vilayəti nümayəndəsinə xəbər vermişdir ki, hökumət qərardadına görə, Ticarət və Sənaət Nəzarəti nəzdində xüsusi bir mal dəyişdirmək işlərinə baxan komissiya vücuda gətirilmişdir. Buna görə, bundan böylə mal dəyişdirmək işləri ilə əlaqədar olan məsələlərin Nəzarət vasitəsi ilə məzkur [deyilən] komissiyaya verilməsi lazımdır.

* Şuşa şəhəri əhli Əli Bəhramov Ərzaq nazirinə müraciət edib dörd ay bundan əqdəm [qabaq] aldığı 1000 put arpa və buğdanın Ağdamdan çıxarılıb Bakıya gətirilməsi üçün icazə verilməsini xahiş etmişdir. Ərzaq naziri bu münasibətlə Ağdam pristavına yazır ki: Keçən sənə noyabrın 28-ində Ərzaq Nəzarəti tərəfindən verilən əmrnaməyə görə hər cür ərzaq şeylərinin Bakıya gətirilməsinə icazə verilmişdir. Alınan xəbərlərə görə, sizin rayondan mal çıxarmağa mümaniət [maneçilik] göstərilir. Buna binaən, Ərzaq Nəzarətinin yuxarıdakı əmrinə görə Əli Bəhramova aldığı arpa və buğdasını çıxarmağa icazə verilməsini və bundan böylə kimsəyə mümaniət göstərməməyi təklif edirəm.

* Ərzaq Nəzarəti, Hökumət Kontrolu [Müfəttişi] İdarəsinə xəbər vermişdir ki, Dağıstan oblastında ərzaq şeyləri almaq üçün Ərzaq Nəzarəti acentəsinə verilməkdən ötrü yarım milyon və həcz edilmiş çaydan ötrü Vısotski və Kirjebin firmaları müdirinə yarım milyon manat Bakı xəzinəsindən pul buraxılmasını təsdiq etsin.

* Ərzaq Nəzarəti Tağıyev fabrikasına məktub göndərib 15566 və 1720 nömrədə iki tay ağın və 5539, 10038, 10035, 5542, 1016, 9317, 10182, 10165 və 10061 nömrəli 9 tay bezin kimə buraxılmasını xəbər almışdır.

* Gəncə Bələdiyyə İdarəsi üzvü Ter-İsrailyana icazə verilmişdir ki, Bakıdan Gəncəyə iki min arşın bez aparsın.

**Mehmanxaneyi-"Məhəmmədiyyə"**

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

*Kamali-ehtiramla İbrahimov*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Bakı külli [topdan] alış-veriş cəmiyyəti "Baqqallar İttifaqı"**

İdarəsi üzvlərini cümə günü kanuni-saninin 17-sində səhər saat 11-də Lalayevin pasajında, ittifaqın idarəsində vaqe olacaq ümumi iclasa dəvət edir. Baxılacaq məsələlər:

1) İllik hesabatın müzakirəsi; 2) Mənafenin təqsimi [gəlirin paylanması]; 3) 1919-cu il smetasının təsdiqi; 4) Məramnamənin təğyiri [dəyişdirilməsi]; 5) İdarə və şura seçkisi; 6) Cari məsələlər.

Qeyd: Saat 11-də iclas qanuna müvafiq olmazsa, ikinci ümumi iclas o gün həman idarədə saat 1-də açılacaqdır.

*İdarə müdiri: Həsənov*

*3647*

**Elan**

Bakı Bələdiyyə İdarəsi ümum ev sahiblərinin yaxud onları əvəz edən icarədar və müdirlərin, böylələri olmasa da ev komitələri sədrlərinin yadına salır ki: mənzil vergisi haqqında məlumat vermək vaxtı yanvarın 7-sində qurtarmışdır. Ona görə təklif olunur ki, üç günədək Bələdiyyə İdarəsi Maliyyə şöbəsinə bu xüsusda məlumat versinlər.

Yanvarın 21-indən etibarən Bələdiyyə İdarəsi vaxtlı-vaxtında məlumat verməyənlərdən 29 sentyabr 1917-də Müvəqqət Hökumət tərəfindən təsdiq və "Müvəqqət Hökumət Əxbarı"nın 176-cı nömrəsində 222-13/26 oktyabr 1917-də dərc edilmiş Bələdiyyə mədaxil qanununun 52-ci maddəsi mövcibincə 100 manat cərimə etməyə başlayacaqdır.

*Bələdiyyə rəisi: İlyuşkin*

*Bölədiyyə üzvü: Pleskaçevski*

*T-11*

**1000 rublə mükafat**

Mazut aparmaqdan ötrü verilmiş dörd qəbz və Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri tərəfindən neft buraxmaq üçün dəmiryolu müdirinə yazılmış əmrnamə Bazarnı küçədə düşüb itmişdir. Bunları tapıb "Qafqaz" mehmanxanasında 8 nömrəli odada Məhəmmədtağı Əhmədova verənlərə min rublə mükafat veriləcəkdir.

*2649*

**Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Cümhuriyyətinin Məşixəti-İslamiyyəsi tərəfindən…***

"Və əiddü ləhüm məstəta'tüm min-qüvvətin və min-ribatil-xeyli türhibunə bihi əduvvallahi və əduvvəküm…": "Quran"-ın Ənfal surəsinin 60-cı ayəsindən bir hissə. Mənası: "Onlara qarşı bacardığınız qədər qüvvə və bağlanmış atları hazırlayın. Bunlarla Allahın düşmənini və sizin düşməninizi qorxudarsınız."

"Və in cənəhu lissəlmi fəcnəh ləha vətəvəkkəl əla-llahi innəhu hüvə-ssəmiul-alim.": "Quran"ın Ənfal surəsinin 61-ci ayəsi. Mənası: "Əgər onlar sülhə meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən O, eşidəndir, biləndir!"

"İnnəllahə-ştəra min-əl-mümininə ənfüsəhum və əmvaləhum bi-ənnə ləhümülcənnətə...": "Quran"ın Tövbə surəsinin 111-ci ayəsindən bir hissə. Mənası: "Allah, şübhəsiz ki, möminlərdən canlarını və mallarını cənnət müqabilində satın almışdır..."

"Əl-islamu ya'lu və laya'lu əleyh": Hədis. Mənası: "İslam (müsəlmanlar) üstündür, heç bir şey ondan üstün ola bilməz."

"İn tənsurullahə yənsurküm və yusəbbit əqdaməküm.": "Quran"ın Məhəmməd surəsinin 7-ci ayəsindən bir hissə. Mənası: "Əgər siz Allaha (Allahın dininə) yardım etsəniz, O da sizə yardım edər və sizi sabitqədəm edər."

***Türkiyə məğlubmudur?***

"İstanbul Kadıköy xanımları məzkur protestolarında deyirlər ki:": Bu müraciət, daha əvvəl "Azərbaycan" qəzetinin 12 yanvar 1919-cu il tarixli 85-ci nömrəsində çap edilmişdi.

"…Verdendəki fransızlıq kimi…": Birinci Koalisiya müharibəsi əsnasında Verden yaxınlığında Prussiya və Fransa orduları arasında baş verən döyüş və Verdenin mühasirəsi (29 avqust – 2 sentyabr 1792) nəzərdə tutulur. Prussiya ordusu Verdeni ələ keçirməyə müvəqqət olmuş, ancaq 14 oktyabrda fransızlar şəhəri geri almışdı.

"Xəstə adam": XIX əsrin ortalarından Birinci Dünya müharibəsinə qədər Qərbdə Osmanlı imperiyası barəsində işlədilən ifadə. İlk dəfə Rusiya imperatoru I Nikolay tərəfindən işlədildiyi qəbul edilir.

"…Trablusqrəb, Balkan hərbləri, Yəmən, Havran, Arnavud ixtilalları…": 1911-1912-ci illərdə cərəyan edən İtaliya-Osmanlı müharibəsi, 1912-1913-cü illərdə cərəyan edən Birinci və İkinci Balkan müharibələri, Yəməndə, Suriyanın cənubundakı Havranda və Albaniyada Osmanlı idarəsinə qarşı baş qaldıran üsyanlar nəzərdə tutulur.

"Məclisi-Məbusan rəisi Xəlil bəy": Xəlil Məntəşə nəzərdə tutulur.

Xəlil bəy (Məntəşə): bax. Məntəşə, Xəlil.

***Knyaz Tumanov ilə müsahibə***

"Ayn": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

***Bakı neft ticarəti və onun müxtəsərcə tarixi***

"Xırdalanda ? nömrəli…": qəzetdə belə getmişdir.

***Teleqraf xəbərləri***

"knyaz Romanones": söhbət 1912-1919-cu illərdə bir neçə dəfə İspa-niyanın Baş naziri olan Romanones qrafı Alvaro de Fiqeroa-i-Torresdən gedir; qəzetdə "knyaz Romanos" yazılmışdır.

***Sülh ətrafında***

"Aydını": qəzetdə "Adanı" kimi getmişdir.

***Nəzarətlərdə***

"Dünən Daxiliyyə naziri həz-rətləri Gəncə qubernatoru namına…": o dövrdə Daxili İşlər naziri Xəlil bəy Xasməm-mədov, Gəncənin qubernatoru isə İbrahim ağa Vəkilov idi.

***Hacıqabul vaqeatı***

"Daxiliyyə naziri Bakı qubernatoruna əmr verir ki…": o dövrdə Daxili İşlər naziri Xəlil bəy Xasməmmədov, Bakı qubernatoru isə Müseyib bəy Axıcanov idi.

*Təkrar*

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## "Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan arasında Yaşıl Enerji Dəhlizinin yaradılması ilə bağlı Texniki İqtisadi Əsaslandırma"nın hazırlanması üzrə iş və xidmətlərin satın alınmasına dair

## *açıq tenderə dəvət edir*

**Satınalma predmeti:** "Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan arasında Yaşıl Enerji Dəhlizinin yaradılması ilə bağlı Texniki İqtisadi Əsaslandırma"nın hazırlanması

**Satınalan təşkilatın adı:** AZƏRBAYCAN REPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

Satınalan təşkilatın ünvanı: Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5, AZ1000

Əlaqələndirici şəxs: Leyla Adıgözəlbəyova

Əlaqələndirici şəxsin e-maili: leyla.adigozelbeyova@minenergy.gov.az

Əlaqə nömrəsi: (+99412) 596 16 53/54 (daxili 1034)

**İşlərin qısa təsviri:** - Texniki Tapşırıq sənədi texniki, iqtisadi və tənzimləmə baxımından Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan (və Avropanın digər hədəf bazarları) üzrə enerji ixracı ssenarilərinin, Dəyişən Bərpa Olunan Enerji (DBOE bundan sonra VRE) və yaşıl hidrogen ixracının/ ticarətinin ən faydalı tədqiqatını hazırlayacaq məsləhətçi şirkəti cəlb etmək məqsədi daşıyır. Məsləhətçi qrupu Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan kontekstləri, Avropa enerji tənzimləyici çərçivəsi ilə elektrik enerjisinin istehsalı və ötürülməsinin planlaşdırılması üzrə beynəlxalq təcrübənin qarışığını tətbiq etməlidir. Bu fəaliyyətin əsas tərəfdaşları iştirak edən ölkələrin energetika üzrə məsul nazirlikləri (MoE), istehsal şirkətləri və ötürücü sistem operatorlarıdır (TSO). Məsləhətçinin bu Texniki Tapşırıqda (TT) qeyd olunan vəzifələri yerinə yetirməsi və Azərbaycan və Gürcüstandan Avropaya və əksinə ixracına istinad edərək strateji enerjinin genişləndirilməsinə töhfə verməsi gözlənilir. Tələb olunan nəticələr də daxil olmaqla, tapşırıqların xülasəsi ƏŞT-nin 5-ci Bölməsində verilmişdir.

**İştirak haqqı: 2500 (iki min beş yüz) AZN. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirak haqqı satınalan təşkilatın bank rekvizitlərində qeyd etdiyi hesaba köçürüldükdən sonra tenderin əsas şərtlər toplusunu əldə etmək üçün ödəniş qəbzi ilə birlikdə satınalan təşkilata müraciət olunur.

Hüquqi ünvanı: Bakı şəhəri, Ü. Hacıbəyli 84, Hökumət Evi, qapı 5, AZ1000
Benefisiarın adı: Azərbaycan Respublikasının Energetika Nazirliyi
Satınalan təşkilatın VÖEN-i: 1300087531
Hesab nömrəsi: AZ84IBAZ38090019442857075209
Bankın adı: Dövlət Xəzinədarlıq Agentliyi, 5 Saylı Xəzinədarlıq İdarəsi
Bankın kodu: 210005
Bankın VÖEN-i: 1100486261
Müxbir hesab: AZ03NABZ01350100000000002944
Swift kodu: CTREAZ22

**Çatdırılma yeri:** Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5, AZ1000

**Çatdırılma şərtləri: DDP-Bakı (İNKOTERMS-2020 qaydalarına əsasən)**

**İş və xidmətlərin icra müddəti:** Müqavilə imzalandıqdan sonra ən geci **80 (səksən) həftə** müddətində tam şəkildə hazırlanıb təhvil verilməlidir. **İcra Qrafiki** Əsas Şərtlər Toplusunun 5-ci Böməsində (səhifə 38) verilib.

Ödəniş şərtləri: Tenderin əsas şərtlər toplusuna əsasən.

**Təklifin qiymətinin hesablanmalı və ifadə edilməli olduğu valyuta:**

- Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tender təkliflərində qiymətləri manatla göstərməlidirlər;

- Xarici hüquqi və fiziki şəxslərin tender təklifləri sərbəst dönərli valyuta ilə göstərildikdə, tender təkliflərinin verilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülür.

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

*1. ƏŞT-nin tələblərin cavab verən ən aşağı qiymət təklifi - 70 bal*
*2. İş və xidmətlərin icra müddəti üzrə qiymətləndirmə - 20 bal*
*3. Ödəniş şərtlərinə görə (avans) - 10 bal*

**İddiaçılar açıq tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- **Tenderdə iştirak etmək üçün müraciət** *(İddiaçının rəsmi blankında);*
- **Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi** *(təsdiqedici sənəd təqdim edilməlidir);*
- **Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış** *(Yerli şirkətlər və xarici şirkətlərin Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş nümayəndəlikləri Azərbaycan Respublikasında, xarici şirkətlər isə qeydiyyatdan keçdikləri ölkədə müvafiq vergi orqanı tərəfindən tender elanı tarixindən sonrakı tarixə arayış təqdim etməlidirlər. Arayışın əsli müvafiq orqanın rəsmi blankında olmalı və ya arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial təsdiq olunmuş nüsxəsi təqdim edilməlidir);*
- **Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi haqqında arayış** *(Müvafiq orqandan tender elanı tarixindən sonrakı tarixə alınmış məhkumluğun olmaması barədə arayış təqdim edilməlidir. Arayışın əsli müvafiq orqanın rəsmi blankda olmalı və ya arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial təsdiq olunmuş nüsxəsi təqdim edilməlidir);*
- **Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyətinin olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat** *(Müvafiq orqandan tender elanı tarixindən sonrakı tarixə alınmış arayış təqdim edilməlidir. Arayışın əsli müvafiq orqanın rəsmi blankında olmalı və ya arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial təsdiq olunmuş nüsxəsi təqdim edilməlidir);*
- **İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (mənfəət vergisinin bəyannaməsi)** *(Vergi orqanı tərəfindən təsdiq olunmuş orijinal bəyannamə / xarici dildə təqdim edilən rəsmi orijinal bəyannamə Azərbaycan dilində (notarial qaydada) təqdim edilməlidir). Son maliyyə dövrünə olan məlumatı əks etdirməlidir);*
- **İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı** *(Arayış bank tərəfindən təqdim edilmədir. Sənədin əsli və ya notarial təsdiq olunmuş nüsxəsi təqdim edilməlidir. Qeydiyyat tarixi cari rüb ərzində olmalıdır);*
- **İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə** *(iddiaçının kommersiya qurumunun dövlət reyestrindən çıxarışı (hüquqi şəxslər), vergi uçotunda olduğunu təsdiq edən sənədi (VÖEN), nizamnaməsi (əgər dəyişiklik olmuşdursa, dəyişikliklə birlikdə) notarial qaydada təsdiq olunaraq təqdim edilməlidir.*
- **İddiaçının bank rekvizitləri** *(rəsmi blankda bank hesabı, hüquqi və faktiki ünvan göstərilməklə iddiaçının və ya bankın imzası və mühürü ilə təsdiq edilməli);*

**Qeyd:** Beynəlxalq iddiaçılar (qeyri-rezidentlər) yuxarıda tələb olunan sənədləri təsis olunduqları və fəaliyyət göstərdikləri ölkənin müvafiq orqanlarından alınmış, notarial qaydada təsdiqlənmiş, apostil olunmuş və ya leqallaşdırılmış surətini təqdim etməlidirlər.

**İxtisas göstəricilərinə dair tələblər:**

- **İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçı tərəfindən tərtib edilməlidir):**
  - *Enerji sahəsində ən azı 10 illik təcrübəyə malik olmalıdır (müvafiq təsdiqedici sənədlər təqdim edilməli);*
  - *Layihəyə cəlb edilmiş İddiaçının ən azı 2 (iki) ölkədə iş təcrübəsi olmalıdır;*
  - *Konsorsium rəhbəri və ya yeganə məsləhətçi kimi regional səviyyədə həm qaz, həm də elektrik infrastrukturunun optimallaşdırılması ilə əlaqədar ən azı bir tamamlanmış tədqiqata malik olmalıdır;*
  - *İddiaçı qarşılıqlı əlaqəsi olan dənizaltı HVDC kabelinin çəkilməsinə dair ən azı 1 (bir) tamamlanmış texniki-iqtisadi əsaslandırmaya malik olmalıdır;*
  - *Hidrogen infrastrukturunun inkişafı ilə bağlı ölkə miqyasında ən azı 1 (bir) tamamlanmış tədqiqata malik olmalıdır;*
  - *İddiaçının işləri Texniki Tapşırıqda müəyyən olunmuş metodika əsasında keyfiyyətlə və tələb olunan vaxtda yerinə yetirmək üçün tələb olunan işçilərin ixtisası, təcrübəsi və sayı (səhifə 45) barədə işçi heyətinin müvafiq sahədə təhsilini, peşəkarlığını təsdiq edən müvafiq sertifkatlar və digər analoji işlərdə - iştirakla bağlı iş stajı (ƏŞT-nin 8-ci "Standart formalar" bölməsinin 7-ci "İddiaçının ixtisas göstəriciləri haqqında məlumat" bölməsində) bəndində göstərilmiş forma və qaydada) barədə sənədlər təqdim olunmalıdır;*
  - *İxtisas göstəriciləri haqqında məlumat ƏŞT-nin 8-ci "Standart formalar" bölməsinin 7-ci "İddiaçının ixtisas göstəriciləri haqqında məlumat" bəndində göstərilmiş forma və qaydada təqdim olunmalıdır.*
- **Tender təklifi** (Tender zərflərinin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır. Tender təklifi Azərbaycan və ingilis dilində tərtib olunmalıdır (İngilis dilində olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır);
- **Tender təklifinin ümumi qiymətinin 1%-i (bir faizi) həcmində bank təminatı** (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və bank tərəfindən təqdim edilməlidir).

**İddiaçılar tenderdə iştirak üçün tələb olunan sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23 noyabr 2023-cü il Bakı vaxtı ilə saat 15:00-a qədər, ixtisas göstəriciləri uyğun gələn iddiaçıların tender təklifi və bank təminatını isə 01 dekabr 2023-cü il Bakı vaxtı ilə saat 15:00-a qədər (tender təkliflərinin açılmasına 1 (bir) bank günü qalmış) möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə Satınalan təşkilata təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 04 dekabr 2023-cü il Bakı vaxtı ilə saat 15:00-da, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 84, Hökumət Evi, qapı 5 ünvanında açılacaqdır.**

**Sənədlər Azərbaycan və ingilis dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (İngilis dilində olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar müsabiqədə iştirak etmək üçün göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) müəyyən edilən tələblərə uyğun təqdim etməlidirlər. Təklif və bank təminatı möhürlənmiş ikiqat zərfdə təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Təkliflərin açılışı zamanı iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.**

***Tender komissiyası***

---


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
## *2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


---

# Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Əsas vəsaitlərin və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri üzrə

## *açıq tender keçirir*

1. Tender proseduru 13 dekabr 2023-cü il tarixində saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi 90) keçiriləcək.

2. İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

3. Hesabat dövrünün sonuna İddiaçının məcmu kapitalı qanunvericiliyə müvafiq olaraq hesablanmış tələb olunan kapitalın məbləğindən az olmamalıdır.

4. Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də).

5. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestridən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın yanğından və digər risklərdən sığortalanmasına, habelə avtonəqliyyat vasitələrinin könüllü və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına dair verilmiş razılığın surəti;*
- *Tenderin Əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (Tender təklifi 13 dekabr 2023-cü il tarixindən azı 30 (otuz) bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) %-i məbləğində təminat (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının əsas vəsait və nəqliyyat vasitələrinin sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *satınalma prosedurunun başlanmasından əvvəlki 5 (beş) il ərzində iddiaçının özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyətinin dayandırılmaması barədə müvafiq dövlət orqanından arayış.*

6. İddiaçı tender təklifini və tender təklifinin təminatını 12 dekabr 2023-cü il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 04 dekabr 2023-cü il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Satınalmalar komissiyasının əlaqələndirici şəxslərinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaq.

7. İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində iştirak haqqı köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**kod 501004, VÖEN 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

8. Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2024-cü il tarixindən başlanılır. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə xidmət göstərilməsinə 25 yanvar 2024-cü il tarixindən başlanılır.

9. Xidmətin göstərilməsi müddəti: 1 (bir) il müddətində.

10. Qiymətləndirmə amilləri: qiymət, təklif olunan xidmətlər paketi üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

11. Tenderdə iştirak etmək istəyən sığortaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Satınalmalar komissiyasının əlaqələndirici şəxslərindən Azərbaycan dilində tərtib edilmiş Tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Tender üzrə əlaqələndirici şəxslər:**

Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22 (428).

Şəhriyar İmanov (İnzibati və satınalmalar departamenti). Telefon: 493-11-22 (214).

***Satınalmalar komissiyası***

---

**"Qala Sığorta" ASC-yə məxsus BB seriyalı, 778315 nömrəli ciddi hesabat blankı olan Daşınmaz Əmlakın İcbari Sığortası şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

---

# Ölkə ərazisində hava əsasən yağmursuz keçəcək

Azərbaycanda oktyabrın 27-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 14-17°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 22-27° isti təşkil edəcək.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək, gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 15-20° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 12-17°, bəzi yerlərdə 18-22° isti olacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 23-28° isti olacaq.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz olacaq. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 21-26° isti, dağlarda gecə 4-9°, gündüz 15-20° isti olacaq.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 24-29° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-15°, gündüz 23-28° isti, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və Aparat işçiləri Azərbaycan Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyasının prezidenti Bəkir Aslan oğlu Yusifova qardaşı

**FAMİL YUSİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5317
Sifariş 2770

Qiyməti 40 qəpik